Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 5 (6048) 9 fevral 2024-cü il | Qiyməti 40 qəpik

## BAYRAMIMIZ MÜBARƏK!



Bax:səh-2

## Hərbçilərin maaşları artırıldı



**Azərbaycan Müdafiə Nazirliyinin hərbi qulluqçularının aylıq vəzifə (tarif) maaşlarının məbləğləri artırılıb.**

Adalet.az xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərarla Azərbaycan Maliyyə Nazirliyinə tapşırılır ki, bu Qərarın icrası ilə əlaqədar tələb olunan əlavə vəsaitin maliyyələşdirilməsini Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsində müvafiq məqsədlər üçün nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirsin.

Qərar 2024-cü il yanvarın 1-dən tətbiq edilir.

## Putinin Türkiyəyə səfəri təxirə salındı

**Rusiya Prezidenti Vladimir Putinin Türkiyəyə səfəri qeyri-müəyyən müddətə təxirə salınıb.**

Buna hər iki liderin iş qrafikindəki uyğunsuzluqlar səbəb olub.

Xatırladaq ki, səfər fevralın 12-də baş tutmalı idi. Səfər zamanı enerji sektoru, taxıl dəhlizi, Qəzza zolağı və Suriyadakı vəziyyətlə bağlı əməkdaşlıq məsələlərinin müzakiresi planlaşdırılırdı.

## SAĞ ƏLLƏRİ BÜTÜN DALAŞANLARIN BAŞINA




**Hər şey yaxşı sonluqla bitdi. Dalaşan məşhur idmançılar barışdılar.**

"Baku post" saytına da bu barışıqda vasitəçi olduğu üçün minnətdarlığımızı bildiririk.

## FUTBOL BELƏ OLAR EY



**Axır ki Azərbaycan çempionatında maraqlı və azarkeşləri sevindirən gözəl bir oyun izlədik. "Sumqayıt"ın Mehdi Hüseynzadə adına on ildən sonra istifadəyə verilmiş stadionunda "Sumqayıt"la "Neftçi" 21-ci turun oyununa çıxmışdı. "Sumqayıt" 2:1 qalib gəldi. Söhbət kimin qalib gəlməyindən, kimin uduzmağından getmir. Oyunun bir gözəlliyi stadiondakı azarkeşlərdi. Yadırğamışıq stadionda azarkeş görməyə. Bir az "Turan" Tovuzun oyununa az-çox azarkeş gəlir, bir az da "Qarabağ"la" "Neftçi"nin oyunlarına. Azarkeşsiz oyunlar sönük keçir, çunki futbolçu tamaşaçılardan ruh alır.**

Nəhayət, Azərbaycan çempionatında dolu bir stadion gördük.

Eşq olsun "Sumqayıt" azarkeşlərinə. Təbii ki, "Neftçi"nin fanatlarını da unutmaq olmaz.

Kaş belə ola həmişə.

## BƏZİ SAYTLAR OXUCULARI BEZDİRİB




**Reytinq xətrinə nə gəldi qoyurlar başlığa: "Vəzifəli şəxsin qardaşı oğlu tutuldu"; "Vəzifəli şəxsin bacısı oğlu göldə boğuldu"; "Məşhur müğənniyə ağır itgi"; "Tanınmış polkovnik-leytenant vəfat etdi" və sair və ilaxır.**

**Açıb oxuyursan məlum olur ki, "vəzifəli şəxs" deyilən adam hansısa bir rayonun hansısa bir kəndinin icra nümayəndəsinin müavinidir. Tanınmış polkovnik-leytenant da təqaüddədir, onu da qohum-əqrəbasından və iş yoldaşlarından başqa tanıyan yoxdur. Məşhur müğənninin də öləni nə bilim xalası qızının nəyiymiş.**

**Bütün bunların oxucuya nə dəxli var?**

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## AFFA-nın MİN BİR OYUNU - İNDİ DƏ "QARABAĞ"ın BAŞINDA



***"Xəzər" (Lənkəran) kimi çempionatın rənginə rəng qatan, azarkeş sarıdan korluq çəkməyən, bütün cənub bölgəsinin sevimli komandası, özü də təkcə cənubluların yox, hamımızın sevimli komandası AFFA-nın oyunlarının qurbanı oldu.***

***İndi belə bir oyun region komandası "Qəbələ"nin başında oynanılır. Hadisələr belə davam eləsə "Qəbələ"ni də itirəcəyik.***

***"Qarabağ"ın uğurları, xüsusilə də Qurban Qurbanovla uğurları da çoxlarını narahat edir. Ona görə AFFA çalışdı ki, Qurban Qurbanovu "Qarabağ"dan kənarlaşdırsın, onu milli komandaya dəvət elədilər, üç illik müqavilə bağladılar, amma bir mövsümü sona çatdırmağa qoymadılar. Xocanı məcbur elədilər istefa ərizəsi yazsın. Xoca da Foqts kimi AFFA-nı şantaj edib pulunu tələb edə bilərdi, amma etmədi. Çünki Xocanın həyatı futboldu, pul deyil.***

***Ona görə milli komandadan kənarlaşdırdılar ki, Xoca "Qarabağ"ı atmadı. Necə ki vaxtilə Lobanovski SSRİ-nin baş məşqçisi olanda "Dinamo" Kiyevi, Beskov da "Spartak"ı atmamışdı.***

**Bax: səh.2**

## GÜNÜN LƏTİFƏSİ

Cavan tərbiyəçi otağa kompüter gətirir: **- Uşaqlar, deyin görüm, otaqda neçə kompyüter var?**

- Bir!

**- Düzdür, - tərbiyəçi ikinci sonra isə üçüncü kompüteri gətirir:- İndi neçə kompyüter oldu?**

Bu vaxt müdirə otağa gəlib soruşur:

**- Nə edirsən?**

**- Uşaqlara üçə qədər saymaq öyrədirəm!**

- Biz həmişə bunu alma ilə öyrədirik. Elə bil bunu sən də eləyə bilərdin!

- Axı kitabda kompyüter yazılıb.

**- Kitabın növbəti səhifəsində 10-a qədər saymağı avtobuslarla öyrədiblər. Ümidvaram otağa avtobus gətirməyə hazırlaşmırsan?**

# Rəcəb Tayyib Ərdoğan İlham Əliyevi təbrik edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.**

Adalet.az xəbər verir ki, məktubda deyilir:

"Hörmətli cənab Prezident, Əziz Qardaşım.

Bu gün keçirilən seçkilərdə uğur qazanaraq beşinci dəfə Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə millətim adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırıram.

Zati-alinizin uğurlu liderliyi ilə Azərbaycanın əmin addımlarla əldə etdiyi inkişaf, bütün torpaqlarını işğaldan azad etməsi və beynəlxalq aləmdə getdikcə artan nüfuzu bizim üçün daim qürurverici olub.

Türkiyə ilə Azərbaycan arasında "Sevincdə və kədərdə birlik" ilə "Bir millət, iki dövlət" şüarları zəminində formalaşan qardaşlıq və həmrəylik əlaqələri Şuşa Bəyannaməsi ilə münasibətlərimizin güclü əsasını təşkil etməyə davam edəcəkdir.

Qardaş Azərbaycan xalqı tərəfindən yenidən lider seçilməyinizin təkcə ölkələrimiz arasındakı bənzərsiz münasibətlər baxımından deyil, bölgəmizin uzun illərdir ehtiyac duyduğu sülh və sabitliyin bərqərar olması baxımından da böyük bir nailiyyət olduğunu düşünürəm.

Bu baxımdan müzəffər lider kimi seçkiləri uğurla başa vurmağınızdan sonra böyük əmək sərf etdiyiniz Ermənistanla müzakirələrin də sülh müqaviləsinin imzalanması ilə nəticələnəcəyinə ümid edirəm.

Bu düşüncələrlə seçkilərdə zəfərinizin həm qardaş Azərbaycan xalqı, həm də bölgəmiz üçün xeyirli olmasını diləyir, Sizə ali vəzifənizdə müvəffəqiyyətlər arzu edirəm".

# Putin Prezident İlham Əliyevə zəng edib

**Fevralın 8-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Vladimir Putin İlham Əliyevə prezident seçkilərində qələbəsi münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı və xalqımızın firavanlığı naminə prezidentlik fəaliyyətində uğurlar arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə Vladimir Putinə minnətdarlığını ifadə edib.

Dövlət başçıları müttəfiqlik və strateji tərəfdaşlıq əlaqələrimizin müxtəlif sahələrdə bundan sonra da inkişaf edəcəyinə əminliklərini bildirib, əməkdaşlığın perspektivləri ilə bağlı məsələləri müzakirə ediblər.

# Dövlət Bağçalı Prezident İlham Əliyevə zəng edib

**Fevralın 8-də Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Bağçalı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat Xidməti məlumat yayıb.

Dövlət Bağçalı İlham Əliyevə prezident seçkilərində qazandığı qələbə münasibətilə təbriklərini çatdırıb, ona Azərbaycanın inkişafı naminə fəaliyyətində uğurlar arzulayıb.

O, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qələbənin və suverenliyimizin tam təmin bərpa olunmasının önəmini bir daha vurğulayıb.

Dövlətimizin başçısı təbrikə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf edəcəyi vurğulanıb.

# Siyasi partiyalardan İlham Əliyevə dəstək Bəyanatı

**Müstəqil Azərbaycanın siyasi tarixində ən böyük seçki təcrübəsinə malik olan Vətəndaş Həmrəyliyi Partiyası ölkəmizdə keçirilən bütün seçki və referendumlarda həm namizəd, həm də müşahidəçilərlə aktiv şəkildə təmsil olunub.**

Adalet.az xəbər verir ki, bu barədə Vətəndaş Həmrəyliyi Partiyasının bəyanatında qeyd olunub.

Bildirilib ki, 7 fevral 2024-cü il tarixində ölkəmizdə keçirilən Prezident seçkilərində Vətəndaş Həmrəyliyi Partiyası öncədən Yeni Azərbaycan Partiyasının namizədi, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təmin edən Ali Baş Komandan İlham Əliyevi dəstəkləyəcəyini açıq şəkildə bildirib.

"Bu mövqeyinə sona qədər sadiq qalan Vətəndaş Həmrəyliyi Partiyası seçki prosesini diqqətlə izləmiş və seçki günü yüzlərlə seçki məntəqəsində öz müşahidəçiləri vasitəsilə səsverməni canlı müşahidə edib. Seçki öncəsi təbliğat və təşviqat işlərində namizədlər üçün yaradılmış bərabərhüquqlu imkan və şərait, onların mətbuata rahat çıxışının təmin olunması, əhali ilə görüşlərinə geniş imkanlar yaradılması seçkilərin demokratik ruhda keçiriləcəyinin ilkin əlamətləri olub. Seçki günü həm canlı şəkildə məntəqə və dairələrdə müşahidələr aparılıb, həm də yüzlərlə seçki məntəqəsində quraşdırılan kameralar vasitəsilə proses canlı izlənib.

Birmənalı şəkildə bəyan edirik ki, seçki prosesi boyu və səsvermə günü hansısa qanunsuz hal və pozuculuq fəaliyyəti tərəfimizdən müşahidə edilməyib. Seçkilərdə əhalinin rahat və dinc şəkildə səsverməsi təşkil edilmiş, onların seçiminə təsir göstərilməyib, seçki günü məntəqələrin ətrafında heç bir təbliğat işləri aparılmayıb. Seçkinin ilkin nəticələrini elan edən ekzitpolların mövqeyi Vətəndaş Həmrəyliyi Partiyası tərəfindən düzgün və məntiqi dəyərləndirilib.

Bu seçkilərdə Azərbaycan xalqı öz demokratik prinsiplərinə sahib çıxaraq Prezident seçkilərində yüksək seçici fəallığı göstərib. Seçicilərin böyük əksəriyyəti Azərbaycan xalqına misilsiz qələbələr bəxş edən, bizim də dəstəklədiyimiz İlham Əliyevə səs verib. Vətəndaş Həmrəyliyi Partiyası və partiyamızın çoxsaylı üzvləri adından seçkilərin nəticəsini ədalətli hesab etdiyimizi bəyan edir və İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə təbrik edirik. İnanırıq ki, İlham Əliyev bundan sonra Azərbaycanı daha güclü dövlətə çevirəcək və öz ali missiyası ilə bütün türk dövlətlərinin birliyinə nail olacaq. Bu şərəfli yolda Prezident İlham Əliyevə böyük uğurlar arzulayırıq", - bəyanatda vurğulanıb.

Azərbaycan Ümid Partiyası isə 7 fevral 2024-cü ildə keçirilən Prezident seçkilərini azad və şəffaf, nəticələrini legitim və ədalətli hesab edir. Bəyanatda bildirilib ki, 7 fevral 2024-cü ildə növbədənkənar Prezident seçkiləri təyin olunduqdan sonra Azərbaycan Ümid Partiyası Mərkəzi Aparat və Yerli Təşkilatlarında müzakirələr keçirərək, yekdil qərarla bu seçkilərdə Azərbaycan Respublikasının Prezidenti, Qarabağ qələbəsinin və suverenliyimizin ölkə ərazisində bərqərar olmasının memarı cənab İlham Əliyevi dəstəkləyib.

Seçki təbliğatı dönəmində partiyanın səlahiyyətli şəxsləri çoxsaylı çıxışlarında bu qərarın tarixi əhəmiyyətini və vacibliyini seçicilərə çatdırmış, müzəffər Ali Baş Komandan İlham Əliyevə səs verilməsinin ölkəmiz üçün faydalarından danışıblar.

Seçki günü çoxsaylı müşahidəçilərimiz dairə və məntəqələrdə seçki prosesini izləmiş, seçkilərin Seçki Məcəlləsinə uyğun keçirilməsini təsbit edib. Hər kəs sərbəst və azad şəkildə seçkidə iştirak edərək, mövqeyini ifadə ediblər.

Bu seçki ölkədə indiyə qədər keçirilmiş seçkilərdən öz mahiyyəti, azad və şəffaflığı baxımından əhəmiyyətli dərəcədə fərqlənib. Müstəqilliyimiz bərpa olunandan sonra ilk dəfə idi ki, ölkənin bütün ərazisində seçki keçirilirdi.

Azərbaycan Respublikasının Prezidenti seçilən cənab İlham Əliyevə Cənubi Qafqazda əbədi sülh və barışın olması üçün başladığı işi uğurla davam etdirməsi, ölkəmizin problemlərinin həlli istiqamətində can sağlığı və müvəffəqiyyət arzu edir".

## Gürcüstan və Azərbaycan arasında yeni gömrük postu tikiləcək

**Gürcüstan və Azərbaycan arasında İpək Yolu gömrük-keçid məntəqəsinin tikintisi Gürcüstan hökumətinin yeni fəaliyyət planında öz əksini tapıb.**

Adalet.az Gürcüstan mətbuatına istinadən xəbər verir ki, bu barədə Gürcüstanın baş nazirliyə namizədi İrakli Kobaxidzenin ölkə parlamentinə təqdim etdiyi hökumət planında qeyd olunub. Planda Gürcüstan və Azərbaycan arasında yeni birgə gömrük-keçid məntəqəsinin tikintisi üzrə fəal işin davam etdirilməsindən bəhs edilir.

Qeyd olunur ki, bu gömrük məntəqəsi iki ölkənin nəqliyyat-logistika potensialının inkişafına və regionda nəqliyyat-ticarət əlaqələrinin daha da möhkəmlənməsinə töhfə verəcək.

Plana əsasən, Şərq-Qərb istiqamətində yolların tikintisi davam etdiriləcək və işlər başa çatdıqdan sonra Tbilisidən Batumiyə gediş müddəti 3,5 saata enəcək.

# BAYRAMIMIZ MÜBARƏK!

**Bu, təkcə seçki deyildi, həm də Ümumxalq bayramı idi. Xalq Şuşaya bayraq sancılanda, Xankəndinə bayraq sancılanda necə bayram edirdisə, ondan da böyük bayram idi. Çünki ölkəmiz müstəqillik qazanandan sonra ilk dəfə azad və bütöv Azərbaycanda prezident seçkiləri idi. Xalq bu dövləti, bu milləti sabaha daşıyacaq liderini seçirdi.**

**Bu uzun illərdə bu qədər möhtəşəm bir seçki keçirilməmişdi. Seçki məntəqələrinin qabağında səhər-səhər adamlar bəzən saatlarla növbə gözləyirdi.**

**Mən Ağdam şəhər mərkəzində 57 saylı məntəqədə səs verməyə gedəndə uzun növbəni görüb gözləməyə qərar verdim. Sağ olsun həmyerlilərim, məni görcək haləhval tutub yolu açdılar ki, mən keçim. Növbəyə duranların arasında hətta bayraqlarla gələnlər də vardı. O bayrağa səs verməyə gəlirdilər, O bayrağı Şuşada, Xankəndində ucaldan Ali Baş Komandana, Cənab Prezident İlham Əliyevə səs verməyə gəlirdilər.**

**Xalqımızın bayramı mübarək olsun! Xalqımız üçün xeyirli, uğurlu olsun!**

**Cənab Prezident İlham Əliyevi ürəkdən təbrik edir, uzun ömür, can sağlığı və Dəmir Yumruğunun daha da möhkəm, əzmkar olması arzusuyla - Aqil ABBAS.**

***Aqil ABBAS***

# AFFA-nın MİN BİR OYUNU – İNDİ DƏ "QARABAĞ"ın BAŞINDA

*"Xəzər" (Lənkəran) kimi çempionatın rənginə rəng qatan, azarkeş sarıdan korluq çəkməyən, bütün cənub bölgəsinin sevimli komandası, özü də təkcə cənubluların yox, hamımızın sevimli komandası AFFA-nın oyunlarının qurbanı oldu.*

*İndi belə bir oyun region komandası "Qəbələ"nin başında oynanılır. Hadisələr belə davam eləsə "Qəbələ"ni də itirəcəyik.*

*"Qarabağ"ın uğurları, xüsusilə də Qurban Qurbanovla uğurları da çoxlarını narahat edir. Ona görə AFFA çalışdı ki, Qurban Qurbanovu "Qarabağ"dan kənarlaşdırsın, onu milli komandaya dəvət elədilər, üç illik müqavilə bağladılar, amma bir mövsümü sona çatdırmağa qoymadılar. Xocanı məcbur elədilər istefa ərizəsi yazsın. Xoca da Foqts kimi AFFA-nı şantaj edib pulunu tələb edə bilərdi, amma etmədi. Çünki Xocanın həyatı futboldu, pul deyil.*




*Ona görə milli komandadan kənarlaşdırdılar ki, Xoca "Qarabağ"ı atmadı. Necə ki vaxtilə Lobanovski SSRİ-nin baş məşqçisi olanda "Dinamo" Kiyevi, Beskov da "Spartak"ı atmamışdı.*

*Nə isə… İndi mətbuatda, sosial şəbəkələrdə vurhavur təbliğat gedir ki, Qurban Qurbanov AFFA-nın prezidenti olsun. Özü də Ukraynanın baş məşqçisi Andrey Şevçenkonu misal gətirirlər ki, o, niyə ola bilər, amma Qurban Qurbanov yox?*

*Əvvəla, Andrey Şevçenko bir məşqçi kimi Qurban Qurbanovun qazandıqları titulları qazana bilməmişdi, yəni məşqçi kimi tutdura bilməmişdi. Ona görə də məşqçilikdə bəxti gətirməyən Şevçenko getdi oldu dağılmış Ukraynanın dağılmış Futbol Federasiyasına prezident.*

*Qurban Qurbanovun alnına Allah tərəfindən məmurluq yazılmayıb, futbol yazılıb.*

*Mən inanmıram ki, Xoca kimi təmkinli bir adam küyə gedə AFFA-nın prezidentliyini qəbul edə.*

*İlan vuran ala çatıdan qorxar, AFFA bir dəfə Xocanı çalıb, Xoca ikinci dəfə ilan yuvasına girməz.*

*Yığışdırın bu hay-küyü.*

## Səfirliyimizə hücum edən şəxs edam olunacaq

**Azərbaycanın İrandakı səfirliyinə hücum edən şəxs barədə hökm elan edilib.**

Adalet.az xəbər verir ki, bu barədə İran Ədliyyə Nazirliyi məlumat verib.

Məlumata görə, səfirliyimizə hücum edən şəxs barəsində edam hökmü çıxarılıb.

# Ağdam ərazisindəki Beşikdağ kilsəsi ermənilərin hədəfində: "Vankasarın xaçı..."

**Əvvəlcə qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal edilmiş ərazilərdə dağıdılan, talan edilən mədəniyyət ocaqları, abidələr, tarixi-memarlıq nümunəsi olan tikililər, Azərbaycan xalqının Qarabağda saxtalaşdırmaya və mənimsənilməyə məruz qalan zəngin mədəni irsi ilə bağlı həqiqətlərin beynəlxalq səviyyədə ictimailəşdirilməsi dövlətimizin əsas prinsiplərindən biridir. Bununla bağlı bir sıra layihə və işlər həyata keçirilir.**

Amma Ermənistan bu nüansdan istifadə edərək Azərbaycana qarşı qarayaxmalarından qalmır. Beləki, Emənistan Mədəniyyəti Ombudsmanı bəyanat yayıb ki, Azərbaycanın sosial media platformalarında tapılan fotolarda Vankasar(Beşikdağ - Vangəsər Alban ) kilsəsinin xaçı yoxdur:"Bu kilsə həm də kilsə kimi Azərbaycan dövlət təbliğat maşını ilə təmsil olunur. Bu fakt bir daha sübut edir ki, Azərbaycan dövlət səviyyəsində işğal olunmuş Artsaxda mədəni soyqırım həyata keçirir. 1954-cü il Haaqa Konvensiyasının 4-cü maddəsi vandalizm, oğurluq, soyğunçuluq, mənimsəmə, düşmənçilik və mədəni irsə qarşı qisas hərəkətlərini qadağan edir.

1954-cü il tarixli ilk Haaqa protokoluna əsasən, işğal olunmuş ərazilərdə mədəni və mənəvi dəyərlərin məhv edilməsi qadağandır".

İndi gəlin araşdıraq görək, Beşikdağ kilsəsinin erməni ilə yaxından ya uzaqdan bir əlaqəsi varmı?

Beşikdağ kilsəsi və ya Vəngəsər kilsəsi Şahbulaq qalasının tam üstündə yerləşir

O ərazilərdə yaşayanlar bilir: Ağdərədən Xankəndinə gedən yolun sağ tərəfində, Xaçınçayın sahilindəki Beşikdağ dağında yerləşən VII əsrə aid alban kilsədir. Kilsə ilə bağlı məlumatlarda deyilir ki, kilsə xaç-günbəz formalı plana malikdir və memarlıq həlli baxımından Gədəbəy kilsəsi ilə oxşarlıq təşkil edir .

Kilsə haqqında ilk məlumatı erməni əsilli səyahətçi, tarixçi və salnaməçi Sarkis Cəlalyants tərəfindən verilib. o, 1858-ci ildə nəşr edilmiş əsərində Şahbulaq qalasından yuxarıda yerləşən kilsəni qeyd edir.[5] Makar Barkudaryan "Artsak" adlı əsərində kilsənin Arşakilər sülaləsindən olan Qafqaz Albaniyası hökmdarı II Vaçe tərəfindən inşa etdirildiyini qeyd edir.

Beşikdağ kilsəsi ilk dəfə Zelik Yampolski tərəfindən tədqiq edilmişdir. 1960-cı ildə nəşr edilmiş məqalədə Yamposlki kilsənin Qafqaz Albaniyasının memarlığına aid olmasını qeyd edir, ilk dəfə planını və şəkillərini nəşr edir, abidəni erkən orta əsrlərə aid digər alban kilsələri ilə müqayisə edir. Yampolskinin nəşrindən sonra erməni alimləri Murad Asratya, Şagen Mkrtçyan, V. Qriqoryan, S. Karapetyan, X Simonyan və S. Sanamyanonun fikirlərini tənqid edərək abidənin erməni memarlığına aid olduğunu iddia etmişlər. 1960-cı illərdə abidə Gavurqala arxeoloji ekspedisiyası tərəfindən tədqiq edilmişdir.



Qeyd edək ki, erməni arxeoloq , tarixçi , litoqraf Sedrak Barxudaryan tərəfindən 1964-cü ildə nəşr edilmiş məqalədə Şahbulaq ərazisindən aşkarlanmış və Azərbaycan Tarix Muzeyində saxlanan məzar daşından bəhs edilir. Qriqor Hammamın qohumuna aid olan bu məzar daşı Şahbulaq ərazisinin də IX əsrdə onun hakimiyyətinə aid olduğunu sübut edir.

**Bulaqdan şimal-qərbdə dağın enişində qədim xristian qəbirsanlığı yerləşir. Əsrlər ərzində məzar daşlarının bir çox aşaraq ilkin görünüşünü itirmiş, bəziləri qismən və tamamilə torpaq altında qalmışdır. Beşikdağın yüksək qayalıq ərazisində xaç-günbəz formalı kiçik kilsə yerləşir. İlk baxışdan kilsənin ətraf mühitin sərt landşaftına uyğunlaşması diqqəti cəlb edir. Belə təəssürat yaranmasının əsas səbəbi dəqiq müəyyən edilmiş ölçülər, həmçinin rəng çalarıdır. Kiçik ölçülərinə baxmayaraq, kilsə hündür divarlara malikdir. Onun divarları yonulmuş boz ahəng daşlarından hörülmüşdür.**

**Əntiqə Rəşid**

***(Yazının hazırlanmasında Vikipediya məlumatlarından istifadə edilib)***

# Ermənilər şokda: Xumaryanla Paşinyanın «artsax bayrağı» qarşıdurması

**Ermənistanın baş naziri Nikol Paşinyan "Qarabağ Azərbaycandır" dedikdən sonra qondarma rejimlə əlaqədər bir çox şeyə qadağa qoydu. O qadağalardan bir İrəvan küçələrində yeri gəldi-gəlmədi gözəçarpan "artsax bayraqları" adlı əski parçalarının yığışdırılması oldu.**



Düzdür, bu hal nə "artsaxlı"ların, nə də revanşist ermənilərin xoşuna gəlməsə də Paşinyan "artsax"la bağlı tədbirlərini gizlətmir.

31 yanvarda Ermənistanın "İctimai" radiosuna müsahibə verən baş nazir Nikol Paşinyanın həmin radionun ofisindəki hərəkəti hazırda ermənilər arasında ən çox müzakirə olunan mövzulardandır.

Beləki, Paşinyan radioya müsahibə verməyə getməzdən əvvəl ofizə gələn rəsmi şəxslər İctimai Radiodan artsax bayrağını yığışdırıblar.

Radiostansiyanın təhlükəsizlik işçiləri müqavimət göstərsələr də, sonda bayraq götürülüb. Sonradan geri qaytarıldı. İctimai Radionun icraçı direktoru Qaregin Xumaryanla danışıb. O, bayrağın bir neçə saat götürüldüyünü təsdiqləyib.

**Sonuncu məlumatlara görə, əraziyə gələn səlahiyyətli şəxslər Paşinyanın xəbərdarlığını radio rəhbərliyinə çatdırıb. Bundan sonra əsgi parçası binanın önündən yığışdırılıb.**

**Ə. Rəşid**

# *Hikmət Hacıyev:* "Azərbaycan üçün hərbi əməliyyatlar geridə qalıb, biz ərazi bütövlüyümüzü bərpa etmişik"

*Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyanın ZDF nəşrinin təxribat xarakterli suallarını cavablandırıb və rəsmi Bakının mövqeyini aydın şəkildə ortaya qoyub.*

*Adalet.az həmin müsahibəni oxucuların diqqətinə çatdırır:*



**- Ötən ilin sonunda İlham Əliyev Ermənistanın cənub rayonlarını da Azərbaycanınkı hesab etdiyini bildirdi. İndi Əliyevin məqsədi Ermənistandan əraziləri geri almaqdır?**

- Prezident belə bir şey deməyib və təəssüf edirəm ki, beynəlxalq KİV-də onun sözləri yanlış şərh olundu. Əslində o, başqa şeyi nəzərdə tuturdu. Azərbaycanlılar həmişə indiki Ermənistan ərazisində yaşayıblar. Mənim əcdadlarım da indiki Ermənistan ərazisində yaşayıblar. Biz şəxsiyyətlərarası təmaslardan danışırıq. Azərbaycanlıların da bu əraziləri, məsələn, mədəniyyət ocaqlarını, qəbiristanlıqları ziyarət etmək hüququ olmalıdır. Bu, Ermənistana qarşı ərazi iddiaları demək deyil.

Zəngəzur dəhlizinə gəlincə, ümid edirik ki, Ermənistan üzərinə düşən öhdəlikləri yerinə yetirəcək. 2020-ci ilin üçtərəfli bəyanatına əsasən, Ermənistan Azərbaycana əsas ərazisi ilə Naxçıvan arasında maneəsiz əlaqə təmin etməyə razılaşıb. Lakin Ermənistan hələ də üzərinə götürdüyü öhdəliyi yerinə yetirməyib.

**- Azərbaycanda Ermənistana hərbi zərbə endirmək ehtimalı müzakirə olunurmu?**

- Yox. Bizim üçün istənilən hərbi müdaxilə geridə qalıb, çünki Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib. Azərbaycan əməliyyatları yalnız öz ərazisində və özünümüdafiə hüququnu nəzərdə tutan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq həyata keçirib. İkili standartlar və ərazi bütövlüyünə seçici münasibət olmamalıdır.

**- Hazırda Azərbaycanın da üzv olduğu Avropa Şurası Parlament Assambleyası (AŞPA) ilə bağlı müzakirələr gedir. Bu onunla bağlıdır ki, bir çox deputatlar Azərbaycanı xarici və daxili siyasətdəki tendensiyalara görə tənqid edirlər. İndi Azərbaycan bu assambleyanı tərk etmək istəyir. Niyə?**

- Çox təəssüf edirəm ki, vəziyyət bu həddə çatıb. Amma AŞPA-dakı bəzi deputatlar, xüsusən də Almaniyadan olanlar hamıya mühazirə oxumağı, ağıl verməyi xoşlayırlar. Qərbdə baş verən bəzi hadisələrlə bağlı bizdə də böyük narahatlıq var. Məsələn, Aİ-də miqrantların hüquqları məsələsi ilə bağlı. Biz həmçinin islamafobiya və antisemitizm ilə bağlı vəziyyətdən də narahatıq. Amma AŞPA deputatları bütün bu məsələlər barəsində susurlar və yalnız Azərbaycanı təhqir edirlər.

**- AŞPA üzvlərinin seçkilərə buraxılmamasının səbəbi də bu idi?**

- Azərbaycanın AŞPA qarşısında seçkilərə müşahideçi dəvət etmək öhdəliyi yoxdur. Bizim ATƏT qarşısında öhdəliklərimiz var. Biz əməkdaşlıq edirik və hazırda prezident seçkiləri ilə bağlı ATƏT nümayəndələri Bakıdadırlar. Təəssüf edirəm ki, AŞPA-nın bəzi üzvləri Avropa Şurası çərçivəsində ümumi əməkdaşlıq ruhuna xələl gətirirlər. Bunun arxasında hansı məqsədlərin dayandığını bilmirəm. Biz bunun qeyri-məhsuldar olduğunu düşünürük. Hesab edirəm ki, Azərbaycan AŞPA-ya böyük fayda gətirirdi.

**- Noyabr və dekabr aylarında Azərbaycanda hökumətdə korrupsiya hallarını araşdıran bir neçə jurnalist həbs edilib. Onlar bu araşdırmalara görə həbs olunublar?**

- Korrupsiya ilə bağlı araşdırma apardıqlarını iddia edən strukturların özləri korrupsiya ilə məşğul olublar. Bəzi KİV-lər Azərbaycandakı fəaliyyətlərinə görə qanunsuz çirkli pulların yuyulması kanalları vasitəsilə 300 min ABŞ dolları alıblar. Bizim həmçinin media təşkilatlarından maliyyələşmələri barədə soruşmaq hüququmuz var. Bu strukturlar şəffaflığı təmin etməyib. Onlar Azərbaycandan kənarda qeyri-qanuni mənbələrdən istifadə etməklə çirkli pulların yuyulması fəaliyyətlərini davam etdiriblər.

# Rusiya mətbuatı Qarabağda aparılan quruculuq işlərini işıqlandırıb

**Rusiyanın NEWS.ru resursu Qarabağda aparılan bərpa və quruculuq işləri ilə bağlı material hazırlayıb.**



Laçın rayonunun Zabux kənd sakini Rauf Şirinoğlu NEWS.ru-nun müxbirinə bildirib ki, Azərbaycanın hərbi əməliyyatlarından sonra işğaldan azad edilən Qarabağ kəndlərinə insanlar yeni tikilmiş evlərə qayıdırlar.

Onun sözlərinə görə, onların normal yaşaması üçün hər şərait var.

Şirinoğlu 1992-ci ildə Ermənistanda atəşə tutulan həmkəndliləri ilə birlikdə evlərini necə tərk etdiyini xatırladıb.

"O vaxt bizim kənddə bütün evlər dağıdılıb. 44 günlük müharibə nəticəsində Zabux 2021-ci ilin payızında azad edilib. Hökumət yeni evlər tikib.

İndi mənim beşnəfərlik ailəm üçün beşotaqlı evim var. Evdə su, işıq, qaz, internet, kanalizasiya - normal həyat üçün lazım olan hər şey var", - deyə Şirinoğlu bildirib.

Onun sözlərinə görə, sərhəd kəndi Zabux 1990-cı ilin əvvəlində Ermənistandan silahlı yaraqlıların atəşə tutduğu ilk kəndlərdən olub. O, bundan sonra doğma kəndini tərk etməli olduğunu bildirib.

"Ermənistan ərazisindən sərhəd kəndimiz artilleriya və minaatanlardan atəşə tutulub. Helikopterlər də kəndi havadan atəşə tuturdu, çünki bizə deyildiyi kimi, sovet aviasiya bölməsində çoxlu erməni zabiti var idi. Qubadlıya gedən yolla Azərbaycanın digər rayonlarına getməli olduq", - deyə Şirinoğlu bildirib.

Onun sözlərinə görə, bütün bu illər ailəsi ilə birlikdə Bakıda yataqxanada yaşayıb. Daha sonra Azərbaycan hökumətinin ona ayırdığı sosial ev proqramından yararlanıb. Dekabr ayında ailəsi doğma kəndlərinə qayıdıb.

"Mən 1970-ci ildə əcdadlarımın doğulub yaşadığı Zabuxda anadan olmuşam. Keçən ilin dekabrında isə ailəmlə doğma torpağa qayıtdıq!" - deyə Şirinoğlu fikrini tamamlayıb.

**Əvvəllər Rusiya sülhməramlı kontingentinin yerləşdiyi Qarabağın Laçın şəhəri, ətraf Zabux və Sus kəndləri 2022-ci ilin avqustunda Azərbaycanın tam nəzarətinə keçib. Daha sonra orada bərpa işlərinə və məcburi köçkünlərin geri qaytarılması prosesinə başlanılıb.**



*Məzahir ƏHMƏDOĞLU*

# GÜNÜN BƏXTİ

**(reportaj)**

**...Adi günlərdən biridir fevral ayının yeddisi. Ancaq bu ilin bu günü Azərbaycanımızın müstəqillik tarixində 8-ci dəfə prezident seçkisi keçirilir. Bu il ilk dəfə seçkilər bütün ölkə ərazisində əsl bayram ovqatı yaradıb. Bu, İkinci Qarabağ müharibəsindən və antiterror tədbirlərindən sonra keçirilən ilk möhtəşəm seçkidir.**

Növbədənkənar prezident seçkisi ilə əlaqədar fevralın 6-da Bakı Biznes Mərkəzində Mərkəzi Seçki Komissiyası rəhbərliyinin mətbuat konfransı zamanı MSK sədri Məzahir Pənahov bildirdi ki, 7 fevral Azərbaycanda tarixi bir gündür.

Bu seçki Azərbaycan xalqı üçün müstəsna əhəmiyyətlidir. Azərbaycan seçiciləri ilk dəfə suveren Azərbaycanın ərazilərinin hamısında səsvermədə iştirak edəcək...



...Elə buradaca qeyd etməliyəm ki, Prezidentimiz, Ali Baş Komandanımız - Qarabağ Fatehi İlham Əliyevin Xankəndində fəaliyyət göstərən seçki məntəqəsində ailə üzvləri ilə birlikdə səsvermədə iştirak etməsi sevinc və qürurumuzun hüdudsuzluğu idi...

Bəli, fevralın 7-də ölkəmizin hər yerində olduğu kimi Göyçay rayonunda da prezident seçkisi yüksək əhval-ruhiyyə və seçici fəallığı ilə başladı. Məlumdur ki, seçki hər bir ölkənin həyatında ən mühüm hadisədir. Əsasən də prezident seçkisi qarşıdakı illərdə ölkəyə rəhbərlik edəcək şəxsin müəyyənləşməsinə xidmət edir. Bu mühüm hadisə hər dəfə respublikamızda ciddi xarakter alır. Seçki hüququna malik olan hər bir Azərbaycan vətəndaşı seçki prosesinin ən mühüm hadisəsinin iştirakçısına çevrilir. Bir ölkənin ki vətəndaşı seçmək hüququ qazanıb, deməli, onun ölkəsi azad, suveren ölkələr sırasındadır. Yəni səs vermək bir qürur məsələsidir, azadlığın və özünəinamın təsdiqi, təntənəsidir.

...Bəli, Göyçay rayonunda da 7 fevral səhəri belə bir əhval-ruhiyyəni təlqin edir. Qışdan çox baharın ilk günlərinə bənzəyən bu ılıq fevral səhəri seçki məntəqələrinə yol alan sakinlərin üz-gözündəki xoş ovqatı daha da işıqlandırırdı. Təbəssüm, sevinc, hal-əhval, daha xoş gələcəyə tükənməz inam... Bütün bunların mənbəyi əlbəttə ki, ilk olaraq torpaqlarımızın 44 günlük müharibə və son olaraq antiterror əməliyyatlarından sonrakı tam Qələbəmizin iftixarıdır. Azərbaycanın cəsur oğulları ilə birlikdə misilsiz tarix yazan Əfsanəfi Ali Baş Komandanımız bu gün hər bir soydaşımızın qüruru, baş ucalığıdır. Böyük Qələbəmizdə öz payı olan göyçaylıların da vətən sevgisi, vətən sevdası bu hislərə köklənib.

Seçki gününü hamı bir bayram ovqatı ilə yaşamaqdadır.

Göyçaylıların bu siyasi hadisəyə böyük önəm verməsi, həm də rayonda prezident seçkisinə hazırlıq tədbirlərinin yüksək səviyyədə təşkil olunmasıdır. 91 saylı Göyçay, 92 saylı Göyçay-Ağdaş seçki dairələrini əhatə edən bütün seçki məntəqələri yüksək tələblərə cavab verir. Bunu müşahidəçilər də xüsusi vurğulayırlar.

Seçici fəallığının digər bir səbəbi də Qələbəmizlə yanaşı, şübhəsiz, son illər respublikamızın sosial-iqtisadi inkişafın dinamikliyi, iri miqyaslı layihələrin həyata keçirilməsi, eləcə Göyçay rayonunda aparılan yeni quruculuq işləri, yeni iş yerlərinin açılması, sosial-iqtisadi və mədəni inkişafın təntənəsidir. Son vaxtlar Göyçay rayonunda həqiqətən inkişafın bütün istiqamətləri üzrə xeyli iş görülüb və bu tədbirlər uğurla davam etməkdədir. Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayevin yenilikçi, ziyalı və səmimi davranışı, komandasının fəaliyyətini düzgün və effektiv istiqamətləndirməsi diqqəti



cəlb edir, sakinlərdə ruh yüksəkliyi yaradır. Göyçaylılar göstərilən qayğı və diqqəti yüksək qiymətləndirirlər, ölkə rəhbərliyinə minnətdarlıq edirlər. Bütün bunlar nəticə etibarı ilə Prezidentin apardığı daxili və xarici siyasətin böyük uğurlarını təsdiqləyir.

...Saat 11-ə qalmış 92 saylı Göyçay-Ağdaş seçki dairəsinin 5 saylı məntəqəsində səsverməyə gələnlərin sayı faiz nisbəti ilə 38 faizi ötmüşdü. Burada ilk dəfə səs verən gənclər də var, yaşlı seçicilər də.



Onlar hədsiz sevinclə ölkəmizin xoş gələcəyinə səs verir, mənim suallarımı həvəslə cavablandırırlar. Açıq danışırlar, sevinirlər, Azərbaycanımızı, doğma rayonları Göyçayı çox sevdiklərini bildirirlər.

Sonra baş çəkdiyimiz 92 saylı Göyçay-Ağdaş seçki dairəsinin 13 saylı seçki məntəqəsində də yüksək hazırlığın və seçici fəallığının şahidi oluruq. Məntəqənin sədri Şəfəq Xəlilova komissiya üzvlərinin fəaliyyətindən, müşahidəçilərin seçki qanunları çərçivəsində münasibətindən, seçicilərin rahat və sərbəst şəkildə iştirakından razılıq edir.

Rayon Mədəniyyət Mərkəzində yerləşən seçki məntəqəsində də təşkilati işlər və fəallıq Göyçay seçicilərinin bu mühüm hadisəyə necə böyük həvəslə qoşulduqlarının real göstəricisidir.

Günortaya yaxın 91 saylı Göyçay seçki dairəsinin Çəyirli, Qaraman, Ləkçılpaq və digər bir neçə kəndlərində yerləşən məntəqələrində də oluruq. Bu məntəqələrdə də hazırlıq işlərinin gedişatı, seçicilərin yüksək fəallığı diqqəti cəlb edir.

Prezident seçkilərində fəxrlə iştirak edən rayon sakinlərindən Mehman Eminov, Səbuhi Abdullayev, Dilşad Mirzəyeva, Nüşabə Məmmədova, Tuncay Əhmədov, Elçin Bilalov və başqaları da ölkəmizin xoş gələcəyinə, böyük quruculuq işlərinin davamına, daxili və xarici siyasətimizin bütün istiqamətlərdə qələbəsinə aparan namizədə səs verdiklərini sevinc hissi ilə söyləyir, doğma Azərbaycanımızın daha böyük uğurlara imza atacağına inandıqları əminliklə söyləyirlər.

**...Axşamüstü aldığımız məlumatlar sevinc doğurur. Respublikamızın hər yerində olduğu kimi, Göyçay rayonunda da prezident seçkiləri uğurla yekunlaşmaqdadır...**

## Respublikaçılar Ukraynaya yardım edilməsini istəmirlər

**ABŞ Konqtessinin nümayəndələr palatasının respublikaçılardan olan nümayəndələri, prezident Co Baydenin Ukraynaya yox, yalnız İsrailə yardım layiyəsinə veto qoymaqla bağlı təhdidlərini tənqid ediblər.**

Nümayəndələr palatasının üzvü Mario Dias-Balartanın sözlərinə görə, qanun layihəsinə veto qoymaqla təhdid etmək- məsuliyyətsizlikdir. Konqressmen Cim Cordan isə qeyd edib ki, Bayden qanun layihəsini ləğv edərsə belə, bu layihə kifayər qədər dəstək almaqla, qoyulacaq vetonu keçmək imkanlarına malikdir.

Bildiririk ki, ABŞ prezidenti Co Bayden, daha əvvəl Konqressin nümayəndələr palatasının respublikaçılar tərəfindən irəli sürülən, Ukraynaya yox, yalnız İsrailə yardım edilməsiylə bağlı irəli sürdükləri qanun layihəsinə veto qyacağı ilə hədələmişdi.

## Konqressmen siyasətçilərə Ukraynada döyüşməyi təklif etdi

**ABŞ Senatının nümayəndələr palatasının üzvü Anna Paulina Luna, Ukraynaya yardım paketinin bəyənilməsi fonunda bu təklifi bəyənən kolleqalarını və bütün siyasətçiləri, amerikan hərbiçilərinin ABŞ ərazilərindən kənarda döyüşə göndərmək istədiklərinə qoşulmağı və Ukrayna müharibəsində döyüşə getməyi təklif edib.**

"Mən Demokratların nümayəndələr palatasındakı lideri Çak Şumerin şərəfinə, amerikan hərbiçilərinin Ukraynaya döyüşə göndərilməsini tələb edən bütün siyasətçiləri, onlarla birlikdə cəbhədə döyüşə göndərilməsi ilə bağlı qanun layihəsinin qəbul olunmasını təklif edirəm"- deyə Luna bəyan edib.

Daha əvvəl isə, Luizana ştatından olan respublikaçı, Nümayəndələr palatasının spikeri Mayk Conson, Ukrayna və İsrailə yardım paketinin göndərilməsi ilə bağlı, həmçinin Meksika sərhədlərində amerikan nəzarətinin gücləndirilməsi ilə bağlı qanun layihəsi təkliflərini tənqid edərək qeyd etmişdir ki, hətta bu sənəd nümayəndələr palatasınadək gəlib çıxsa belə, iflasa uğrayacaq.

"Bu Qanun layihəsi gözlədiyimizdən də pisdir. Prezident Co Baydenin hazırladığı bu təklif, sərhədlərdə baş verən fəlakətə son qoymağa yaxın bir təklif də deyil"- deyə Conson bildirmişdir.

**Rüstəm Hacıyev**

## Hərbi xidmətdən yayınmaq üçün saxta sənəd hazırlayan şəxsə cinayət işi açıldı

**Müddətli həqiqi hərbi xidmətdən yayınmaq məqsədilə ali təhsil almaq barədə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ rayon şöbəsinə təqdim edilməsi üçün saxta arayışlar hazırlayan şəxsin qanunsuz əməlləri ifşa edilib.**

Adalet.az xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb.

Bildirilib ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində aparılan araşdırma zamanı Xəlilov Fuad Elçin oğlu tərəfindən 2023-cü ildə müddətli hərbi xidmət keçməkdən yayınmalarına köməklik göstərilməsi məqsədilə 2 nəfər Qəbələ rayon sakininin guya Türkiyə Respublikasının Sakarya Universitetində təhsil almalarına dair saxta



sənədlər hazırlaması və bunun müqabilində həmin şəxslərin valideynlərindən müxtəlif vaxtlarda ümumilikdə 6300 manat pul almasına əsaslı şübhələr müəyyən edilib. Toplanmış sübutlar əsasında Baş İdarədə Cinayət Məcəlləsinin 178.2.2 (dələduzluq, təkrar törədildikdə) və 320.1-ci (rəsmi sənədi qanunsuz hazırlama və satma) maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə daxili işlər orqanlarına göndərilib.

Müddətli həqiqi hərbi xidmətə çağırışdan boyun qaçırma hallarına qarşı kompleks mübarizə tədbirləri bundan sonra da davam etdiriləcəkdir.

## Paşinyan: "Sülh müqaviləsinin imzalanması ilə bağlı bütün məsələlər həllini tapıb"



**Ermənistan Respublikasının yeni Konstitusiyasına dəyişiklik edilməsi ilə bağlı qərarı xalqın öz iradəsini sərbəst ifadə etmədi ilə həyata keçirilə bilər.**

Adalet.az xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan deyib.

O, yeni Konstitusiyanın qəbulu ilə bağlı açıqlama verərkən bildirib ki, guya bu addım sülh müqaviləsinin imzalanması üçün edilir: "Demək istəyirəm ki, sülh müqaviləsinin imzalanması ilə bağlı bütün məsələlər öz həllini tapıb. Sülh müqaviləsinin mətnində razılaşdırılmış maddə var: tərəflər bu müqavilə ilə götürülmüş öhdəliklərin yerinə yetirilməməsi üçün öz qanunvericiliklərinə istinad edə bilməzlər. Yəni burada söhbət sülh müqaviləsindən getmir. Biz daim Azərbaycan və Türkiyə haqqında danışırıq, lakin ümumilikdə yeni şəraitdə xarici dünya ilə münasibətlərimiz haqqında düşünməliyik".

Paşinyanın sözlərinə görə, Konstitusiyalarda mümkün ziddiyyətlər baxımından məsələ sülh sazişində göstərilən razılaşdırılmış maddə ilə həll olunub.

# Aqil Abbas erməniləri qəzəbləndirdi: Erməni kilsələri, Makron və sanksiya...

**Milli Məclisin üzvü Aqil Abbasın açıqlaması rmənilər bərk əsəbləşdirib. Hazırda erməni mediası və sosial şəbəkələrin erməni seqmentində Azərbaycanlı deputat hədəf alınıb.**



Erməni mediası yazır: "Azərbaycanlı deputat Aqil Abbas Makronu hədələyir və əhalisi azalmış Artsaxın "təmir edilmiş kilsələri" ilə öyünür. Milli Məclisin bu gün keçirilən iclasında "alovlu nitq" səsləndirilib.

"Fransanın urana ehtiyacı var, indi onun yeganə ümidi Qazaxıstandır. Qazaxıstandan Fransaya iki yol var. Uran təyyarələrlə daşınmadığı üçün gəmilərlə daşınmalıdır. Bunun üçün ya Rusiyadan keçən yol, ya da Azərbaycandan keçən yol olmalıdır. Rusiya buna icazə vermir. Azərbaycan qalır. Sanksiya tətbiq etsək, Fransa nə edəcək?", - deyə "həvəsli" parlamentari bildirib.

Abbas daha da ilhamlanaraq dedi: "Mən çox istərdim ki, Makron Azərbaycana dəvət olunsun. Gəlsin görsün ermənilər burada necə yaşayır. Biz kilsələri və sinaqoqları sökmürük. Makron gəlsin görsün Şuşada kilsələr necə təmir olunur. Amma düzünü desəm, belə imkanım olsaydı, onları təmir etməzdim".

Azərbaycanlı deputatın təhqiramiz formada (erməni kilsələrinin "təmiri" adlandırdığı - xaçların yıxılması, erməni mədəni irsinin qəsb edilməsi) öyünməsi etnik təmizləmə təhlükəsi altında olan.Qarabağın kütləvi şəkildə boşaldılması fonunda daha da hörmətsizlik kimi səslənir".

Əslində ermənilərin bu qədər Aqil Abbasa əsəbləşməsinin bir səbəbi yox, bir neçə səbəbi var!

**1.** Aqil Abbas ermənilərin mənimsədiyi torpaqlarda özlərindən quraşdırdığı, saxta "qədim erməni mədəni irsinə" istehzayla yanaşması və onların saxtakarlığını bir daha üzlərinə vurması.

**2.** Aqil Abbas ermənilərin "payını" qabağına qoyandan sonra onların "böyük bacısı" Fransanı, bir başa ermənilərin adamı, müdafiəçisi olan prezident E. Makrona da "sataşması. Onun zaman gələr Azərbaycana möhtac olacağını vurğulaması.

**3.** Bir də Aqil Abbasın qalib dövlətin parlament üzvü olaraq, vətəndaşı olaraq danışması tutarlı zərbə kimi ermənilərin təpəsinə dəyib.

Qaliblər ittiham olunmur, erməni məğlubları....

***P.S. Ermənilərin çoxu bəlkə də bilmir ki, Aqil Abbas yazıçıdır, SÖZ adamıdır. SÖZ adamlarının da elə sözü var ki, heç bir batman balla da yemək olmur. Necə ki yeyə bilmir ermənilər.***

**Əntiqə Rəşid**

# Bakcell Qarabağda xidmət mərkəzlərinin sayını artıracaq

**İnnovativ texnologiyalar sahəsində daim inkişaf edərək yenilikləri abunəçilərinə təqdim edən Bakcell şirkəti Qarabağ bölgəsində öz strateji genişlənmə planlarını elan edib.**

Adalet.az xəbər verir ki, şirkətdən verilən məlumata əsasən, Bakcell regionda xidmət mərkəzlərinin sayını 10-a çatdıracaq. "Bu genişlənmənin əsas məqsədi regionda yaşayan vətəndaşlarımız ilə əlaqələrimizi daha da gücləndirmək, onlara ən son innovativ texnologiyaları təqdim etməkdir",- deyə şirkətdən bildirilib. Xatırladaq ki, Bakcell ötən il Qarabağ bölgəsində ən müasir səs texnologiyası olan VoLTE xidmətini və ölkənin ən sürətli mobil internet şəbəkəsini öz abunəçilərinin ixtiyarına verib. Həmçinin, regionda baza stansiyalarının sayını 120-dən yuxarıya çatdırıb.

Bakcell zəruri infrastrukturun qurulması istiqamətində, eləcə də ən son texnologiyaların regiona gətirilməsində genişmiqyaslı fəaliyyətini daha da gücləndirəcək.

Həyata keçirilən layihələr NEQSOL Holding-in Azərbaycanın Qarabağ regionunda ümumilikdə 200 mln manatadək sərmayə yatırmaq planlarının bir hissəsidir.

Bakcell şirkəti NEQSOL Holding-in tərkibinə daxildir.

# Qarabağdan sökülüb tarixin zibil yeşiyinə süpürülən heykəllər

**Qarabağda terrorçu və işğalçılara verilən sonuncu antiterror əməliyyatından sonra 35 il nəzarətsiz qalan torpaqlarımızda lazımsız əşyaları , zibilləri təmizləmək prosesinə başlanılıb. Beləki, vaxti ilə tikintisini başladaraq Azərbaycanı sarsıdan erməni separatçıları indi bəd əməllərinin nəticələrinə baxıb stresdən bəlkə də az qala bayılırlar.**

İndi isə sizə Qarabağdan təmizlənən zibilləri xatırladaq:

Stepan Şaumyan XX əsrin əvvəlində Qafqazda fəaliyyət göstərmiş erməni əsilli kommunist-daşnak inqilabçı olub. O, 1900-cü ildən Kommunist Partiyasının üzvü, 26 Bakı komissarının rəhbəri idi.

Bolşevik hərəkatının bayrağı altında çıxış edən Şaumyan əslində, Türkiyə və Azərbaycanın xeyli hissəsində erməni dövlətinin yaradılmasını özünün strateji məqsədi elan etmiş erməni millətçiliyinin maraqlarını ifadə edirdi. 1918-ci ilin mart-aprel aylarında Şaumyanın və onun başçılıq etdiyi Bakı Sovetinin apardığı siyasətin nəticəsi on minlərlə azərbaycanlının soyqırımı oldu.

Tarixi faktlar göstərir ki, 26 Bakı Komissarı 20 sentyabr 1918-ci ildə hazırkı Türkmənistanın ərazisində, ingilis Mərkəzi Asiya ekspedisiyası tərəfindən güllələnərkən Şaumyan onların arasında olmayıb. O, qaçıb Hindistanda gizlənib və orada yaşayaraq ölüb. Sovet dövründə Xankəndi şəhərinin adı dəyişdirilərək Stepan Şaumyanın adına "Stepanakert" qoyulmuşdu. Stepan Şaumyanın Xankəndidəki heykəlinin söküldü.

Erməni nasist Qaregin Njdenin Azərbaycanın Xocavənd şəhərindəki heykəli antiterror əməliyyatından xeyli əvvəl götürülmüşdü.

Bunu erməni deputat Sofya Ovsepyan elə o vaxt elan etmişdi."Abidə dəqiq sökülüb və Tarix muzeyinə daşınıb".

Milli Məclisin deputatı, tarixçi-alim, AMEA-nın Qafqazşünaslıq İnstitutunun direktoru, professor Musa Qasımlı sözləri ilə desək, bu məxluqun əsas fəaliyyət istiqaməti qanlı terror əməlləri törətmək və ictimai qaydanı pozmaq olub. O, İranda, Rusiya ərazisində terror aktlarının törədilməsində iştirak edib. Çarizm orqanları onu həbs edib.

Həbsxanadan buraxıldıqdan sonra 1912-ci ildə Balkan müharibələri başlayanda isə yenidən Bolqarıstana gedib və erməni silahlı dəstələrinin, terror qruplarının qurulmasında iştirak edib.








Birinci dünya müharibəsi illərində Qafqaz cəbhəsində terrorçu, "Dro" ləqəbi ilə tanınan Drastamat Kanayanın başçılıq etdiyi erməni silahlı dəstələrinin birində onun müavini olub. Şərqi Anadoluda, rus Qafqaz cəbhəsi dağıldıqdan sonra isə Cənubi Qafqazda mülki əhalinin kütləvi şəkildə öldürülməsində ad çıxarıb.

Azərbaycan torpaqlarında Ararat Respublikası - Daşnak Ermənistanı qurulduqdan sonra Njde azərbaycanlı əhalinin soyqırımında qanlı rol oynayıb. Vedibasarda, Zəngəzurda mülki əhalinin məhv edilməsi ilə tanınıb.

Erməni mənbələrinin verdiyi məlumata görə, Qarabağda Sovet İttifaqı Qəhrəmanı Nelson Stepanyana məxsus 3 abidə olub Biri doğulduğu Şuşa da, Xankəndidə və Əsgəranın Xanabad kəndində.

Şuşadan erməni pilotun heykəlinin götürüldüyü deyilir. Digər heykəllər barədə məlumat yoxdur. Yeri gəlmişkən, 44 günlük müharibədən sonra 2021-ci ildə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova ermənilərin israrı ilə belə bir açıqlama yaydı:" Moskva Böyük Vətən müharibəsi dövründə nasistlərə qarşı qəhrəmanlıqla vuruşanların xatirəsini hər cür təhqir etməyi tamamilə qəbuledilməz və əxlaqdan kənar hesab edir"

O, heç bir ad çəkməsə belə, Ermənistan mediası məsələnin erməni işğalçılarından azad edilmiş Şuşada, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, qvardiya-polkovnik Nelson Stepanyanın abidəsinin götürülməsinə dair yaydığı məlumatı istinad etmişdi.

1992-ci ildə Şuşanın işğal olunmasına rəhbərlik edən terrorçulardan biri - Ermənistanın sabiq baş naziri Vazgen Sarkisyanın Şuşa şəhər İcra Hakimiyyətinin binası qarşısında qoyulan heykəli söküldü. Gənc yaşlarından qatı millətçi kimi tanınan, antiazərbaycan, antitürk təbliğatçı kimi tanınan Vazgen Sarkisyan 1990-cı ildə Ermənistan Ali Sovetinə deputat seçilib.

O, Dağlıq Qarabağ hadisələri başlanan gündən erməni hərəkatının ən fəal üzvlərindən biri sayılıb və Dağlıq Qarabağda ilk silahlı dəstələrin yaradıcılarından biri olub.

Vazgen Sarkisyan 1991-ci ildə Ermənistanın ilk müdafiə naziri təyin edilib. O, nazir kimi fəaliyyətini Ermənistanda deyil, Dağlıq Qarabağda icra edib.

"Qələbə simvolu" adını qazanan Vazgen Sarkisyan Şuşanın və Laçının işğal edilməsini özünün ən böyük "uğuru" sayıb.

Ümumiyyətlə, o, Ağdərədə, Şuşada, Xocalıda, Laçında, Xocavənddə keçirilən əsas hərbi əməliyyatlara rəhbərlik edib.

Monte "Avo" Melkonyan ASALA terror təşkilatının ASALA-RM (revolutionary movement) qanadının qurucusu olub. 1990-cı ildə Melkonyan Ermənistana gəlmiş və Azərbaycanın Dağlıq Qarabağ ərazisinə gəlib. Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı Ermənistan ön cəbhə dəstələrinin birinin komandiri olub.

Monte Melkonyan Xocalı soyqırımı zamanı əsir düşmüş azərbaycanlılara da işgəncə verilməsində çox aktiv iştirak edib. Xocavənd rayonunda erməni terrorçu Monte Melkonyan üçün ucaldılmış heykəl götürülüb.

Monte Melkonyanın Dağlıq Qarabağla bağlı belə bir fikri vardı: "Əgər Qarabağı itirsək, erməni tarixinin sonuncu vərəqini qapatmış olacağıq".

O deyirdi ki, əgər Azərbaycan erməniləri Qarabağdan vurub çıxartsa, onlar daha sonra Zəngəzurda və Ermənistanın digər regionlarında üstünlük əldə edəcəklər. Ermənistanın uzun müddətli əmin-amanlığı həlledici şəkildə Qarabağın taleyindən asılıdır".

Sonuncu isə Xankəndi şəhərində Qarabağ canilərindən biri Aşot Qulyanın abidəsi sökülüb. Bakıda anadan olan, "Bekor" ləqəbi ilə tanınan həmin şəxs 1992-ci ildə Xocalı, Hadrut, Əsgəran, Şuşa və bir sıra digər istiqamətlərdə döyüşlərdə iştirak edərək günahsız insanların ölümünə səbəb olub. Qulyanın heykəli Xankəndidə ermənilərin Bekor adı verdiyi parkda quraşdırılmışdı.

**Yəqin ki, sparatçı və terrorçulara məxsus müxtəlif tipli barelyef, abidə kompleks, monumental abidə , büst və heykəllər haqqında sizə məlumatlar çatdıracağıq.**

**Əntiqə Rəşid**

## *Ayının yüz oyunu...*

**Elə bil ki, kimlərsə, bu xalqı incitmək üçün gündə bir şey fikirləşib tapır. İndi də "Azəriqaz" yeni nəsə icad etmək istəyir!**

Bu da ondan ibarətdir ki, mənzillərin hamam otağındakı suqızdırıcılar ya çıxarılmalı, ya da həmin yerdə dəm qazının olmasını müəyyənləşdirən cihaz qu-



raşdırılmalıdır! Hətta belə bir fikir səsləndirilir ki, hamamdakı suqızdırıcılar mətbəxdə quraşdırılmalıdır. Bax belə vəziyyətdə abonentlər çıxılmaz vəziyyətə düşürlər. Artıq məlum qurumun əməkdaşları mənzillərdə olur, orda adını çəkdiyimiz suqızdırıcıların necə quraşdırılması ilə maraqlanırlar. Burada qəribə heç nə yoxdur. Sadəcə olaraq əhali bu proses zamanı incidilməməli, maarifləndirilməlidir.

Üstəlik də hədə-qorxu yolu ilə məsələ həll edilməməlidir. İnsanlara hər şey sadə və aydın dildə izah edilməli, abonentlər üçün qaranlıq anlar qalmamalıdır. Elə bir məsələ var ki, bir ay yox, üç- dörd ay müddətində həll edilməlidir. Çünki əhalinin, xüsusən də aztəminatlı ailələrin çətin maddi durumu nəzərə alınmalıdır. Bir sözlə, qanun icra edilərkən onu həyata keçirən qurum suiistifadə hallarına yol verməməlidir!

**EMİL FAİQOĞLU**

# O, BİR GÜN İŞIĞI...

**...Dünyada elə insanlar var ki, heç kimə bənzəmir və ancaq özünə oxşayır. O insanlar həm də gün işığını xatırladırlar. Çünki gün işığı kimi dünyamızı, ürəyimizi, qəlbimizi və ən nəhayət, içimizi işıqlandırırlar. Belə insanlardan biri də mənim tələbə yoldaşım, düz 34 il qonşuluq elədiyim, dostum və qardaşım böyük ziyalı, böyük pedaqoq, yazıçı-publisist, Prezident təqaüdçüsü Səməndər Eyvaz oğlu Məmmədovdur. O, 1954-cü ilin fevralın 8-də Borçalı mahalının Faxralı kəndində gözəl bir ziyalı - Eyvaz kişinin ocağında dünyaya göz açıb.**

Elə hər şeyi də bu ocaqda, bu yurdda, bu evdə dərk edib. Onun mayası, ruhu sazla, sözlə, qoşmaila, bayatılə, təcnislə, dodaqəymzlə, dildönməzlə yoğrulub. Bu sadaladığımız dəyərlər zaman-zaman onun qəlbinə, ruhuna, iç dünyasına hopub. Orta məktəbi bitirəndən sonra Bakı Dövlət Universitetinin (o vaxtkı ADU-nun) filologiya fakültəsinə qəbul olub və həmin fakültəni 1978-ci ildə bitirərək təyinatla Lerik rayonunun Vistən kəndində müəllimlik edib. Müəllim kimi o, kəndin hər bir ziaylısının, hər bir şagirdinin, hər bir sakininin qəlbində silinməz izlər qoyub. Kənd camaatı onu o qədər çox istəyib ki, toylarına dəvət edib və Səməndər müəllim də çörəyini yediyi, suyunu içdiyi, havasını udduğu bu elin xeyrində-şərində yaxından iştirak edib. Böyük ziyalı, Əməkdar jurnalist, rayon qəzetinin redaktoru Həmzə Vəlimməmmədovun isti nəfəsini, ata sevgisini hiss edib. O vaxtdan uzun illər, daha doğrusu, 40 ilə yaxın zaman keçsə də nə Lerik camaatı, nə də gözəl insan Həmzə müəllimi unutmayıb. Həmişə həm Leriki, həm də Həmzə Vəlimməmmədovu tez-tez xatırlayır. Çünki Səməndər müəllim duz-çörəyə, dostluğa və yoldaşlığa çox sədaqətli bir ziyalıdır. Bir adamla bir tikə çörək kəsdi, ömrü boyu onu unudan deyil. Bax, bu dəyərlər də qanla, genlə insana ötürülür...

...Hər adam bir kollektivdə 30 ilə yaxın məsul vəzifədə işləməyi bacarmaz. Amma Səməndər müəllim uzun illər pedaqoji sahədə işləyib. Onun 40 ilə yaxınını direktor vəzifəsində çalışıb. Bakının Sabunçu rayonundakı 271 nömrəli tam orta məktəbdə uzun müddət direktor olub. Mən onun kimi namuslu, vicdanlı və ədalətli, uzaqbaşı 10 direktor tanıyıram. O, müəllimlərə, şagirdlərə, hətta məktəbdə çalışan sıravi əməkdaşlara belə öz doğması, ailəsi, balası kimi yanaşıb. Heç kimi haqsız yerə danlamayıb. Birinin nöqsanı olanda da onu elə bir formada deyib ki, bu həmin adamın ürəyinə və qəlbinə toxunmayıb. Mən inanmıram ki, Səməndər müəllim hansısa müəllimin qəlbini sındırsın. Hətta kiminsə xətrinə dəyibsə, heç beşon dəqiqə keçməmiş onun qəlbini ələ alıb. İndi Səməndər müəllim təqaüdədir. Amma onun yeri Azərbaycan təhsilində, xüsusən də həmin məktəbdə həmişə görünür. Çünki o, məktəbdə uzun müddət bir yerdə çalışdığı müəllimlər deyir ki, nə qədər yeni direktor gəlsə də, heç biri Səməndər müəllimin yerini verə bilməz. Ən azından ona görə ki, Səməndər müəllim birinə yaxşılıq edəndə heç vaxt təmənna umayıb və bu yaxşılıqlar da hər an, hər dəqiqə onun qabağına çıxıb. Yay mövsümündə



istirahət mərkəzlərinin birində müəllim yoldaşları ilə görüşür. Onları buraxmır, aparıb gözəl bir məkanda o müəllimlərə bir ziyafət verir. Bax, Səməndər müəllim belə bir ürəyin sahibidir. O ürək ki, həmişə gün işığı kimi hətta tanımadığı, bilmədiyi insanların da üstünə düşüb, onları isindirib...

Səməndər Məmmədov çox nadir insanlardandır ki, klassik və Azrbaycan şairlərinin şeirlərini, aşıq sənətini əzbər bilir.

Heç də təsadüfi deyildir ki, Azərbaycanın böyük ziyalısı, Xalq şairi Zəlimxan Yaqub Səməndər müəllimin 60 illiyində göndərdiyi təbrikdə yazırdı ki, Səməndər Zəlimxan Yaqubun səyyar kitabxanasıdır.

Əgər Zəlimxan Yaqub yoxsa, Səməndər Məmmədov mənim bütün şeirlərimi hər hansı məclisdə əzbər deyə bilər. Bəli, bu həqiqətən də belədir. Biz onunla demək olar ki, hər gün görüşürük və görüşəndə də, Zəlimxan Yaqubun o şirin, o gözəl şeirlərini səsləndirir.

Bu gün Zəlimxan Yaqub dünyamızda olmasa da, onun Səməndər müəllim kimi içi, qəlbi, ürəyi dolu davamçısı var. Elə biz çox vaxt Səməndər qardaşımıza Zəlimxan Yaqub deyirik. Ona görə deyirik ki, əyləşən kimi böyük şairin şeirləri onun dodağından bulaq suyu kimi süzülür və bizim qəlbimizə, içimizə, ruhumuza bir sevgi gətirir...

Səməndər müəllim Prezident təqaüdçüsüdür və cənab Prezident İlham Əliyevin Sərəncamı ilə "Cümhuriyyətin 100 illiyi" medalına layiq görülüb. Hətta Sabunçu Rayon Ağsaqqaallar Şurasının sədri seçilib. Bir müddətdən sonr səhhəti ilə əlaqədar olaraq həmin vəzifədən istefa verib. Yəni, Səməndər müəllim həm də bir el ağsaqqalıdır.

Fevralın 8-də qardaşımız və dostumuz Səməndər Məmmədovun 70 yaş tamam olur. Heç bilmədik 70 yaşa necə gəlib çatıb. Amma bildiyimiz odur ki, bu 70 yaşın astanasında Səməndər müəllimin 10-dan çox kitabı çap olunub. Bir-birindən gözəl, poetik, insana yeni bir nəfəs verən şeirlər kitabı işıq üzü görüb. Ən möhtəşəmi də odur ki, 2 hissədən ibarət "Faxralılar" kitabını araya-ərsəyə gətirib. Bu kitabı araya-ərsəyə gətirməklə o, öz müəllimləri, kəndinin ziyalıları və sadə insanları qarşısında borcunu yerinə yetirib. Hər oğul ona dərs deyən, ona nur verən, ona işıq bəxş edən insanları yaşada bilmir. Amma Səməndər Məmmədov Faxralının dünyaşöhrətli ziyalılarını, alimlərini və müxtəlif sənət adamlarını yazıları ilə yaşadır və dünyaya tanıdırır. Bunun üçün dünya boyda ürək lazımdır və dünya boyda ürək də bizim qardaşımız və dostumuz Səməndər müəllimin sinəsindədir. 70 ildən keçmişə boylananda biz nələr görürük? Biz Səməndər müəllimin ləyaqətli, şərəfli, qürurlu ömrünü görürük... Biz onun minlərlə şagirdinə savad və tərbiyə verməsini görürük... Biz onun gözəl ailəsini, övladlarını, nəvələrini və dostlarını görürük.

...Görürük ki, Səməndər müəllim yaşadığı 70 ili kişi kimi yaşayıb və bu gün də bir pedaqoq, bir direktor, bir yazıçı-publisist kimi onun xalqın arasında qazandığı böyük hörməti hiss edirik...

**...Mən bu yazını kompütərə diqtə edəndə tez-tez bir süfrə arxasında əyləşdiyimiz, çörək yediyimiz, çay içdiyimiz Fərman müəllim, Şikar müəllim, Fəxrəddin müəllim, Ramiz müəllim, Səbuhi müəllim, adaşım Faiq, Paşa müəllim, və bir də çayçı Rasim yadıma düşdü. Onlar hamısı Səməndər müəllimi yubiley münasibətilə təbrik eləyirlər və deyirlər ki, müəllim, bizim də ürək sözlərimizi qəzetdə yazarsan. Və mən də yazıram! Onu da yazıram ki, Səməndər müəllim, sən dünyanın ən vicadnlı, ən ədalətli, ən namuslu ziyalılarından birisən. Səninlə tək biz yox, bütün Borçalı eli, Faxralı camaatı fəxr edir! Sən həm də zirvələrə qonan bir qartala bənzəyirsən! Qartal zirvələrə yaraşdığı kimi, sən də o zirvəyə yaraşırsan! Və həmişə uca zirvədə olasan, qardaş!...**

**FAİQ QİSMƏTOĞLU**

# Zaxarova erməni jurnalisti yerinə oturtdu

**Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova bugünkü mətbuat konfransında erməni jurnalist-təxribatçını layiqli cavabını verdi.**

Adalet.az xəbər verir ki, erməni jurnalist İrəvanda mühasirədə olan Leninqrad uşaqlarının xatirəsinə ucaldılmış abidənin təhqir olunması mövzusundan başlayaraq, qəfildən guya Azərbaycan tərəfindən törədilən "Qarabağda İkinci Dünya Müharibəsi qəhrəmanlarının abidələrinin və məzarlarının təhqir olunması ilə bağlı mötəbər faktlar"a keçib. "Əgər bu məsələ ilə bağlı materiallarınız



varsa, mənə çatdırın, sonra şərh edəcəyəm", - deyə Zaxarova cavab verib. Qeyd edək ki, bu yaxınlarda sosial şəbəkələrdə daha bir erməni vandalizminin görüntüləri yayılıb. Ermənilər bu dəfə mühasirədə olan Leninqrad uşaqlarının xatirəsini təhqir etmək qərarına gəliblər.

Birinci videoda erməni vandalının çələnglərdən Rusiya bayrağının təsviri olan lentləri necə çıxarıb yerə atdığını və ayaqları altında tapdaladığını görmək olar.

İkinci videoda isə daha da irəli gedir - çələngləri çevirərək mühasirəyə alınan uşaqları "faşist" adlandırır və "bu hadisəni təsdiq edən heç bir sənəd olmadığını" iddia edir.

## Bəhmənlilər fəallıq göstərdilər



**Seçicilər Füzuli 84 saylı Seçki Dairəsinin 24 nömrəli seçki məntəqəsində (Böyük Bəhmənli kəndi) də çox aktiv iştirak etdilər! Onlar öz Prezidentinə səs verdilər!**

Seçki məntəqəsinin sədri Həsən Rzayev əməkdaşımıza bildirdi ki, bu gün tarixi bir gündür. Ona görə də hər bir seçici gəlib, şəffaf şəkildə öz istədiyi namizədə səs verdi! Səhər saatlarında seçicilər daha çox gəldilər!indi də gələnlər çoxdur.

Bir sözlə, hamı bu seçkinin ədalətli və obyektiv keçməsinin şahididir

## Əməkdaşımız səs verdi



**Səhər saatlarında Suraxanı rayonunun 282 mömrəli məktəbindəki seçki məntəqəsində Cənab İlham Heydər oğlu Əliyevə səs verdim və özümü çox xoşbəxt hiss etdim!**

Seçki məntəqəsində bir daha bu xalqın İlham Əliyevə möhtəşəm məhəbbətini, sevgisini gördüm! Məktəbin müəlləmi Mətanət xanım və texniki əməkdaş Günel xanım hər bir seçiciyə hörmətlə yanaşır, məsləhət verirdi!

Hətta Günel xanım mən səs verəndə şəklimi çəkdi. Dedi ki, Faiq əmi, biz hamımız İlham Əliyevi çox istəyirik!!!

**EMİL FAİQOĞLU**

## İsrailin Baş naziri: "HƏMAS-la müharibə bir neçə aya, qələbə ilə başa çatacaq"



**HƏMAS-la müharibə bir neçə aya, qələbə ilə başa çatacaq.**

Adalet.az xəbər verir ki, bu barədə İsrailin Baş naziri Benyamin Netanyahu deyib.

O deyib ki, İsrail HƏMAS-la atəşkəs razılaşmasını qəbul etməyəcək: "İsrail ordusu sistemli şəkildə işləyir. Biz məqsədimizə çatana qədər dayanmayacaq, geri çəkilməyəcəyik".

Baş nazir bildirib ki, HƏMAS-ın bütün yeraltı tunelleri məhv ediləcək: "HƏMAS-ı tamamilə məhv etməkdən başqa çıxış yolu yoxdur. Biz dörd ay ərzində HƏMAS-ın 20 mindən çox üzvünü öldürmüş və ya yaralamışıq. İsrail müdafiə ordusu HƏMAS üzvlərinin gizləndiyi tunelləri sistemli şəkildə məhv edir. Bizim tam qələbə qazanmamağımız növbəti qırğın deməkdir".

"Mən ABŞ dövlət katibi Antoni Blinkenə də dedim ki, HƏMAS məhv edildikdən sonra Qəzzanın əbədi olaraq hərbsizləşdirilməsinə əmin olacam", - hökumət başçısı diqqətə çatdırıb.

Qeyd edək ki, İsraillə Həmas arasında müharibə 2023-cü il oktyabrın 7-də başlayıb.

## BMT: "Heç kim "Taliban"ı devirmək fikrində deyil"



**"Heç kim Əfqanıstanda siyasi hakimiyyətdə olan "Taliban" hərəkatını devirmək fikrində deyil".**

Bu açıqlama ilə BMT baş katibinin Əfqanıstan üzrə xüsusi koordinatoru Feridun Sınırlıoğlu "Taliban" hakimiyyətinin baş nazirinin siyasi məsələlər üzrə müavini Məhəmməd Əbdül-Kəbirlə görüşündə deyib. BMT rəsmisi vurğulayıb ki, ABŞ və Avropa "Taliban" iqtidarı ilə əlaqələr qurmaqda maraqlıdırlar, lakin təşkilat da öz növbəsində müəyyən beynəlxalq müqavilələrə əməl etməlidir.

Feridun Sınırlıoğlu əlavə edib ki, BMT-nin Dohada baş tutacaq konfransının "Taliban"ın dünya ilə münasibətlərində müsbət dəyişikliklərə səbəb olacağına inanır.

# Avropa Azərbaycana baxdığı "çirkli pəncərə"dən yalnız "bataqlıq" görür: 154-cü yer

**2022-ci ilin Milli Məclisdə Dövlət Büdcəsi müzakirə olunurdu. Həmin vaxt müzakirələrdə çıxış edən Vətəndaş Həmrəyliyi Partiyasının sədri, millət vəkili Sabir Rüstəmxanlı dedi ki, uğursuz qiymət siyasəti, bahalaşma, rüşvətxorluq Azərbaycanın uğurlarına kölgə salmamalıdır: "Ölkə qanunlarla idarə edilməlidir. Oliqarx nazir fəaliyyəti ilə yox. Bu gün işsizlik, kommunal xərclərin artması, müxtəlif cərimələr, rüsumlar insanları narahat edir. Elə ailə var ki, qazı ödəməyə pulu çatmır. Hökumət qələbədən sonra gördüyü işlərə diqqəti artırmalıdır".**

Amma hörmətli deputatın ağıllı məsləhəti bir çox səlahiyyət sahiblərinə çatmadı. Bəlkə də çatdı, amma qulaqardına verdilər. Xatırlayırsınızsa, ötən ilin 29 avqustunda Dövlət Gömrük Komitəsinin Mərkəzi Gömrük Ekspertizası İdarəsinin eksperti vəzifəsində işləyən Aslan Bayramovun qanunsuz əməlləri barədə həmin Komitədən daxil olmuş məlumat əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində cinayət işi başlanıldı.

Aparılan istintaq-əməliyyat tədbirləri ilə Aslan Bayramovun vəzifədə işləyərkən ayrı-ayrı şəxslərdən rüşvət qismində aldığı 13 min 500 manat məbləğində pul vəsaiti müqabilində vəzifə səlahiyyətlərindən sui-istifadə edildiyi bildirildi.

Ondan əvvəl isə Dövlət Gömrük Komitəsinin Əməliyyat və İstintaq Baş İdarəsinin rəisi, gömrük xidməti general-mayoru Məsum Rəsulov və Dövlət Gömrük Komitəsinin strukturuna daxil olan "Azərterminalkompleks" birliyinin sabiq direktoru, gömrük general-mayoru Ehtiram Xəlilov külli miqdarda mənimsəmə cinayətlərində təqsirləndirilərək həbs edilmişdi.

2023-cü ilin oktyabr ayında Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Lənkəran Regional Meşə Təsərrüfatı Mərkəzinin direktoru Amil Abdullayevin xidməti vəzifələrinin icrası zamanı vətəndaşdan rüşvət alması barədə daxil olmuş məlumat əsasında keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlandı.

İstintaqla Amil Abdullayevin rəhbərlik etdiyi qurumun balansında olan meşə təyinatlı torpaq sahəsindən müxtəlif məqsədlər üçün istifadə müqabilində vətəndaşdan ümumilikdə 14 min 900 manat məbləğində pul vəsaitini rüşvət qismində almasına əsaslı şübhələr müəyyən edildi. Bu və bundan əvvəlki bu tip rüşvətxorluq, vəsifəsindən sui-istifadə hallarının azalacağını düşünürdük.

Yenə də 2023-cü il Azərbaycan Auditorlar Palatasının üç sabiq əməkdaşı cinayət məsuliyyətinə cəlb edilib. Medianın məlumatında deyildi ki, maliyyə və texniki təminat İdarəsinin sabiq rəisi, baş mühasib, 58 yaşlı Vəli Rəhimov vəzifəsindən azad edilmişdi. Vəli Rəhimov, maliyyə təminatı və xarici əlaqələr idarəsinin maliyyəçi-mühasibi Gövhər Əhmədova və Palatanın digər auditoru Fəridə Novruzova xüsusilə külli miqdarda mənimsəmədə ittiham olundular.

İlkin məlumata əsasən, mənimsənilən məbləğ 1 milyon manatdan çoxdur.

Təqsirləndirilərən şəxslərə qarşı Cinayət Məcəlləsinin 179.4-cü (xüsusilə külli miqdarda mənimsəmə) maddəsi ilə ittiham irəli sürüldü.

2023-cü ilin sentyabrında Meliorasiya və Su Təsərrüfatı ASC-nin Viləşçay Su Anbarının İstismarı İdarəsinin sabiq rəisləri Ağabəy Ağayev, Mahir Əliyev, baş mühasibi Əjdər Fətullayev və digər əməkdaşların qanunsuz əməlləri barədə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlandı.

İbtidai istintaqla qeyd edilən şəxslərin qabaqcadan əlbir olaraq iş yoldaşları Sədrəddin Ağababayev və İsmayıl Əlizadənin köməkçiliyi ilə həmin İdarədə formal olaraq işçi kimi rəsmiləşdirdikləri çoxsaylı şəxslərin əməkhaqqı kartlarını götürərək maddi yardım, əməkhaqqı və nəqliyyat vasitələrinə ayrılan yanacaqla bağlı kartlara köçürülmüş ümumilikdə 1 milyon 830 min manatdan artıq pul vəsaitini mənimsəmələrinə əsaslı şübhələr müəyyən edildi.

Bundan başqa, Ağabəy Ağayev və Mahir Əliyevin cinayət yolu ilə əldə edilmiş pul vəsaitini özləri və qohumlarının adına müxtəlif əqdlər bağlamaqla Bakı şəhəri və Masallı rayonunda çoxsaylı daşınar və daşınmaz əmlaklar alaraq leqallaşdırmaları, eləcə də, Ağabəy Ağayevin ayrı-ayrı şəxslərdən müxtəlif məbləğlərdə rüşvət alması ibtidai istintaq zamanı sübuta yetirildi.

Elə həmin sentyabr günlərində Gömrük Risklərinin İdarəolunması və Audit Baş İdarəsinin Gömrük risklərinin strateji araşdırılması şöbəsinin rəisi vəzifəsində işləyən Anar Aslanovun ayrı-ayrı şəxslərdən rüşvət qismində aldığı 55 min manat məbləğində pul vəsaiti müqabilində vəzifə səlahiyyətlərindən sui-istifadə edərək Nazirlər Kabinetinin "İstismar olunan minik avtomobillərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsinin məhdudlaşdırılması haqqında" 29.03.2023-cü il tarixli qərarının tələblərini pozmasına, yəni 2023-cü ilin iyun-avqust aylarında Gürcüstandan Azərbaycana idxal olunmuş




istehsal tarixi 10 ildən artıq olan ümumilikdə 400 avtomobili qanunsuz rəsmiləşdirməsinə əsaslı şübhələr müyyən edildi.

Görünən odur ki, həbslər. cəzalar rüşvətxorluğa qurşanmış məsul şəxslərin gözünü, vicdanını qorxutmayıb. Ölkədə korrupsiya əməlləri azalmır ki, artır.

Siyahını uzatmaq olar. 2023-cü ildə dövlət orqanlarında yüksək vəzifədə əyləşmiş səlahiyyətli şəxslərin, rüşvətxorluq və korrupsiya əməllərinə görə həbslər çox oldu. Yeri gəlmişkən 2022-ci il isə Müdafiə Nazirliyinin Maliyyə və Büdcə İdarəsinin rəisi, general-mayor Nizami Məmmədov 80 milyon 600 min manat mənimsəməkdə təqsirləndirildi. Hazırda Müdafiə Nazirliyində 143 milyonluq mənimsəmə faktı ilə bağlı məhkəmə araşdırması davam edir.

Dünya üzrə Korrupsiya İndeksi bu işlərə nə deyir?

Deməli, hər il olduğu kimi 2023-cü il üçün dünya üzrə Korrupsiya İndeksi açıqlanıb. 180 yerlik siyahıda dünya ölkələrinin korrupsiya vəziyyəti əks olunub. 100 ballıq qiymətləndirmədə heç bir ölkə ən yüksək balı ala bilməyib, ölkələrin yarıdan çoxu isə 50-dən az bal toplayıb. Demək ki, bizim ölkə tək deyil, dünya, xüsusən, dünyanın "gözü" olan Avropa dövlətlərində də artıq korrupsiya və rüşvətxorluq adiləşib.

Korrupsiyada adı ən az hallanan Danimarka siyahıda 1-ci yerdə olub.90 bal alıb. Yəni ən təmiz, vicdanlı məmurlar bu ölkədə olduğu iddia edilir. Finlandiya, Yeni Zelandiya, Norveç, Sinqapur(əhalisi 5 312 400 nəfər olan Asiya ölkəsi), İsveç, İsveçrə, Niderland, Almaniya, Lüksemburq ilk onluqda yer alıb

20-ci yerdə qərarlaşan Böyük Britaniya və Fransa,24-cü yer ABŞ, 33-cü yer İsrail, 42-ci yer İtaliya, Afrika və Asiya ölkələrindən Butan və Birləşmiş Ərəb Əmirlikləri -26-cı yer, Tayvan- 28-ci yer, Qətər -40-cı yer, Ruanda -49-cu yer, Namibiya -59 və sair.

İndi keçək Qafqaz ölkələrində korrupsiyanın vüsətinə. Deməli, Gürcüstan Qafqaz dövlətləri arasında təmizliyinə görə 1-ci yer qazanıb. Yəni, dünya üzrə Korrupsiya İndeksinə görə Gürcüstan 49-cu yerdədir. Onunla bir sırada isə Kipr, Ruanda və Qrenada dayanır.

Qafqazda 2-ci yer isə Avropanın ərköyün balası, şirin küçükləri olan ermənilər durur.

Ermənistan dünya üzrə Korrupsiya İndeksində 62-ci yerdədir. Azərbaycan isə bu siyahıda 154-cü yerdə qərarlaşıb. Azərbaycan, 154-cü yeri Qvatemala (Mərkəzi Amerikada dövlət.), Honduras(Mərkəzi Amerikada dövlət.) İraq (Asiya ölkəsi) ilə bölüşüb.Yəni, dünya üzrə Korrupsiya İndeksində 180yerdən ibarət siyahıya salınan son 30 ölkəsi dünyanın ən çox korrupsiya və rüşvətxorluq bataqlığına batmış ölkə hesab olunur.

Təəssüf ki, bu 30 ölkənin içərisində Azərbaycanın adı da var. Amma ən azından Azərbaycan korrupsiya ilə mübarizə edir, faktları mediadan gizlətmir. (O zaman Qərb ölkələri gizlətdikləri korrupsiyaları hansı təşkilat araşdıracaq. Məsələn Fransa senatının, ABŞ senatının üzvlərinin erməni lobbisindən qopardıqları milyonları nəzərdə tuturuq!red-Ə.R )

İstəyirdim yazam ki, Avropa ölkələri, beynəlxalq təşkilatlar, bizi xor görür, bizim qələbəmizi və iqtisadi inkişafımızı gözü götürmür. Amma yadıma düşəndə ki, 2023 -cü ildə Azərbaycanda korrupsiya əməlləri əvvəlki illərdən dəfələrlə çox olub , dayandım, yazmadım. Təklif edirəm ki, həbs edilən korrupsionerlərə əlavə maddədə verilsin : Bizi dünyada biabır edib, adımızı 154-cü yerə düşməsinə səbəb olduqları üçün onlar dübarə cəzalandırılsınlar.

***P.S. Hörmətli jurnalist həmkarım Aynur Camal deyir ki, siyahı tərtib edənlərin Azərbaycanı İraq və Qvatemala ilə 154-cü yerə perçimləməyi normal məntiqlə anlamaq mümkün deyil:***

***"İndeks"in hansı prinsiplərlə hazırlandığı və qiymətləndirməni kimlərin apardığı aydındır. Əslində siyasi təbliğat vasitəsi olaraq istifadə edilən bu siyahılarda Qərbin ölkələrə münasibəti təsvir olunur. Əks halda Türkiyəni düşmən saydıqları Belarusdan, Azərbaycanı isə Rusiyadan belə çox-çox aşağı keçirməyin adı yoxdur və yaxud var: Bu "indeks" sərmayəçilərə mesajdır və investorlar bu siyahılara diqqət edirlər. Belarus və Rusiyaya onsuz da Qərb investisiyası gəlmir, gələ bilməz, çoxsaylı qadağalar var. Ona görə Türkiyədən "öndə" də ola bilərlər. Ancaq siyasi iradələrini həyata keçirə bilmədikləri Türkiyə və təbii ki, Azərbaycan öndə olarsa, investisiya axınına şərait yaratmış olarlar - bu isə qətiyyən maraqlarına uyğun deyil..."***

***Bayaqdan düşünməkdən, fikir etməkdən cana yığılmışam, fikir məni sökür, məhv edir. İndi qalmışam 2 fikirin arasında görən , doğrudan Avropa bizə paxıllıq edib 154-cü yerə gətirib çıxarıb ya , bizdə korrupsiya halları geniş vüsət alıb?***

***Paxıl Avropa...***

**SON: Deyəsən, qardaşlarımızın da vəziyyəti elə yaxşı deyil. Siyahıda 115-ci yerdə qərarlaşan Türkiyə Ekvator (Cənubi Amerikada dövlət), İndoneziya( Cənub-Şərqi Asiyada dövlət.). Malavi(Afrikada dövlət) , Şri-Lanka ( Cənubi Asiyada ada-dövlət) , Filippin( Cənub-şərqi Asiyada ada-dövlət) ilə bir cərgədə durub.**

**Əntiqə Rəşid**

# Qayğı, müdafiə, yardım: Hər şeydən yarımış bəxtəvərlər

**30 ildir köçkünük , dünyanın gözü qarşısında evimizi-eşiyimizi atıb , yurdumuzdan pərən-pərən düşdük. Qarabağ köçkünlərinin 60 faizi yalnız əyinlərindəki paltarla canlarını erməni terrorçularından əlindən qaçıra bildi. Çox çıxılmaz vəziyyətdə olan qarabağlılar xalqının mərhəmətinə və dövlətinin qayğısına arxalandılar. Çünki bir neçə dövlətdən başqa Qarabağın azərbaycanlı köçkünlərini hamı görməzdən gəlir. Sanki 1 milyona yaxın köçkün müsəlman- türk dünyanın umrunda deyil.**

Amma cəmi 3 ay əvvəl Qarabağı könüllü tərk etmiş ermənilər sanki dünyanın şikəst doğulmuş balasıdır. Bütün dünya diqqət və qayğısını on-





ları xoşbəxt etmək üçün səfərbər edib. Adalet.az xəbər verir ki, Qarabağdan könüllü tərk edən 5 minə yaxın ailəyə "Galaxy" Şirkətlər Qrupu 100 ton yardım alıb. Beləki, Galaxy Şirkətlər Qrupunun əməkdaşları iki aydan çox davam edən layihə çərçivəsində öz vaxtlarını 5000 ailəyə təkcə istilik deyil, həm də zəruri ərzaq qutularını hazırlamağa və çatdırmağa, onlara sərt qışın çətinlikləri ilə mübarizə aparmağa həsr ediblər. Qeyd edək ki, Avropa İttifaqı Qarabağı könüllü tərk etmiş erməni vətəndaşları üçün əlavə olaraq 1,7 milyon dollar ayırıb.Bundan əvvəl Komissiya erməni vətəndaşları üçün 10,45 milyon dollar ayırmışdı. Qurumun bildirib ki, cari ildə ümumilikdə Qarabağı tərk edənlərə 12 milyon avro yardım ayrılıb. ABŞ Qarabağ ermənilərinə dəstək olmaq üçün 11,5 milyon dollar ayırıb. Bundan sonra isə Yaponiya və İtaliya hər biri 4 milyon avro ayırdığını qeyd edib. Eyni zamanda Kreml sahibi Vladimir Putinin tapşırığı ilə Rusiya Fövqəladə Hallar Nazirliyinin İl-76 təyyarəsi vasitəsilə Qarabağı tərk etmiş ermənilər üçün İrəvana 40 ton humanitar yardım çatdırılıb.

***P.S. Bəxtəvərlər!***

**Əntiqə**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Pandemiya GİROVU...

İndi adamların əhvalı elə bil not üzərindədi ki, nə adamların özləri bu notdan baş açırlar, nə də bu notlara kənardan diqqət yetirənlər. Hamı ovqatının girovuna çevrilib, nə edəcəyini, necə edəcəyini saf-çürük edə bilmir.

Əslində, bütün bunların bir günahkarı var. Düşünməyin ki, bu günahkar zamandı. Xeyr! Burda zamanlıq bir iş yoxdu. Ağıllı dostlarımdan birinin dediyi kimi, günahkar elmdi - Naşının, İnsanlığın və Təbiyyətin qənimi olanların silahlandığı ELM!. O inkişaf etdikcə, təbiətə, ekologiyaya, ətraf mühitə, canlı aləmə, bir sözlə, insanın özünə qənim kəsilir, zərbələr vurur, fəsadlar törədir. Və ən dəhşətlisi budur ki, insan güvəndiyi elmin girovuna çevrilir. Bu, sadə şəkildə izah etsəm, insanın bir əlində olan ixtiranın o biri əlindəki həyata tətbiqi zamanı nələr baş verəcəyini dəqiq hesablaya bilməyəndə bax, bugünkü baş açılmayan bir şərait yaranır, bir təzadlı mühit hakim olur hər birimizin başı üzərində...

Bəli, əslində biz bu təzadlı zamanın içərinsində nöqsanlarımızı aramaqdan, günahlarımızı çözməkdən yapışmırıq. Əksinə, bir-birimizi, ayrı-ayrı qrupları, şəxsləri günahlandırırıq. Unuduruq ki, həmin o qruplar da, şəxslər də bir canlı varlıq olaraq hər kəsi təlaşdıran virusdan qorumaq gücündə deyil. Sadəcə, onların üstünlüyü maddi imkanlarından qaynaqlanır. Amma Əzrayıl hökmünü verəndə imkanları göz önünə gətirmir. Getməli olan onu gözləyən qatara minməlidir, heç bir sorğu-sualsız... lap evin hansı küncündə, hansı qatında gizlənməyindən asılı olmayaraq...

Hə, indi hamımızın sonunun nə olacağını narahatlıqla gözlədiyimiz, izlədiyimiz virus problemi əlaqələrimizə çox kəskin şəkildə təsir edib, görüşlər azalıb, toplantılar demək olar ki, unudulub və ən vacibi insanlar bir-birilə telefon əlaqələri saxalamağa artıq həvəs göstərmirlər. Elə bil ki, hamı gözə görünməyən bir çubuqla üzü sükuta, üzü sirlər dünyasına doğru istiqamətləndirilir. Belə kütləvi yönəldilmənin fantastik filmlərdə yəqin siz də hiss etmisiniz. Mən də o filmləri son vaxtlar tez-tez xatırlayıram. Nə isə...

Öz-özümə verdiyim sualların içərisində önə çıxan bir məqam var. O da insan dünyasının, insanın ruhunun, düşüncəsinin, təzyiqə məruz qalmasıdı, basqılara tuş gəlməsidi. Yəni öz həyatımda, öz ailəmdə müşahidə etdiyim bir mənzərə məni bu fikri deməyə, bu sözləri yazmağa məcbur edir. Belə ki, ailənin ən böyük sevinci, ən böyük şadyanalığı, hətta bir ömrə bəs edəcək uğuru o qədər sakit, o qədər adi şəkildə qarşılanır ki, özün-özündən bədgüman olursan. İçində Allahından və bir də özündən soruşursan ki, bu qədər sevincin qarşısında niyə bu qədər sönük durumdayam?! Axı, o sevinci günlərlə aylarla, illərlə gözləmişik?! O da gəlib qismət olub. Amma biz ürəkdolusu sevinmirik. Çünki virus xofu artıq içimizdə əyləşib. Hansı mövzuda danışmağımızdan, hansı xatirəni dilə gətirməyimizdən asılı olmayaraq, rəhmətlik Mirzə Fətəli Axundov demişkən, o yada düşür. Yəni meymun xatırlanır. Nə isə...

Mən meymunun xatırladığı bütün məqamlarda özümü toparlayıb içimdəki duyğuları misralamağa, onu şeirə çevirməyə çalışıram. Hətta birmənalı şəkildə sənə yazıram ki:

*Əlim əldən, gözüm gözdən,*
*Odum oddan, közüm közdən.*
*Dilim dildən, sözüm sözdən -*
*Xiffət çəkir...*

*Gecəm ulduz, gündüzüm gün*
*Ulduz saydım, gün düzdüm, gün...*
*İçdiyim ah, süzdüyün ün -*
*Xiffət çəkir.*

*Ruhum körpü, cismim ələk*
*Fikrim naxış, yuxum bələk...*
*Özüm kölgə, ürək mələk -*
*Xiffət çəkir.*

*Sünbül-sünbül, dəni dənə*
*Böldüm bir-bir təni tənə!*
*Mənli günlər, məni sənə -*
*Ülfət çəkir!..*

***

Bütün hallarda insanı ayaqda saxlayan, onun öz tarazlığını, müvazinətini itirməsinə yol verməyən ruhdu. Yəni ruh yüksəkliyi, ruhun diribaşlığı adamı çətinliklərdən çəkib çıxaran xilaskar əldi, mələkdi, ilahi gücdü. Ona görə də insan bədbinliyə qapılanda, tərkidünya olanda hər şeydən küsəndə ruhundan uzaqda qalır, ruh onu atıb gedir. Bu, diri ikən ölmək deməkdi. Yəni cism mövcuddur, amma heç nəyə yaramır. Görünür, elə buna görədi ki, insan dünyasını ruh bədəndən çıxıb gedəndə dəyişir.

Mən filosofluq, ya da dinşünaslıq etmirəm. Sadəcə olaraq, düşündüyüm və içimdə olan inanca söykənərək bu məntiqə gəlmişəm. Anlamışam ki, ruh mənim üçün hər şeydi. Deməli, mənim üçün hər şeyə və hər kəsə olan doğru elə mənim özümsən. Və mən də hər duamda, hər yazımda, hər nəfəs alanda o ruhu, yəni səni düşünürəm. Təbii ki, bu düşüncələr bir xəyal yazısına, bir xəyal filminə çevrilir. Heç kimin oxumadığı, heç kimin izləmədiyi yazıya, filmə. Onların müəllifi də, ssenaristi də mənim özüməm. Və bütün hadisələr də sənin çevrəndə, sənin dünyanda baş verir. Xatırlayıram ki, belə anların birində özüm-özümə pıçıldamışam, sonra o pıçıltının kağız üzərində necə misralandığını da görmüşəm. Axı mən onda o pıçıltıları sənə söyləyirdim, o misraları sənin üçün yazırdım. Yəqin ki, indi o pıçıltılar, o misralar sənin üçün maraqlı olar. Mən də sənin marağını nəzərə alıb indi hamının eşidə biləcəyi səslə onu ucadan səsləndirirəm.

*Üzü sənə yüyürmüşəm, gəlmişəm*
*Əllərini əllərimdə bilmişəm...*
*Mən üzümü tellərinlə silmişəm -*
*Məni ümid qapısından qaytarma...*

*Gözlərimin yuxusu göy çəkib*
*Bomboz çəkib, qara çəkib, göy çəkib...*
*İstəyirsən ayağıma döy, çəkib -*
*Məni ümid qapısından qaytarma...*

*İstəyimdi çox demirəm, bir gilə*
*Xəyalıma təbəssüm çək, nur çilə!*
*Bu ricamı Allahımdan dur, dilə -*
*Məni ümid qapısından qaytarma!..*

Hə, mən ümid qapısının harda olduğunu, o qapıya gedən yolu, o qapının açarını tanıyıram, görmüşəm. Amma neyləyim ki, o qapılar təkcə açarla açılmır ... Əgər açarla açılsaydı, Qarabağdan, Tuğdan özümlə gətirdiyim bir topa açarla 30 il gözləmədən girovluqdakı evimin, yaşadığım acıların, ağrıların qapısını çoxdan açmışdım. Təəssüf...

İndi hər kəsi daha çox narahat edən mövzunun ipucu təbii ki, yenə rahatlığımızı pozan və dünyanın müxtəlif məmləkətlərində ”doğulub” bütün cahana yayılan viruslar olsa da, mən dipdiri ruhumun dizinə başımı qoyub bu gündən bir az uzaqlaşmaq, bu basqılardan bir az kənara çəkilmək istəyirəm. Cəhd etdiyim, çalışıb-vuruşduğum da məhz budur.

İstəyirəm ki, səni, yəni ruhumu uzaq tutum bütün bunlardan. Nə qədər çətin olsa da, bəlkə də mümkünsüz bir iş sayılsa da, amma mən israrımdan çəkinən deyiləm. Ürəyimin səsini dinləyərək son ana qədər ruhumu - Səni hər şeyin fövqündə tutmağa çalışacağam. Yəqin ki, Sən də, yəni ruhum da məni bu meydanda tək buraxmayacaqsınız. Çünki bütün mücadilələrimiz Həyata və Hər kəsə Sevgi naminədir və qalib də SEVGİ olmalıdır. Elə bu istəklə də mən bilgisayara diqtə etdiyim yazının yaradacağı effekti, auranı xəyalımda canlandırmağa çalışıram. İstəyirəm ki, öncədən bu düşüncələrimin sənə necə təsir edəcəyini fəhm edim, anlayım. Elə həmin anlamaq istəyi də indi yazacağım misraların yaranışına təkan veribdi. O misralar belədir:

*Ömrümü mat etmişəm*
*Vəzirsiz...*
*Mat olanı eh...siz də -*
*Əzirsiz...*

*Əl tutmağa - əl yuxu*
*Dəhrə, kəndir, şəl yuxu...*
*Haray salıb gəl, yuxu -*
*Gəzirsiz...*

*Gündüzünüz, gecəniz*
*Sevgi deyil seçəsiz...*
*Mənim kimi neçəniz -*
*Əsirsiz?!*

*Su çiləyib təndiri*
*Boğursunuz, fəndini...*
*Tutduğunuz kəndiri -*
*Kəsirsiz...*

*Günəş batar, saralmaz*
*Tanrı nuru qaralmaz!*
*Kinsiz ürək daralmaz -*
*Əsilsiz!..*

Bax, belə! İndi gəlin , birlikdə düşünək. Doğrudanmı, bu viruslar, bu pandemiyalar bizdən, sevgimizdən güclüdür? Yoxsa, əksinədi? Bəlkə onun girovuna çevrilməməliyik, sonuncu gülənlərdən olaq!..

Rüstəm Hacıyev



# Heç kim sülhdən danışmaq istəmir

**Alman siyadətçisi Rayn Avropa İttifaqını ABŞ-in iştirakı olmadan müdafiə ittifaqı yaratmağa çağırdı**

**”Blid” mətbu orqanı yazır ki, Almaniyanın Hessen federal torbaqlar rəhbəri Boris Rayn, Avropanın təhlükəsizliyin möhkəmləndirilməsi məqsədilə ”müdafiə ittifaqı” yaradılmasını təklif edib.**

**Almaniyalı siyasətçinin sözlərinə görə, Avtopa İttifaqı yarandığı gündən bəri ən böyük təhlükə ilə üzüzədir. ”Ona görə də biz, güclü Avropada nüvə çətirli, təhlükəsizlik müdafiə ittifaqı yaradılmasını istəyirik”- deyə Rayn, bu ittifaqın ABŞ-ın iştirakı olmadan özlərinin yaratmalı olduğunu bildirib.**

**Görünən odur ki, dünyada hamı bütün gücü ilə silahlanmağa, müharibəyə hazırlaşır. Sülh haqqında düşünən yoxdur.**

**Hazırda dünyanın müxtəlif bölgələrində gedən münaqişələr, müharibələr, qana susayanlara bəs etmir. Artıq hegemon dövlətləri üz-üzə qoymağa can atırlar.**

**Guya dünyada sülhün qorunması üçün yaradılan BMT və digər mənasız beynəlxalq təşkilatlar hələ ki, yalnız münaqişə və müharibə zonalarında vəziyyəti daha da gərginləşdirməklə məşğildurlar. Çünki onların da yüyənləri öz əllərində deyil, xozeynləri hansı tərəfə çəksələr, o istiqamətə gedirlər.**

**Sanki, böyük nüvə silahları potensialına sahib olan ABŞ və Çinin, ABŞ və Rusiyanın, Avropanın Böyük Britaniya, Almaniya, Fransa kimi aparıcı dövlətləri və Rusiya, Hindistan və Pakistanın bir-birilərilə müharibəyə başlamasının dünyanın sonunu gətirə biləcəyini düşünən yoxdur.**

**Artıq vəziyyətin gərginləşdiyini görən Avropa da dillənməyə başlayıb. Çünki onlar da başa düşürlər ki, hər yerdə ”yanan alovların qığılcımlarının” onlara da düşməsi an məsələsidir.**

# Peyvənd edilməyən uşaqların bağçaya qəbulu dayandırılıb?



**Son zamanlar qızılca virusunun uşaqlar arasında sürətlə yayılması fonunda bağçalarda uşağın qızılcaya qarşı peyvənd olunması ilə bağlı arayış tələb edildiyi iddia olunur. İddialar sosial şəbəkələrdə də geniş müzakirə olunur.**

Məsələ ilə bağlı Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən Adalet.az-a bildirilib ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin ”Məktəbəqədər təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi” haqqında qərarının 3-cü maddəsinin 4-cü bəndinə əsasən aşağıdakı sənədlər tələb edilir:

- müəssisənin müdirinin adına ərizə;
- valideynin (qanuni nümayəndənin) şəxsiyyətini təsdiq edən sənədin surəti;
- uşaqların mübadilə vərəqəsi;
- uşağın doğum haqqında şəhadətnaməsinin surəti;
- uşağın 3x4 ölçüdə 2 ədəd fotoşəkli;
- sağlamlığının vəziyyəti barədə arayış

”Mübadilə vərəqəsi - uşağın doğuşdan etibarən keçirdiyi xəstəliklər və vurulmuş peyvəndlər haqqında məlumatları özündə əks etdirən sənəddir. Mübadilə vərəqi də daxil olmaqla, yuxarıda qeyd edilən sənədlərdən hər hansı olmadıqda uşağın bağçaya qəbulu mümkün deyil”, - qurumdan bildirilib.

**Xatırladaq ki, Azərbaycanda son illər yoluxucu xəstəliklərə qarşı aparılan profilaktik tədbirlər nəticəsində qızılca xəstəliyi üzrə sabit epidemioloji vəziyyət müşahidə olunsa da, 2023-cü ilin aprel ayından başlayaraq əhali arasında bu xəstəliyin sporadik yayılma halları qeydə alınıb. Yoluxma, əsasən, uşaqlar arasında müşahidə edilib. 2022-ci ildə ölkə ərazisində 1 nəfərdə qızılcaya yoluxma halı qeydə alınsa da, 2023-cü ilin yanvar-noyabr aylarında 1493 nəfər bu xəstəliyə yoluxub.**

# Cazibə qüvvəsi olmayan bir yerdə həyat necə gedir?



**Kosmosa uçmaq şərəfi Alper qardaşımıza verilib. Öyrəndiklərimizə görə, o, stansiyada 13 təcrübə aparıb. Nə gözəl! Bunlar bizim sahəmiz deyil, amma bir insan kimi bizə maraqlı olan suallar var.**

Maraqlıdır ki, sıfır cazibə mühiti iştahda müsbət və ya mənfi rol oynayır? Beləliklə, piylənmənin həlli tapıla bilərmi?

Müsbət nəticə versə, dünyada cazibə qüvvəsi olmayan idman zalları yaradıla bilərmi?

Mədə əzələləri sıfır cazibə mühitində necə işləyir? Boş əzələlər həzm və defekasiyada hər hansı bir dəyişiklik göstərirmi?

Səhər yeməyi, nahar və şam yeməyi menyusunda nələr var? Menyular hər gün dəyişirmi?

Stansiyada restoran var? Yoxsa boş vaxtınız olanda ağzınıza bir şey doldurursunuz?

Yoxsa yemək həb şəklindədir? Hər yemək üçün fərqli həb varmı?

Qidalanmada dini üstünlüklər nəzərə alınırmı? Məsələn, donuz əti yeməyən Alper qardaşımız üçün, yoxsa ət yeməyən vegetarian hind astronavtı üçün xüsusi menyu varmı?

Stansiyada bar var? İş bitdikdən sonra "bir-iki qədəh içək" demək olarmı?

Quru yemək qəbizliyə səbəb olurmu?

Stansiyada daha çox (məsələn, bir il) qalan astronavtlar arasında sevgi münasibətlərinə yol verilirmi?

Dünyanın seyr etdiyi kiçik pəncərənin qarşısında çox qalanlara "ay həmvətən, çəkil,bir az da biz baxaq" deyirlərmi?

Sıfır cazibə mühiti yuxulara təsir edirmi?

Qeyri-qravitasiya mühitində sümüklər daha da böyüyürmü? Beləliklə, bu təcrübələrin nəticələri ilə qısaboyluluğa qarşı hər hansı bir həll yolu əldə edilə bilərmi?

Sıfır cazibə mühiti, xüsusən kişilərdə cinsi əlaqəyə necə təsir edir?

Suallar çoxdur, ümid edirik ki, türk qardaşımız kosmosdan geri dönəndə bunlarla bağlı təcrübəsini ictimaiyyətlə bölüşəcək.

**Emin**

# Uşaqlar ailə institutunu saxlamaq üçün yapışqan olmamalıdır

**Sevgisiz bir mühitdə böyüyən uşaq susuz gül kimidir. Boşanmayıb, uşaqlar böyüyəndə onlara "bu kişiyə (və ya bu qadına) sizə görə dözdüm" demək, uşaqları günahlandırmaq nə dərəcədə düzgündür?**

Ərləri onlara yaxşı münasibət göstərməyəndə, fikir ayrılığı yarananda qadınların "mən bu evlilikdə sırf uşaqlarım üçün qalıram" deməsinə inanmıram.

Maraqlıdır, əcəba qadınlar ayrılıqdan sonra qarşılaşacaqları həyat şərtlərindən qorxduqları üçünmü uşaqları bəhanə edir?!

Uşaqlarvalideynlərinin bir-birinə münasibətinin necə olduğunu necə bilə bilərlər?

Ətrafınızdakılar döyülmə və ya təhqir kimi görünən davranışları başa düşə bilər, ancaq psixoloji manipulyasiya kimi şeylər, yəni bir şəxs şüurlu və ya şüursuz olaraq müəyyən strategiyalardan istifadə edərək qarşı tərəfin davranışını dəyişdirməyi hədəflədikdə, bu, uşaqlar üçün çətin olur. Maraqlıdır, ailə həyatı quran, lakin illərdir anlaşa bilməyən, bir-birini sevməyən cütlüklər niyə boşanmırlar və bunu övladlarına aid etmək istəyirlər?!

Düşünürəm ki, əvvəlcə özünü təhlil etməlisən. Boşana bilməməyiniz üçün əsl səbəbləri özünüzdə axtarın.



Bir qadın deyir:

"Biri ay yarım, o biri altı aylıq uşaqları olmasına baxmayaraq ərindən ayrılmağa razı olan bir qadın kimi qızlarım böyüyəndə mənə "yaxşı ki, boşanmısan, ana" dedilər".

Əsas odur ki, həyat yoldaşları bir-birlərini pisləməsinlər. Çünki həyat yoldaşları kimi anlaşa bilməyəcəksiniz, amma uşaqların valideynlərinin etibarına və sevgisinə ehtiyacı var.

**Gəlin uşaqlarımıza imkan verək ki, müsbət və mənfi cəhətlərimizlə bizi özləri tanısınlar və qiymətləndirsinlər.**

**Emin**

# Azərbaycan mətbəxi oğurlandı: "Erməni milli yeməkləri" bazası yaradıldı

**Ermənilər növbəti dəfə həyasızlıqlarını nümayiş etdirməyə imkan tapıblar. Beləki, Azərbaycan, Türkiyə və şərq kulinariyasının ən populyar və ləzzətli yeməklərindən ibarət sayt yaradaraq onları öz yemək mədəniyyətləri kimi qeydiyyata alıblar.**

Erməni mediası xəbər verir ki, Ermənistanın qeyri-maddi mədəni İrs" məlumat bazasına ölkə bölgələrində yeməklərin ilkin inventarlaşdırılması nəticəsində tərtib edilmiş "Yeməklər haqqında məlumat bazası" adı altında yeni alt bölmə əlavə edilmişdir. Bu prosesdə Ermənistanın 40 qəsəbəsi, 20 kəndi və 7 şəhərinin 50 icmasının 10 marzının 160 benefisiarı iştirak edib . Erməni və yezidi milli xörəklərinin 250-yə yaxın elementi inventarlaşdırılıb. İnventarizasiyada dövlət və qeyri-hökumət təşkilatları, özəl qida sənayesi müəssisələri və fiziki şəxslər iştirak ediblər. İnventarlaşdırmanın məqsədi təkcə bu irs formasının qorunub saxlanmasını və ötürülməsini təmin etmək deyil, həm də onun canlılığını, yayılmasını və populyarlaşdırılmasını təmin etmək üçün ölkə icmalarında mövcud milli yeməkləri toplamaq idi. Bu, həmçinin qastro turizmin və icmaların iqtisadi tərəqqisinə və davamlılığına töhfə verəcək. Prosesin səmərəliliyini təmin etmək məqsədilə "Xörəklər Bazası" davamlı olaraq yeni elementlər və xörəklərlə bağlı video çarxlarla yeniləncək, xalqın maarifləndirilməsinə, milli xörəklərin qorunmasına və istifadəsinə töhfə verəcək". İndi qalır Azərbaycan, Türkiyə və digər şərq ölkələrinin Ermənistanı məhkəməyə verməsi.

Qeyd edək ki, Milli Kulinariya Mərkəzinin sabiq rəhbəri Tahir Əmiraslanov erməni oğurluğuna ən çox məruz qalan sahənin Azərbaycan mətbəxi olduğunu söyləmişdi:"Bu günə qədər 200-ə yaxın Azərbaycan yeməyi erməni adı ilə təqdim olunub. Bu xalq öz varlığını sübut etmək üçün mətbəxə yiyələnmək istəyir. Hələ 2005-ci ildə Avropa Şurası tərəfindən ingilis dilində "Avropanın mətbəx mədəniyyəti" adlı kitab nəşr olunub. Həmin kitabda Azərbaycan mətbəxinin böyük hissəsi erməni mətbəxi kimi təqdim edilib.

**Əntiqə Rəşid**

***(Adıgedən erməni saytı ilə buradan tanış ola bilərsiniz (https://int-heritage.am/utestneri-shtemaran/)***

*Eminquey*

# Fahişələrdən bəhs edən Azərbaycan filmi



**Yüngül həyat tərzi**
**Pul müqabilində cinsi əlaqə**
**Əşşi, uzatmayaq, fahişəlik!**

**Bu peşə Azərbaycanda hər nə qədər açıq şəkildə dilə gətirilməsə də, əfsuslar olsun ki, tələbatlı sahədir. Siqaret kimi bir peşədir. Hər qiymətə var. Pulun var bahalısını, pulun azdır ucuzunu.**

**İndi danışacağım filmin mövzusu da bu peşənin sahibləri və onların bu yola necə düşməsi, onlara cəmiyyətin yanaşmasına xitab edir.**

**Baş rolları Mehriban Xanlarova, Nuridə Əhmədova, Kəmalə Müzəffər, türkmənistanlı aktrisa Oğuldurdi Məmmədquliyeva oynayır. Deyilənə görə, bu obrazı oynamağa o vaxtkı qadın aktrisalarımız razı olmadığına görə türkmənistanlı aktrisa dəvət olunub.**

**Açığı, Mehriban Xanlarovanın gənclik illərini görüb ağzı açıq qaldım. Necə gözəl, necə saf bir siması var imiş. O bu yaxınlarda "Təhminə" filmində Təhminə obrazının əslində ona verilməsindən danışmışdı. Sonradan nə olubsa, Meral Konrat canlandırıb. Məncə Mehriban xanım çox gözəl oynayardı Təhminəni.**

**Bu film baxdığımız bütün Sovet filmi standartlarından kənar çəkilən filmdir. Film müasir Azərbaycan ədəbiyyatının görkəmli simalarından, "altmışıncılar" nəslinin nümayəndələrindən olan Xalq yazıçısı Elçinin "Toyuğun diri qalması" povesti əsasında ekranlaşdırılıb və film Mərkəzi televiziyanın (Moskva) sifarişi ilə çəkilib.**




**SSRİ-nin hələ mövcud olduğu illərdə və Azərbaycanda milli-azadlıq hərəkatının geniş vüsət aldığı dövrdə, konkret olaraq, 1989-cu ildə Azərbaycanın müqtədir sənətkarlarından, böyük sənət xadimlərindən-kino aktyorlarından olan Şahmar Ələkbərovun rejissorluğu ilə çəkilən filmin ekranlara çıxması ilə onun ətrafında böyük qalmaqal, ajiotaj yaşanır.**

**O zaman böyük əksəriyyət filmi Azərbaycan xalqının milli-əxlaqi dəyərlərinə uyğun gəlmədiyini, filmin nümayişinin dayandırılmasını, onun efir(lər)dən yığışdırılmasını, hətta, quruluşçu rejissor kimi Şahmar Ələkbərovun cəzalandırılmasını tələb edir. Hətta, iş o yerə çatır ki, Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının önündə günlərlə etiraz aksiyaları keçirilir. Xüsusilə də, xalq hərəkatının fəal xanım iştirakçıları filmə kəskin etiraz edirlər.**

**Filmdə iki azərbaycanlı qadının bir erməni qadını Rozanın başçılığı ilə yüngül həyat tərzi keçirməsindən, əslində isə onların bir qadın kimi faciəsindən, bu yola düşməyə məhkum edilmələrindən və ona etirazdan bəhs edilir.**

**Filmdə incə bir xətt kimi keçən rüşvət detalı da gözümdən qaçmadı. Burada təkcə Milis "haqq" alıb nahaqqa göz yummur, buranın əhalisi də öz aralarında ayıb işlərini bir-birilərinə rüşvət verməklə ört basdır edirlər. Elə Ağagülün Zibeydəyə xoruzu rüşvət verməsi kimi.**

**Dürdanə bu üç qadından ən üsyankarıdır. Elə bu üsyanın nəticəsində də dəstədən ayrılır, zavodların birində işləməyə başlayır.**

**Bəs Zibeydə hansı səbəbdən bu yola düşüb? O keçmişi xatırlayanda atasının rejim tərəfindən aparılması yadına düşür.**

**Zibeydə epizodların birində etiraz edərək "qulaq qızı" ifadəsini işlədir. Ola bilsin ki, yeni nəsil "qulaq" nədir, bilmir.**

**1930-cu illərdən 1950-ci illərə qədər, Stalinin dövründə məcburi əmək düşərgələrini idarə edən dövlət qurumu idi QULAQ. Kiçik cinayətkarlardan siyasi məhbuslara qədər çoxlu sayda dustaqların yerləşdirildiyi düşərgələr olan QULAQ, SSRİ-də siyasi repressiyaların əsas aləti kimi bilinir.**

**Və Zibeydənin atasını da bu düşərgələrə aparmışdılar. Zibeydənin gələcək taleyi rejimin adamlarından birinin papağını axtaran faytonçu atasına "papağı neynirsən? Bundan sonra papaq sənə lazım olmayacaq" cümləsində gizlənir.**

**Zibeydə düşdüyü durumdan çıxmaq istəmirdimi? İstəyirdi. Hətta sevdiyi bir oğlan da var idi. Həyətlərində tar çalardı, Zibeydə isə onu xəlvətcə qapıdan pusardı. Bir gün onun müharibədə həlak olduğunu öyrənir və yeganə çıxış yolu olan adamı itirməyi onun əlini hər şeydən üzür.**

**O dövrün ritorikasından, ab-havasından çıxış edən Azərbaycanın bir çox fəal qadınları hec cür bu məqamla barışmır, filmə, onun quruluşçu rejissoru Şahmar Ələkbərova qarşı sərt mövqe nümayiş etdirirlər.**

**Rejim etirazları görərək, filmin nümayişinin dayandırılması barədə rəsmi olmasa da tapşırıq verir və qısa zamanda da, film sanki çəkilməmiş kimi arxivə göndərilir. Bu ekran əsərinin çəkilməsindən 30 ildən çox vaxt ötsə də, Azərbaycan telekanallarında demək olar ki, hələ də onun yayımına rast gəlinmir.**

**Filmdə çəkilmiş aktrisalar bu film barədə illər sonra danışıblar.**

**Nuriyyə Əhmədova (xalq artisti, Roza rolunun ifaçısı): "Bir dəfə Şahmar zəng elədi ki, kinostudiyaya gəlmə, burda millət doludur, səni öldürərlər. Demə, qadınlar kinostudiyanın həyətinə yığışaraq etiraz edib qışqırırmışlar. Sonradan məlum oldu ki, bu piketin keçirilməsində kinostudiyada işləyən ermənilərin də əli varmış. Əslində filmdə etiraz edilési məqam yox idi. Orda sadəcə olaraq qadınların müharibə vaxtı düşdüyü mühit göstərilirdi. Göstərilirdi ki, müharibə qadınları özləri istəmədən fahişəliyə düçar edir. Və o vaxt elə mövzuda film çəkmək çətin bir iş idi. Çox təəssüf ki, o cür ekran əsəri yiyəsiz qaldı".**

**Mehriban Xanlarova (əməkdar artist): "Film nümayiş olunanda bəzi etirazlara səbəb oldu. Həmin vaxt Şahmar Ələkbərov bərk xəstə olsa da, belə şeylərə fikir vermirdi. Çox peşəkar yanaşırdı və deyirdi ki, belə şeylər olur. Amma mənim haqqımda da deyirdilər ki, guya o filmdən sonra məni döyüblər. Bu tamamilə yalandı. Amma mən bu gün də sevinirəm ki, "Sahilsiz gecə"yə çəkilmişəm. Çünki Şahmar Ələkbərov kimi bir adamla işləmişəm".**

**Sonda filmdə ən xırda və bəlkə önənli detalı qeyd etmək istəyirəm. Bu pəncərədən pərdənin azca aralanaraq baş verənlərin izləndiyi epizoddur. Bu o pəncərədir ki, faytonçu Əbülfəz repressiya edilərək, həbs olunanda da yüngülcə pərdəsi aralanmışdı. Sonralar - bütün hadisələr zamanı da yalnız müşahidənin aparıldığı obyekt olmuşdu. Halbuki xırda müdaxilə belə Zibeydənin həyatını fərqli yöndə dəyişə bilərdi.**

**Zibeydə gileylənəndə məhz bu pəncərədən danışırdı.**

**Başqalarının dərdinə boylanmağı bacarın, əziz insanlar!**



VAQİF YUSİFLİ

# BİR ƏLİYAR YUSİFLİ VARDI...

## ("Unutmadığım insanlar" silsiləsindən)

*Baxma xəritədə bu qədim şəhər,*
*Kiçik bir nöqtəylə qeyd edilibdir.*
*Bu yurdun qolunda aslan gücü var,*
*Bundan cahangirlər peşman gedibdir.*

*Qəm yerə quylanıb şiş qayasında,*
*O gündən bu günə vüqar qalıbdır.*
*Odlar diyarının bu parçasında*
*Şadlıq qranitdən qopardılıbdır.*

*Bu yerlər qıy vuran qartal yeridir,*
*Dostlar qonaq gəlsin qoy dəstə-dəstə.*
*Bu qədim Naxçıvan gül buketidir,*
*Məğrur bir vətənin qolları üstə.*

Bu şeirin müllifi Əliyar Yusiflidir (1929-1993).Şeir onun əksər şeirlərində dönə-dönə vəsf etdiyi Naxçıvana həsr edilib. Əliyar Yusifli Naxçıvan ədəbi mühitinin yetirməsi idi və keçən əsrin 70-80-ci illərində o iyarda seçilən ziyalılardan olub. O, Moskvada Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdi, Naxçıvan Muxtar Respublikası Dövlət Radio və və Televiziya verilişləri komitəsinin Ədəbiyyat və İncəsənət şöbəsinin müdiri kimi regionda ədəbi qüvvələrin inkişafında mühüm rol oynamışdr.

Əliyar Yusiflinin bir neçə şeir kitabı çapdan çıxıb: "Dağlar yaraşığı", "Səni xatırlayıram", "Bənövşə ətri" və s. Mən onunla Naxçıvana ilk səfərim zamanı (1984) tanış oldum. Çox mehriban insan idi, deyirdi ki, ədəbi aləmdə cəmi iki Yusifli var-biri sənsən. Biri də mən. Əliyar müəllim bir gün məni doğulduğu Şərur rayonunun Püsyan kəndinə apardı. Gözəl bir kənd. Səfalı mənzərələr.

Onun altı şeir kitabının hər birində Naxçıvana həsr edilən şerlər var. Olsun ki, bu şeirlərin bir çoxu yüksək sənətkarlıqla qələmə alınmayıb, amma Naxçıvana həsr etdiyi şetirlərdə əbədi sevgi var.

*Araz üstə dayanmasan mayaqtək,*
*Gen köksünə yaraşıqdır gül=çiçək.*
*Minarələr buluddan nəm çəkərək*
*Ana yurdun vüqarısan, Naxçıvan*
*Abidələr diyarısan, Naxçıvan.*

Naxçıvanın hər bir guşəsiona tanış idi və Əliyar Yusiflinin bu mövzuda yazığı bütün şeirlərini bir yerə toplayanda bir "Naxçıvannamə" yaranar. Həm də bu şeirlərdə onun Naxçıvana öz baxışı var, məsələn, "Əlincə qalası"i şeirində bunun bariz ifadəsini görürük.

*Mərdin bağlananda döyüşdə yolu.*
*Silahı qoluyla birgə itirib.*
*Qayalardan qalxan həmərsin kolu,*
*Ona budağında nizə bitirib.*

Amma elə güman eləməyin ki, Əliyar Yusifli ancaq Naxçıvanı mədh edibö, o, Azərbaycanın bir çox guşələrini gəzmişdi, Vətən onun üçün təkcə Naxçıvandan ibarət deyildi.Elə bircə "Vətəndən uzaqda" şeirini oxumaq kifayətdir.

*Muğan ceyranının lal baxışları,*
*Dayandığım yerdən qoparır məni.*
*Arayır gözlərim Arazı, Kürü*
*Bilmir bu hicrandan ürək neyləsin.*
*Qayada oxuyan kəklikdən ötrü,*
*Az qalır burnumun ucu göynəsin.*
*Dindirmə ay qardaş, kövrəlmişəm mən,*
*Ancaq bir çay dəmlə, dəmlə sən canın.*
*O çayın buğlanıb qalxan ətrindən*
*Qoy duym ətrini Azərbaycanın!*

Əliyar Yusiflinin uşaqlıq və yeniyetməlik övrü İkinci Dünya müharibəsi illərinə düşüb. Odur ki, onun bir çox şeirləri o müharibənin onda və ümumən bəşəriyyətdə doğurduğu fəlakətlərə həsr edilib. "Buhenvald", "Xatının zəng səsləri" şeirlərini misal göstərmək olar.

Əliyar Yusifli həm də təbiət şairi idi. Təkcə Naxçıvanın qədim abidələrindən, özünəməxsus təbiətindən deyil, həm də küləkdən, dumandan, dağdan yazırdı və çalışırdı ki, şeirlərində canlı bir mənzərə yaratsın. "Duman" şeirindəki təsvirlər DUMAN obrazını yaradır. Yazırdı ki: "Yarandı torpağın alın tərindən, Quşun qanadını belinə taxdı. Duman, nəfəsini dərib dərindən Yerlərdən ayrılıb göylərə qalxdı".Təbiətə sevgisi dörj misralıq bir şeirdə görün necə səmimiyyətlə ifadə olunub :

*Bahar xalısını düzlərə saldı,*
*Bağlarda hər çiçək min rəngə çaldı,*
*Qoymadım dərməyə sevdiyim gülü,*
*Çəməndə bitmişdi, çəməndə qaldı.*

Yaxud, onun "Bənövşə ətri" ŞEİRİNƏ DİQQƏT YETİRƏK. Azərbaycan poeziyasında yüzlərlə bənövşə şeiri yazılıb. Onun bu şeirini də bənövşələrə həsr olunan ən yaxşı şeirlərin sırasına qatmaq olar:

*Sevən ürəkləri bürüyər oda,*
*Sevgisiz qəlblərin yolunu kəsər.*
*Bəlkə Məcnun qalıb odlu səhrada,*
*Qarışıb küləyə, üstündə əsər.*

Amma onun "Gəlsən Batabata" şeiri deyərdim ki, indiyənəcən Batğabata həsr olunan (İslam Səfərlidən sona) ən sanballı şeirlərdən biridir.

Əliyar Yusifli həssas ürəkli, yeri gələndə kövrələn, göz yaşları axıdan bir şair olub. Məsələn, onun "Sevincim kədərə döndü" şeirində bir balıq ovu təsvir edilir. O, tilova düşən balığı görüncə sevinir, amma balığı qarmaqdan ayıranda ağzında çörək qırığı görür: "Sevincxim kədərə döndü, Sağ əlimdə tilov,Sol əlimdə sazan, Taqətsiz dayandım, Bir tikə çörək üçün Boğazını qarmağa keçirən Balığın halına yandım".

Şeirlərində pislərə, naqislərə qarşı da hiddətini gizlətm "Naqis" şeirndən misal gətirirəm:

*Gözündə günəşdtr paslı qurğuşun*
*Gecə söyləyirsən aydın səhərə.*
*Əyri danışığın, saxta duruşun,*
*Qananın alnında çevrilir tərə.*

*Nəfəsin toxunan çiçəklər solur,*
*İlan zəhəri var yəqin qanında.*
*Sənin toyun olur, bayramın olur,*
*Ürək dostlarını vuruşduranda.*

*Əməin rişədir insan dərdinə,*
*Cahana insantək gəlirdin niyə?*
*Anan daş doğaydı sənin yerinə,*
*Vətəndə bir naqis azalsın deyə.*

2020-ci ildə Əliyar Yusiflinin "Yollarında qaldı gözüm" şeirlər k5itabı çap olundu. Kitabın tərtibçisi və ön sözün müəllifi Naxçıvan Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigardır.Qeyd edim ki, Əliyar Yusifli Asim Yadigarın əmisi olub və əlbəttə, Asim təkcə əmisinə görə deyil, Əliyar Yusiflini sevən və onu unutmayan insanların xətrinə bu işi görüb. Asimin ön sözündən öyrənirik ki, Əliyar Yusifli həmdə dramaturq idi Onun "Vicdan əzabı", "Səadət naminə", "Gözüm yollarda qaldı","Siz xoşbəxt yaşayın" dramları NaxçıvanDövlət Dram teatrında, "Ürək sevərs dramı isə Gəncə Dövlət Dram teatrında tamaşaya qoyulub. Onun bir çox şeirləri də olub ki, bəstəkarlar mahnı yazıblar bu şeirlərə.

Əliyar Yusiflinin yaradıcılığı həm sağlığında, həm də vəfatından sonra bir çox ədəbiyyatşünasların (xüsusilə akademik İsa Həbiibbəylinin) diqqətini cəlb edib və məqalələr yazılıb.

Bu yazının sonunu Əliyar Yusiflinin "Sevmişəm" şeiri ilə bitirmək istəyirəm:

*Zəmilərdə dalğalanan sünbülü,*
*Vətən deyib cəh-cəh vuran bülbülü*
*Ətir saçan hər çiçəyi, hər gülü,*
*Fəsillərdə ilk baharı sevmişəm.*
*Təmizqəlbi, saf arzunu, diləyi*
*Doğru sözü, düz iqarı sevmişəm.*



Fazil Sənan

# HƏQİQƏTİN ACI XATİRƏSİ

**Axşamçağı vacib işim olduğu üçün rayona getmisdim. Raykomun binasının qarşısında təsadüfi olaraq raykomda işləyən Mehman müəllimlə qarşılasdıq.**

1986-cı ildə Mehman Qardaşxanovla Azərbaycan Tarixi Abidələri Mühafizə Cəmiyyətinin IV qurultayında birgə iştirak etmişdik. O vaxtdan aramızda yaxın münasibət yaranmışdı. Mehman müəllim bilirdi ki, mən yazı-pozu ilə məşğul oluram.

Hal-əhvaldan sonra Mehman müəllim soruşdu ki, "Azərbaycan gəncləri" qəzetində yazın çap olmayıb ki?

***- Yox, - dedim.***

Qəzetdə "Qapını göstərdilər" adlı böyük bir hekayə çap olunub, axırında da Fazil Vəliyev yazılıb. Fikirləşdim ki, yəqin sənin hekayən olar, ona görə sorusdum.

***- Hekayəni oxumusan?***

***- Hə, oxumuşam.***

***- Məzmunundan bir az danış görüm, dedim.***

***- Partkom (yerli partiya təşkilatı katibi) Xanlar adlı bir müəllimlə, Nənəgül adlı bir sağıcı qızı partiya (Sovet İttifaqı Kommunist Partiyası) sıralarına qəbul olmağa gətirir. Büro üzvləri sağıcı Nənəgülü partiya sıralarına qəbul edirlər. Xanlar müəllimi isə qəbul etmirlər.***

Mehman sözünü bitirər-bitirməz tez sevincək dillləndim ki, mənim hekayəmdi. Qəzetə təzə göndərmişəm. Nə tez çap ediblər. Hekayənin adı "Ağrı" idi. Görünür adını dəyişiblər.

***- Mən hekayəni oxuyan kimi bildim ki, sənin hekayəndir. Hekayənin sonunda müəllifin adı yazılıb, amma rayonun adı yazılmayıb. Qəti boynuna alma ki, hekayə sənindi.***

***- Başa düşmədim. Nəyə görə? - təəccüblə Mehmanın üzünə baxdım.***

***- Ona görə ki, raykomda hekayə böyük səs-küyə səbəb olub. Birinci katib Mürşüd Əzimov yoldaş hamını kabinetə çağırıb, qəzeti göstərərək soruşdu ki, bu yazını kim yazıb? Fazil Vəliyev kimdir? Tanıyanınız varmı bu adamı? Büroda olan bu məsələ hardan və necə sızıb? Kimdi bunu yazan? Kimdi bu adam Kommunist Partiyasını tənqid edir, lağa qoyur? Bunu yazanın həyətində sənədsiz beş metrlik bir turba, beş-on kubik (mişar daşı) yoxdur? Yoxdursa, axşam aparın qapısına atın, səhər gətirin salın içəri. Bir neçə il yatsın və görsün ki, Kommunist Partiyasını tənqid etmək nə deməkdir. Onda ağlı başına gələr. Dedilər tanımırıq.***

Ona görə deyirəm ki, heç kimin yanında demə ki, bu yazını sən yazmısan?

Mehman müəllimlə xudahafizləşib içimdə bir qorxu hissi ilə raykomun binasının yanında olan qəzet köşkünə yaxınlaşıb bir neçə "Azərbaycan gəncləri" qəzeti alıb, tez köşkdən aralandım və kəndə getmək üçün asfalt yolun kənarına çıxdım. Evə çatan kimi hekayəni oxudum. Hekayə mənim idi. 12 iyun 1990-cı ildə "Azərbaycan gəncləri" qəzetinin redaksiyasına göndərmisdim. Hekayə 21 iyul 1990-cı ildə çap olunmuşdu. Hekayənin adı "Ağrı" idi, amma "Qapını göstərdi" adı ilə çap olunmuşdu. Müəllif mən göstərilsəm də, rayonun adı yazılmamışdı. O dövrü yaşa-yanlar bilirlər ki, tanınmamış imzanı hər mətbuat çap etmirdi. Etiraf edim ki, hekayənin çap olunmasına sevinsəm də, içimdəki qorxudan da yaxa qurtara bilmirdim.

Payızın son ayları idi. Bakıya xəstə aparmısdım. Xəstəni xəstəxanaya yerləşdirdikdən sonra, xəstənin problemi ilə bağlı bir-iki gün şəhərdə qalası oldum. Arada yaranmış boş vaxtdan istifadə etmək məqsədi ilə fikirləşdim ki, redaksiyaya gedib redaktora təşəkkürümü bildirim. Yağışlı bir havada indiki Mətbuat prospektindəki "Azərbaycan nəşriyyatı"na yollandım. Səkkizinci mərtəbədə yerləşən redaksiyanı tapıb qapını döydüm. İçəridən eşidilən "buyurun" sözündən sonra qa-pını açıb otağa daxil oldum. Katibənin "Eşidirəm. Sizə nə lazımdır?" sualına "Redaktor otağındadırmı?" cavabını verdim. Katibə yan otağa keçib bir azdan qayıdaraq, "Buyurun" dedi.

Qapını açıb kabinetə daxil oldum. Salam verdim. Stolun arxasında əyləşmiş adamın qəzetin redak-toru Yusif Kərimov olduğunu zənn edərək "Sizə təşəkkür etmək üçün gəlmişəm" dedim. Təbəssüm dolu baxışlarla mənə baxan redaktor bir anlığa fikirləşib dedi.

***- Jdanovdansınız? (İndiki Beyləqan).***

***- Bəli, Jdanovdanam.***

***- Fazil Vəliyev sizsiniz?***

***- Bəli, mənəm.***

***- Yaxın gəlin, əyləşin, - deyən redaktor yaxınlığında olan boş stulu göstərdi.***



***Göstərilən boş stulda əyləşdim.***

***- Nə işlə məşğulsunuz?***

***- Müəllim işləyirəm.***

Müəllim, yazınız xoşuma gəldi. Cəsarətli yazı idi. Belə cəsarətli yazını hər qələm adamı risk edib yaza bilməz. Partiyanın kəskin tənqid etmənizdən hiss etmişdim ki, cavan və bir az da sadəlövhsünüz. Bəlkə də yazının sizin başınıza gətirəcəyi ağrını bir az dərindən fikirləşsəydiniz yazmazdınız. Ona görə yazının axırında rayonun adını yazmadım. Bildim ki, başınız ağrıya bilər. Redaksiyanın ixtiyarı var ki, müəyyən şeyləri açıqlamasın.

Rayon Komsomol Komitəsinin birinci katibi Allahverdi Süleymanov redaksiyaya gəlmişdi. Sözsüz ki, onu rayonun birinci katibi göndərmişdi. Allahverdi Süleymanov əlində gətirdiyi qəzeti göstərərək, "Bu yazını yazan Jdanovdandımı?"

- Dedim ki, yox. Nəyə görə elə fikirləşirsiniz ki, müəllif sizin rayondandır?

Allahverdi Süleymanov söylədi ki, bu məsələ bizim rayonun bürosunda olub. Çünki, mən özüm də büro üzvüyəm.

Allahverdi müəllimə söylədim ki, bu cür vəziyyət rayonlarımızın çoxunda adət şəklini alıbdı. Müəllif başqa rayondandır. Allahverdi Süleymanov da inandı.

Müəllim, cavansan. Belə məsələlərə toxunma. Elə məsələlər var ki, onu tənqid etmək olmaz. Xüsusən partiya məsələsini.

Xudahafizləşib ayrılanda Yusif müəllim bir də belə "səhvə" yol verməmə, - deyib gülümsündü.

**Mən heç kimi qınamıram. Dövrün abhavası o cür idi. Rayonun rəhbər vəzifəsində işləyən Mürşüd Əzimovun və Allahverdi Süleymanovun Kommunist Partiyasının siyasətini müdafiə etmək vəzifə borcları idi. Mehman Qardaşxanovun xəbərdarlığı və Yusif Kərimovun müdafiəsi olmasaydı yəqin ki, bir neçə il həbsxana həyatı yaşamalı olacaqdım. Yaxşılıq yaxşı şeydi, amma hər adam yaxşılıq etməyi bacarsa.**



**ŞƏDDAT CƏFƏROV**
*İqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü Beynəlxalq Yazıçılar Birliyinin üzvü*

# QAFAR CƏFƏRLİNİN ÜÇ HEKAYƏSİ HAQQINDA

**(əvvəli ötən saylarımızda)**

## *3. Tənhalıqla iradənin savaşı*

**Ümumiyyətlə, dünya ədəbiyyatında insanın psixoloji durumunu ən müxtəlif tərəfdən göstərən əsərlər oxucular tərəfindən xüsusi maraqla qarşılanır. Qısqanclığı yaradan psixoloji durum, yaxud ehtiyacın insan təbiətində yaratdığı dəyişilmələr, lap elə yüksək təminatın insanın xarakterinə təsiri... kimi amillər həmişə daimi, yaşarı bir problem kimi qavranılıb.**

Qafar Cəfərlinin "Tənha qadın" hekayəsi də insan taleyi ilə bağlı xüsusi psixoloji durumun bədii şərhini verir. Hekayənin adından göründüyü kimi biz burada taleyin qədəri kimi qəbul edəcəyimiz bir insanın ömür yolundan bir parçaya diqqət etməli oluruq.

Ümumiyyətlə, onu demək lazımdır ki, Qafar Cəfərli, eləcə də digər yazıçılar insanın qarşılaşdığı problemləri şərh edərkən, başqa sözlə, onun bədii təsvirini verərkən bu problemləri yaradan səbəblərə də xüsusi diqqət yetirirlər.

Necə olub ki, əsərin qəhrəmanı Nərmin tənhalığa düçar olub. Axı o 8 il sevdiyi oğlanla özünün təbirincə desək, xoşbəxt bir həyat yaşayıb. Bu həyatın xoşbəxtliyini göstərən elementləri də yazıçı xatırladır. Onlar demək olar ki, dünyanın görməli, gəzməli yerlərinin hamısına səyahət ediblər. Əsas da odur ki, heç bir maddi çətinlikləri olmayıb. Bu da onu göstərir ki, sanki bu gənclər həyatın əsas tələbini unudublar. Evlilik müddəti... bu 8 ildir. Elə gəlib keçib ki, sanki heç xəbərləri də olmayıb.

Yazıçı tənha qadının düşdüyü durumun ağır məqamını bizə göstərir. Sanki bütün hekayə yarım saatdan bir az artıq müddətdə baş verən psixoloji durumun mənzərəsini açır. Bunun üçün biz qabaqca tənha qadının elə tənhalıq mənzərəsi ilə qarşılaşırıq.

Bizə elə gəlir ki, yazıçı bir insanın tənhalığını göstərmək üçün daha dərin qatlara enməlidir. Fələkləri köməyə çağırmalıdır. Mələklərdən tənhalığın səbəbini izah etməyi tələb etməlidir. Amma Q.Cəfərli bu cür əlləməçiliyə getmir. Sadəcə bir qadının evinin, yəni özünün güzəranı üçün bazarlıq eləyib mühitinə gəlməsini real cizgilərlə verir. Bu da bizə bəs edir ki, həmin qadını yaxşı tanıyaq:

"Dəhlizdəki bədənnüma güzgünün qarşısında ayaq saxladı. Arxası güzgüyə stulda oturdu. Son vaxtlar sanki buna adət etmişdi. Hər dəfə işdən gələndə 2-3 dəqiqə orda dincini alar, yad evə gəlibmiş kimi ətrafı maraqla gözdən keçirərdi. Bu gün əvvəlkilərdən fərqli idi. Heç olmamış kimi bədənindəki ağrılardan ürəyi sıxılırdı, bir az yorulub, bir az da tərləmişdi. Zarafat deyildi, binanın günlərlə "can verən" liftin "mərhəmət"indən əlindəki ərzaq və meyvə-tərəvəz dolu salafan torbalarla yeddinci mərtəbəyə piyada qalxmışdı. Bir neçə dəfə dərindən nəfəs aldı. Özünü sakitləşdirməyə çalışdı. Son vaxtlarda tez yorulduğu fikri yenə ağlından keçdi. "Otuz yaşım yoxdur, amma belə tez yoruluram. Bütün ətrafımın həsəd apardığı yaddaşımdan da indi əsər-əlamət yoxdur. Ətrafa göz gəzdirdi. Ev sanki məzar sukutuna qərq olmuşdu. Milçək vızıltısı belə güllə səsini xatırladardı. Əslində bu son aylarda işdən evə qayıdarkən görməyə adət etdiyi səhnə idi. Hər dəfə evdə onu qarşılayacaq kimsənin olduğunu zənn etsə də bu olmurdu, olacağına da ümid az idi. Bunu özü də bilirdi, amma olmağını o qədər istəyirdi ki... Hətta bunun olmayacağını bilə-bilə özünü aldadırdı və bu aldanışdan da həzz alırdı".

Demək, bu qadın elə bir üzü qız, bir üzü gəlin olaraq tənha qalıb. Bəs həyat onu niyə belə tez yorub, səbəbi nədir? Səbəb odur ki, ötən müddət ərzində ona təskinlik olacaq həyatından heç bir iz yoxdur. İmkanı da, maddi durumu da, mənzili də var. Ancaq bütün bunlar ona sıxıntıdan başqa heç nə gətirmir. Hələ tez-tez düşünür ki, necə olaydı ki, bu tənhalıqdan qurtulaydı. Başqaları ona məsləhət edirlər ki, sevə bildiyi birisi ilə ailə qursun. Ancaq bunu da edə bilmir. Çünki bütün evdə hər şey ona sevgili həyat yoldaşı Nihatı xatırladır. O, Nihatla nəfəs alır, Nihatın xatirəsi ilə yaşayır.

Yazıçı Nərminin psixoloji durumunu təsvir etdikcə, onun mənəvi mühitinin dərinliklərinə vara bilir. Biz Nərminin tərəddüdlərini, özünün mənəvi mühiti ilə mübarizəsini müşahidə edirik. Ona birinci növbədə düşdüyü vəziyyətdən çıxmaq üçün Nihatın xatirəsini xatırladan nə varsa yığıb bir tərəfə qoymaq lazımdır. Amma o bunu edə bilərmi? Hiss olunur ki, Nərmin bunu özünə bağışlanmaz bir xəyanət hesab edir. O bu xəyanəti etmək iqtidarında deyil, çünki mənən saf və sağlamdır.

Nərminin öz evindəki əhvalı ilk baxışdan sakit, yaşamalı bir mühiti xatırladır. Amma onun daxili-mənəvi mühitindəki problemlərin, vurnuxmaların hamısının mahiyyətində özünün tənhalığı dayanır. Artıq biz qeyd etdik ki, o bu tənhalıqdan çıxmağın başqa yolunu görmür, əslində heç o yolu axtarmır da. O get-gedə hiss edir ki, daxili gərginliyi artır. Nəfəs alması çətinləşir. İstəyir ki, başını qarışdırsın. Amma mümkün olmur. Hansı divara tərəf baxırsa, Nihatı görür. Çünki o, Nihatla nəfəs alır. Onunla ayrı yaşamağı heç təsəvvürünə də gətirmir, baxmayaraq ki, artıq Nihat 3 aydan çoxdur ki, bu dünyada yoxdur.

Müəllif Nərminin düşüncələrini sanki yanında durub onun dediklərini, özü də qəlbində dediklərini özü eşidirmiş kimi verir. Biz bu düşüncələri eşitdikcə Nərminin yaşadığı daxili-mənəvi gərginliyin özünü hiss edirik. Və sanki biz onunla daha yaxın olmaq, ona hansısa bir tərəfdən kömək etmək niyyətində oluruq, ancaq buna gücümüz çatmır. O nə qədər bizə doğmadırsa, bir o qədər də bizdən uzaqdadır. Burada söhbət insanlığın yardımına ehtiyacı olan insandan gedir.

Axı, Nərminin özü də hiss edir ki, çətinliyə düşüb. Vurnuxur, kömək umacağı bir kimsəsi yoxdur və bu çətin məqamda da o yenə Nihatı qınamır, qınaya bilmir. Amma hər halda onun xoşbəxtlik haqqındakı düşüncələri çox maraqlıdır, nəinki maraqlıdır, həm də cəlbedicidir:

"Düz deyiblər ki, xoşbəxtliyin vaxtı-vədəsi, ölçüsü, çəkisi, heç məkanı belə olmur. İnsan bir anlıq xoşbəxtliyini bütün ömrü boyu yaşaya bilər. Nihatla olduğum səkkiz il sanki bir göz qırpımında ötüb keçdi. Necə xoşbəxt idik İlahi! Sanki bir yuxuydu, gördüm. Yuxu dedim, yuxu yadıma düşdü. Hər gecə Nihatı yuxuda görmək üçün onunla keçirtdiyim xoş anları xatırlayıb yatsam da bu etibarsız yuxuma gəlmir ki, gəlmir. Ay vəfasız, bu qədər müddətdə heç yadına düşmədim, heç



darıxmadın mənim üçün? Bəs deyirdin sənsiz bir gün belə yaşaya bilmərəm".

Doğrudur, bu mətnin içərisində bir qınaq məqamı da var. Amma hiss olunur ki, bu qınaqda günahlandırma motivi yoxdur. Bütün hallarda onun Nihatdan umacağı bundan ibarətdir ki, təki yuxularına gəlsin, yuxularında onunla birgə olsun. Hiss eləsin ki, lap dərin yuxuda olsa belə, Nihatla bir yerdədir. Bütün hallarda insanların tale yolu nə qədər fərqlidirsə, həm də bir o qədər bir-birinə bənzərdir. Ona görə də biz Qafar Cəfərlinin "Tənha qadın" hekayəsi haqqında düşünərkən onun yaratdığı obrazı uzaqda yox, elə ətrafımızda görürük. Bəyəm, Nərmin kimi taleyin gərdişindən tənhalığa düçar olmuş, ağrı və acılarla dörd divar arasında qalmış olanlar azdırmı? Bəlkə hətta beləsi elə Nərmin adında da var. Burada yazıçı keçmişə bir qədər retro baxış edir. Nərminlə Nihatın tanış olmaq mərhələsini yada salır. Onların hansı şəraitdə tanış olduqlarını artıq təfərrüata varmadan oxucuya çatdırır. Məlum olur ki, gənclər ali məktəbin axırıncı kursuna yaxın tanış olublar. Nihat Nərminin rəfiqəsinə çətin vəziyyətdə kömək edib. O, Nərminin rəfiqəsi uğrunda çalışmalarına dayaq olub, onu tək buraxmayıb.

Bütün hallarda insanlar fədakarlığı yüksək qiymətləndirir. Əgər kimsə birinin haqqında doğrunu düşünürsə, birinin yolunda fədakarlıq edirsə, onda onun obrazı həmin şəxsin yaddaşına yazılmış olur. İstər-istəməz yaddaş onun müsbət obrazını yaradır.

Beləliklə, Nihat Nərmin üçün fədakar, həm də diribaş, qoçaq bir gənc obrazında görünür. Həyat göstərir ki, həqiqətən Nihat Nərmini sevib. O, Nərmini xoşbəxt etmək niyyətindədir. Öz imkanlarını sərf edib onun məmnunluğu üçün nəyi bacarırsa, hamısını həyata keçirməyə çalışır.

Nərminin mənən kimliyini oxucuya dəqiq və aydın çadırmaq üçün yazıçı retro düşüncələri yada salır. Hətta tənhalıq zamanında belə ən yaxşı duyğulanmalar, onun kimliyi haqqında fikir və düşüncələr Nərminin xatirəsində təzədən canlanır. Biz Nərminin daha bir rəfiqəsinin düşüncələri ilə tanış oluruq. Bu, Gülnardır. Həmin Gülnardır ki, o ağır xəstə olanda Nərmin onun üçün fədakarlıq göstərib və o zaman Nihat da onun yanında olub. Nərminlə Nihatın toyunda Gülnarın düşüncələri yaddaşa gəlir: "Bir ömür xoşbəxtlik olmur, gözəl bacım. Ömrün qısa olması səbəbindən xoşbəxtlik insanları daha çox ovsunlayır. Özün necə, xoşbəxt ola bildinmi? Ailə qurduğun ilk aylarda dilindən düşməyən xoşbəxtlyin həyatında bir hərfi belə qalmayıb. Sənə zəng edib halını belə soruşa bilmirəm, çünki eşitdiklərimdən günlərlə çobalaya-çobalaya qalıram. Nə səsim yetir sənə, nə harayım".

Dəyərli düşüncələrdir, özü də söhbət təkcə nə Gülnardan, nə də Nərmindən getmir, ümumiyyətlə insanlardan gedir. Yəni ən doğma bir adamın çətinliyə düşür, sən ona istəsən də çox vaxt heç bir kömək edə bilmirsən. Aranı məsafə kəsir, aranı müxtəlif mənəvi sosial problemlər kəsir, lap elə bir az da açıq desək, maddi imkanlar kəsir və s. Gülnar da Nərmin üçün beləcə ürəyi yansa da, heç bir kömək edə bilmir. Amma onu doğru deyir ki, heç kəs üçün ömür başdan-başa xoşbəxtlik zər-zibasına bürünə bilməz. O xoşbəxtlik deyilən nədirsə, adamlar onu müəyyən ərəfədə, müəyyən məqamda yaşayırlar. Elə Nərminin özü də beləcə həmin xoşbəxtliyi az müddətə yaşamalı oldu.

Q.Cəfərli elə məsələlərə toxunur ki, biz istər-istəməz yaşadığımız mühiti, gördüyümüz həyati mənzərələri gözlərimizin önündə canlandırmalı oluruq. Hekayədə Nərminin özünün iştahının apara biləcəyi yeməyi hazırlaması, bu yeməyi yeyə bilməməsi sanki özünün pasibanı olan Məstan pişiyi axtarması... bütün bunlar həyati cizgilərdir. Parklarda, tənhalıq künclərində adamların itlə, pişiklə gəzmələrini çoxlarımız müşahidə etmişik. Çox güman ki, insanların tənhalıq iztirablarından xilas olması üçün heyvanlarla ünsiyyət bağlaması da elə həyati zərurətdən doğur. Nərminin yeməyini pişik yeyir. Ancaq özünün yadına düşmür ki, axı acdır. Biz get-gedə onun necə psixoloji gərginliyə düşməsini, sarsıntı keçirməsini müşahidə edirik.

İstər-istəməz gərginlik oxucunun da ruhuna sirayət edir. Biz narahat oluruq. Görəsən, Nərmin bu qədər ciddi gərginlikdən, tənhalıq əzablarından necə xilas olacaq. Öz-özünə danışır. Müxtəlif suallar verir. Nə üçün 8 illik ailəlik dövründə uşağının olmamasının səbəblərini axtarır. Axır ki, son vaxtlar ümumi razılığa gəlmişdilər.

Övladları olmalı idi. Bunu da tale qismət etmədi. Nihat qəzada həlak oldu. Nərmin bütün varlığı ilə yaşadığı mühitə etiraz etmək istəyir. O belə həyatı bütün ömrü boyu daşıya bilməyəcəyini hiss edir. Buna görə də elə həyatını buradaca bitirmək qərarına gəlir. Bunun üçün pəncərəni açır və yuxarı mərtəbədən üzü aşağı baxır.

Nərmin son günlər canında müxtəlif ağrılar, narahatlıqlar hiss edirdi. Gedib analizlər vermişdi, yoxlamalardan keçmişdi, cavabını isə bu günlərdə bildirəcəkdilər. Amma bu cavablar daha ona lazım deyil. O, həyatını elə bu gün buradaca bitirmək qərarına gəlib. Pəncərədən özünü atmaq istəyindədir.

Amma maraqlıdır ki, pəncərəni açıb üzü aşağı yerə baxanda elə bil ki, Nihatı gördü. Nihat nəsə deyirdi, ancaq o başa düşmürdü. Elə bilirdi Nihat onu çağırır ki, gəl. Burada Nərminin düşüncələri yenə diqqəti cəlb edir. Tənhalığın mahiyyətini onun Nihadla, özü ilə dialoqunda daha aydın görmək mümkündür:

"-Nihatım, sən demə tənha qadınlar baxışından, yerişindən, duruşundan bilinirmişlər. Bütün fərqliliklərə rəğmən onları birləşdirən yeganə səbəb dərd imiş. Özlərini nə qədər şux tutsalar da alınmır. Bu sıraya qoşulandan sonra bunları bilmişəm əzizim. Amma Böyük Yaradan onların da yaşamaqlarına çıraq yandırıb. Tənha qadınlar xobəxt sonluğu olan ümidlərlə günlərini başa vururlar. Qapılarının nə vaxtsa döyüləcəyinə, qarşılarına namuslu birisinin çıxacağına, dərdini bölüşən, sevincinə, kədərinə şərik çıxa bilən kimsənin tapılacağına həmişə ümid edirlər. Bu yalançı ümidlər onların yaşamalarına vəsilə olur".

Çox ağır düşüncələrdir və hiss olunur ki, artıq Nərmin həyatını beləcə davam etmək fikrində deyil. Əlbəttə, həyatın sınaqları hamı üçün var. Gənc də, qoca da öz yaşlarına uyğun müxtəlif sınaqlarla qarşılaşa bilərlər. Kim bu sınaqlardan necə çıxacaq - bunu bilmək olmaz. Hətta yaşlı bir adam ömrünün son çağlarında həyat sınağından çıxa bilməyəndə ömrü boyu qazandıqlarının hamısını mənəvi çürüntü kimi havaya sovurmuş olur. Əslinə qalsa, Nərminin bu düşüncələri öz həyatının harmoniyasını, yəni sevgilisinə olan sədaqətini qorumaq naminə çırpıntılardır. O, Nihatın yanına onu sevən bir varlıq kimi getməkdən ötrü həyatına son vermək qərarına gəlir. O doğru deyir, belə yaşaya bilmir, heç belə yaşamaq fikrində də deyil.

Onu bu vəziyyətdən ancaq sonuncu addım xilas edə bilər. Nərmin pəncərəyə artıq ayağını qoymuşdu, üzü aşağı baxırdı. Amma ona elə gəlir ki, Nihat əliylə etiraz edir, dayan deyir.

Telefonunu çıxarıb göstərir ki, telefonuna bax. Nərmin onun nə dediyini tam başa düşmür, amma bu zaman öz telefonuna mesaj gəlir. Nihat isə aşağıdan barmağı ilə həmin mesaja baxmağı tələb edir. Nərmin pəncərədən yerə düşüb stolun üstündəki telefonun yanına qayıdır. Telefona gələn mesaja baxır. Xəstəxanadan onun analizlərinin cavabı gəlmişdi: "Siz üç aylıq hamiləsiniz". Nərmin bütün varlığı ilə sustalır və yerə çökür.

Yazıçı çox böyük ustalıqla hadisələri qanunauyğun axarla başa çatdırır. Sanki oxucuya tələsmək olmaz. Yazıçı bütün bunlarla nə demək istəyir? Zənnimizcə, yazıçı konkret olaraq məşhur Azərbaycan xalq məsəlini xatırlatmasa da, öz hekayəsini məhz həmin məsəlin ideyası əsasında qurub: Ölənlə ölmək olmaz. Həyat davam edir.

**Ümumiyyətlə, Q.Cəfərli bütün hekayələrində insanlara həyatın ölümdən daha üstün olduğunu təlqin edir. Bütün hallarda yaşamaq gözəldir-deyir.**

**Bakı 01-04.12.2023.**

# CAN SAĞLIĞININ SORAĞINDA



***Yusif Həsənbəy***
***Əməkdar İncəsənət xadimi***

**(HEKAYƏ)**

**(əvvəli ötən saylarımızda)**

Kardioloq Vəfa xanımla görüşməliydim. Anam, bacım olsun! Orta yaşlı, gözəl-göyçək xanım məni gülə-gülə qarşıladı. Təzə mələfə saldı çarpayıma, arxası üstə uzandım. Vəfa xanım topuqlarıma, biləklərimə, ürəyimin başına, həndəvərlərinə də qaz ayağına oxşayan şipilkalar sancdı. Cihaz uğuldadı. Gözlərimi pəncərəsindən çəkə bilmirdim. Lent üzərində çəpər çubuqları, -xətlər gah enib nazilir, gah da oxlar kimi yuxarı atılırdı. ”Vağsey, işim bitdi”. Bir parça buza döndü bədənim. - Nədi, ay həkim, orda infakt var? - soruşdum. O, gülümsədi. ”Ürəyim qan ağlayır. Amma həkimin vecinə deyil. -Əsəbləşməyin -dedi. -Yoxsa adrealiniz çoxalar, təzyiqiniz qalxar. O, cihaza zilləndi- Çox diqqətlə baxıram, amma ürəyinizdə çat görmürəm. Sevincək oldum. -Məni təzədən həyata qaytarmısınız, Vəfa xanım, xəcalətinizdən necə çıxa bilərəm? Çeşmək altındakı gözləri işıqlandı, kəsərləndi. - Qalxın! Söhbətimizi baş həkimin kabinetində davam etdirəcəyik!

Qapının kəndarında ”Baş həkim Xurşud” yazılı lövhəni oxudum. ”Halvaçı qızı daha şirin!”- dedim öz-özümə. İçəri girdik. Kabinetlərdə gördüyüm, həkimlər pıçha-pıçlarını kəsdilər. Uzun masanın yuxarı başında oturan orta yaşlı qadın ayağa qalxıb amiranə baxışlarla dəyirmi stol arxasındakı boş kreslonu göstərərək:

-Buyurun, əyləşin, şair müəllim- deyib gülümsündü. Baş həkim bilək yoğunluğunda qulaclarını boynunun ardında ”nevedimkalarla” sancaqlamışdı. Gicgahlarından asılan buruq-buruq, üzüm salxımı saçları qarabuğdayı sifətini şirinləşdirirdi.

-Əlimə qəzet, jurnal düşəndə sənin imzanı axtarırdım. Yerlimsən axı, qan çəkir də. Şeirlərindəki fikirlər təzəydi. Misralar şablon deyildi. Amma bir az rəndə istəyirdi. Həkimin böyük qara gözləri kəfkirli saatın gözləri kimi ora-bura qaçırdı. - Mən o şeirləri şıltaq uşağa bənzədirdim. Elə sizə görə də ədəbiyyata həvəsim artdı. Həkim -şair Abbas Səhhətin, sevgidən yarımayan Çexovun, Rafiq Yusiflinin, Paşa Qəlbinurun, Qalib Şəfahətin kitabları insanlara daha həssas yanaşmağı öyrətdi mənə - deyib, əlindəki yaylığın ucunu gözlərinə yaxınlaşdırdı. Üzüntünün səbəbi nədi? Bilmədim. Qadınların sirrindən kim baş tapıb ki?

Yerin altından, üstündən də xəbər verən Süleyman peyğəmbər üç sirri aça bilmədi. Zirvədəki qartalın sağı dərya, solu səhra, qabağı qalın meşəlik, arxası sıra dağlardı. Qartal hansı tərəfə uçacaq?! Peyğəmbər bu sirri aça bilmədi. İlan otluqda, palçıqda, qumluqda da iz qoyur. Amma daş üzərində izi qalmır ilanın. Peyğəmbər bu sirri də aça bilmədi. Açılmayan sirlərdən biri də qadın sirridi. Qadın ürəyini oxumaq mümkün deyil. Həkim kövrəlmişdi. ”İman bir yerə, güman min yerə”. Məsmə nənə yəqin ki, Xurşudla maraqlandığımı söyləyib nəvəsinə. Qızın gözləri önündə toy şamları yanıb, qulaqlarında ”Vağzalı” havası səslənib. Təbii, şirin bir ovqat Xurşudu fantastik bir aləmə qovuşdurub. Amma indi ər evində, qəriblikdədi! Məni görüb doğmaları, o füsünkar bağ-bağçalar düşüb yadına. Qadının sirrindən heç kim baş aça bilməz. Cansıxıcı sükutu mən pozdum. -O vaxt Bakıda Komsomol Komitəsində işləyirdim. Tibb institutunu kuratoruydum. Niyyətim sizi komsomol xəttiylə irəli çəkməkdi. Əvvəl bizim büronun üzvü, az sonra Bakı Komitəsinin təlimçisi görməkdi arzum. Xurşud xanım üzümə gülə-gülə - Çox sağ olsun qayğıya, diqqətə görə - deyib, başıyla razılığını bildirdi. -Gördülər, irəli də çəkdilər. Sahibim məni ”Çinar”ın baş həkimi qoydurdu - deyib sağ yanında büzüşüb oturan can həkimi Gülşənə tərəf çevrildi.- Ay Gülşən, hörmətli qonağımız bütün şöbələrdən keçib. Həkimlərin rəyni bilirəm. Bəlkə ”UZİ” həkiminin qərarıyla bizi tanış eləyəsən?

-UZİ həkimi Seyran xanım yazır ki, hörmətli qonaq yaşına görə çox yaxşı qalıb. Vaxtilə böyrəyində bir kista olub, indi kristallaşıb. Yüz illərlə ağrısız, sakit yaşaya bilər qonağımız. Qara ciyəri əllənmir. Öd kisəsi yumşaq, həm də hamardır. Mədəaltı vəzninin funksiyası əladır. Prostatda şişmələr yoxdur. Can həkimi tez-tez yaylığını ağzına aparırdı. Gülməyini nə qədər boğsa da, saxlaya bilmədi. Axırda tapança kimi açıldı.

- Baş həkim çəp-çəp baxdı müavininə. - Nədi? Nolub? Nəyə gülürsən? Xurşud əl atıb Gülşənin ağzından yaylığı götürdü.

-Ay Xurşud xanım, bu qonaq deyir ki, o böyük səma xəstə bakteriyalarla, hüceyrələrlə dolu bir yorğandı. Biz də o yorğanı çəkmişik üstümüzə. Xurşud xanım qaş-qabaq salladı. -Sən elə indi eşidirsən bu söhbəti? Dünya alimləri bu məsələylə məşğuldu. İnstitutun axırıncı kursunda məşhur bioloq Mirəli müəllim bu məsələylə bağlı bizə mühazirələr oxudu, öz hipotezaların, yeni fərziyələrini söylədi. Gözlərini pəncələrinə zilləyən can həkimi başını qaldırdı. -Qonaq deyir ki, ordakı bakteriyalardan bir neçəsi düşüb büzdünümlə ombamın arasına. İndi sümüklərimi didir o bakteriyalar.

Deməli, hörmətli qonaq Mirəli müəllimin versiyalarını, gümanlarını, fərziyyələrini həqiqət kimi qəbul eləyir. Həm də qonaq, şair diliylə onu narahat eləyən mərkəzin yerini göstərir. Büzdümüylə omba sümüyün arasındadı o mərkəz. Bəs rentgen şəklini gözdən keçirmisənmi, ay Gülşən?

-Bəli! Çox diqqətlə. O nahiyələrdə heç bir bakteriya, hüceyrə görmədim.

-Belə çıxır ki, qonağı incidən oynaqlararası Artritdir. Sən nə məsləhət görürsən, ay Gülşən xanım? Ancaq müalicəni gecikdirmək olmaz.

-Naftalizlə aplekasiya eləyək. Zədəli yerlərə o məlhəmi çəkib üstünü klyonkayla bağlayardım. Oturardım yanında lap bir sutka. Özümü saxlaya bilmədim. -Bəli! O məlhəmi çəkibdilər. Amma iki həftədın sonra ağrılar yenə gücləndi. Kəndimizə gedib Əbil dayının həyətində ot da çalmışam, bir-iki araba odun da doğramışam. Amma noolsun? Bir aydan sonra ağrılar yenə şiddətləndi.

-Səidə xanım fizioterapiya şöbəsinin müdiridi - pıçıldadı Gülşən. - Təcrübəli, savadlı həkimdir. Bəlkə o, təzə yanaşmalara əl atsın. Güclü pereparatlardan istifadə eləsin. Başını çiyninə qoyub oturan Səidə xanımın yanaqları qızardı. Can həkiminin tərifi onu utandırmışdı. Gənclik ehtiraslı, şövqlü gözləri Benqal şimşəkləri kimi çılğamlanırdı. Yerindən qalxıb nəm-nüm eləmədi, birbaşa mətləbə keçdi.

-Deyirəm, bəlkə o fizioterapiya müalicələrini ləğv eləyək? Elektrik cəryanı yeritməyək orqanizmlərə. Sağlam hüceyrələri də zədələməyək!

Biz zədəli nahiyələrə fiziki yollarla novakain yeridirik. Novakainin tərkibindəki spirt toxumaları keyləşdirir, amma sağaltmır. Bu saat dünya qlobal istilərlə mübarizədədi. Mədət kişi zambaqlarla havanı hər cür çöküntülərdən, qazlardan təmizləyir. Çox güman ki, ”Ozon qatı”nı bürüyən zəhərli qatlar da əriyir bizim zambaqların oksigeniylə. Amma biz həb atdırır, kimyəvi iynələr vururuq xəstələrə. Səhvə yol veririk. O iynələrin, həblərin çöküntüləri, şlaqları da, qan damarlarının ”Ozon qatını” darmadağın eləyir. Qan dövranı pozulur, xəstəlik ağırlaşır.

Xurşud xanım əlini çənəsinə qoyub fikrə getdi. Balacalaşdı, fağırlaşdı. -Heç nə bilmirəm! Ancaq onu bilirəm ki, hörmətli qonağı sağaltmalıyıq. Belə qərara gəldim ki, oynaqlardakı Artrit naftaliz aplikasiyası, ot çalmaq, odun dorğamaq hərəkətləriylə müəyyən qədər ərimişdir. Amma ağrılar tam götürülməyib. Deməli oynaqlararası Artritə bir də əl gəzdirməliyik. Biz nədənsə əzələ faktoruna fikir vermirik. Hörmətli qonağı incidən Miozit mərəzidir. Duzlaşma qonağın baldır, bel, kürəklərarası əzələlərini, boyun əzələlərini də iflic etmişdir. Biz həm də Miozitdən qurtarmalıyıq hörmətli qonağı! Yadıma gəlir ki, savadsız Məsmə nənəm çoxşaxəli alma ağacına bağlayırdı, yanına İlkiqat gələn xəstələri. Sonra ipləri açırdı. Xəstə ”Lezginka” oynaya-oynaya çıxırdı darvazadan. Mən ”meşə terapiyasını” məsləhət görürəm - dedi Xurşud xanım. -Bu terapiyadan sonra hərtərəfli masaj olunmalıdı qonaq. Özü də Kolistar, Nizorello mazlarıyla yox, bizim naftalan məlhəmiylə. Üzümə mehribanlıqla baxıb - Çox asanlıqla öhdəsindən gələcəyik o əzəzlə duzlaşmasının -deyə gülümsədi Xurşud xanım.

Yüz yetmişdən çox mərəzin müalicəsini tezləşdirən Naftalan nefti dünyanın səkkizinci möcüzəsidir. Möcüzə deyilmi bəs? Üç gün öncə dəhlizdə divarları tuta-tuta irəlləyən, sarıyanız qadını indi dümdüz oxlov kimi görəndə, gözlərimə inanmadım. Dikdabanlarını taqıldada-taqıldada, az qala oynaya-oynaya yanımdan keçirdi. Əl atıb biləyindən tutdum. ”Qayıdıb çəmkirəcək, biyabır olacam el içində” dedim özüm-özümə. Ancaq xanım altdan-altdan gülümsəyirdi. -Hə, bax buna varam! Əsl kişi jesti gördüm sizdə. Tünd, kəskin Qafqaz xarakteri! -Nə istəyirsiniz, cavan oğlan?

-Bağışlayın, sırtıq-naxal deyiləm mən! İki gün əvvəl dəhlizdə ölə-ölə yeriyirdiniz. Buranın həkimləri allahdı bəyəm? İynə, dərman hünəri deyil bu!

- Tomsk şəhərindən gəlmişəm. Soyuqlar kı başladı belim sancır, boynum şişir. Sankt-Peterburqda kimyəvi perapratlar nəticə vermədi. Moskvanın ”Burdienko” hospitalında ”Naftaliz” məlhəmini iki kürəyimin arasına yeridib, üstümü qalın yorğanlarla basdırdılar. -Nolsun? İki həftədən sonra yenə ikiqat oldum. Amma burda can həkimi Gülşəncik məni apardı baş həkimin yanına. Dedi ki, kimyəvi peraparatlar, fiziotrapeya da bu xanıma kömək eləməyib. Neyləyək? Baş həkim rentgen şəkillərinə baxandan sonra:

- Mütləq xalq təbabəti -dedi. - Xurşud xanım - Fındıq ağacının budaqlarına bağlayırıq qollarını. -Ay Gülşən, nənəm savadsızdı. Amma onurğa, kürək, bel ağrısını sağaldırdı. Armud ağacının budaqlarına bağlayırdı xəstənin qollarını. Sonra üzünü mənə tutdu. - Siz də qalxın ayağa! Düşün qabağıma- dedi. Zambaq talasını keçib, meşəyə girdik! Qlavrac fındıq ağacının iki yan budağını bir-birinə yaxınlaşdırıb, uclarını kəndirlə düyünlədi. Gülşən qollarımı yuxarı qaldırdı. Qlavrac sağ qolumu bir budağa, sol qolumu o biri budağa bağladı. Mən də qorxdum. Axı, İsus Xristos kimi çarmıxa çəkilmişəm. Qlavrac, -Ay Gülşən, - bağırdı birdən. -Niyə çaşıb qalmısan? Qayçını götür. Budaqların ucunu birləşdirən kəndiri kəs yavaş-yavaş. Gülşən çətinlik çəkmədi. Baş həkimin əlindəki budaqlar zərif-zərif yanlara açılırdı. Mən boynumun ortasında, kürəklərimin arasında, onurğamda da, şirin qaşıntılar duyurdum. Bel tirəmdəki ağrılar da get-gedə yoxa çıxırdı. Qlavvaraç qolumdakı ipləri kəsdi. Budaqlar yanlara çırpıldı. Sonra biz Gülşən xanımın kabinetinə gəldik. Səidə həkim bədənimi naftalanla ovuşdurdu.Gülçən xanım tumbuçkanın üstündəki həb, iynə qutularını, dərman butulkalarını da zibil səbətinə tulladı. Məni həyata qaytardılar. Yazıq-yazıq üzümə baxdı qadın. -Hər dəfə mən inildəyəndə ərim başımın üstünü kəsdirib deyirdi - Sənin bu zarımaqların mənim müsbət emosiyalarımı, həyat həvəsimi, kişilik şövqümü öldürür. Axırda məni atdı o əclaf. ”Çinarın” həkimləri məni sağaldır. Bu münasibətlə sizi palatamda bir bokal şampana dəvət eləyirəm. Çaxır soyuducudadır. Şokaladı, marojnanı da bardan gətirdərəm.

-Mənmuniyyətlə- dedim. -Sizin belə kampanyon olmağınız ürəyimcədir. Amma, məni də iki saatdan sonra ”meşə terapiyası” gözləyir. Allah qoysa, nəticəsi yaxşı olar! Biz sizinlə palatamızda şampanları bruderşaftla içib, unudulmaz anlar yaşayarıq- dedim.

”Çinarın” qənşəriylə uzanan yol yoxuşa dirənirdi. Avtomobillər fısıldayıb, nəfəs dərəndə quluşitellərin ağzından çıxan zəhərli qazlar topa-topa, özü də ”parta-partla”, bomba partlayışlarıyla atılırdı havaya. Tüstü zolaqları ilan kimi qıvrılır, qanadı qırılmış leylək kimi çabalayırdılar. Külək asfalt yolda ağ cuna kimi titrəyən mazut buxarlarını da süpürüb göyə qaldırır, ”Çinarın” həyətinə yönəldirdi. Bu zaman yollar, cığırlar, keçidlər uzunu sıralanan zambaqlar şeypur başlarını dik qaldırır, zambaqlar öz oksigen kristallarıyla qazlı, zəhərli, tüstü zolaqlarını zərərləşdirirdilər. Bəşəri qələbə o idi ki, zambaqlar ” Ozon qatının” dəyirmanına axıdılan qazların, tüstülərin, zəhərli birləşmələrin qabağını alırdı. Yaxın qonşulardan, uzaq qohumlardan, bir sözlə firavan yaşamaq istəyən isanlardan bir xahişim var. Zambaq əksinlər!

**Naftalan, Nabran Aprel-Oktyabr 2013**

## *Ev pişiklərinin sahiblərinin sağlamlığına faydalı təsir göstərə biləcəyi məlum oldu*

**ABŞ-nin Minnesota Universitetinin alimləri müəyyən ediblər ki, pişik sahibləri daha az stressə məruz qalırlar. Onlarda infarkt və digər ürək və damar xəstəlikləri riski daha az olur.**

Tədqiqatın nəticələri ”Journal of Vascular and Interventional Neurology” jurnalında dərc olunub.

Tədqiqatçılar müəyyən ediblər ki, pişiklər bir çox səbəbə görə sahiblərinin sağlamlığına fayda verə bilər. Araşdırmada iştirak edən pişik sahiblərinin müşahidəsi nəticəsində məlum olub ki, pişiklərlə ünsiyyət stressi aradan qaldırmağa kömək edir. Bu, insult kimi ürək-damar xəstəliklərinin inkişaf riskinin azalması ilə birbaşa bağlıdır.

Ev heyvanı ilə oynamaq və onu sığallamaq həm də yaxşı əhval-ruhiyyəyə görə cavabdeh olan serotonin hormonunun ifrazını stimullaşdırır. Bundan əlavə, təmiz havada heyvanla gəzmək, sahiblərinin gündəlik fiziki aktivlik səviyyəsini artırır, sağlamlığına və dözümlülüyünə müsbət təsir göstərir.

## *Rişi Sunak III Çarlzın xəstəliyindən danışdı*



**Böyük Britaniya Baş naziri Rişi Sunak kral III Çarlza xərçəng diaqonuzunun qoyulmasına münasibət bildirib.**

Adalet.az BBC-yə istinadən xəbər verir ki, Sunak hadisədən şok olduğunu və kədərləndiyini deyib. O, xəstəliyin vaxtında müəyyən edilməsinə görə şükr etdiyini və krala tezliklə sağalmasını arzuladığını deyib.

Baş nazir kralla müntəzəm ünsiyyətinin davam etdiyini vurğulayıb.

Qeyd edək ki, 75 yaşlı kral III Çarlza ötən gün xərçəng diaqonuz qoyulub. Onun prostat xərçəngi olmadığı bildirilib. Bununla belə saray kralın dəqiq diaqonuzunu açıqlamayıb. Monarxın səhhətindəki vəziyyətlə əlaqədar ictimai vəzifələrini təxirə saldığını, lakin dövlət vəzifələrini davam etdirəcəyi, Baş nazir Sunakla həftəlik görüşlər keçirəcəyi qeyd edilib.

Prins Harrinin atası ilə danışdığı və ABŞ-dan Böyük Britanyiyaya səfər edəcəyi bildirilir. Xəstəxanadan buraxılan kral gecəni evində keçirib.



# İnsanı həm uğura və həm də uğursuzluğa aparan NƏFS

***Zakir Bayramlı,***
***Şair-publisist, AYB və AJB-nin üzvü***

**Bu gün dünyada yaşayan çox insanlar düçar olduqları müxtəlif cür dərdbəladan, xəstəlik və pis vərdişlərdən olmazın əziyyət çəkirlər. Onların arasında ağılı və dünya görüşünün zəifliyi ucbatından öz nəfsinin israfçılıq və ifratçılıq həddini aşaraq onun quluna çevirilən bəzi insanlar da vardır. Bu adamlar tamah zənciri ilə özlərini bərk-bərk cilovlayan, dərin acgözlük quyusuna düşərək oradan omrünün sonuna kimi çıxa bilməyən şəxslərdir.Real həyatda nəfsin onlar üçün qurduğu tələdən tam qurtularaq azadlığa çıxıb rahat nəfəs almaq şansı hələlik yer üzündə heç bir nadan insana qismət olmamışdır.**

Bəşər tarixi yaranan gündən, neçə-neçə min illərdir ki, dahilər, mütəfəkkirlər, filosof-alimlər, şairlər və b. sənət adamları nəfs adlı anlayışa müxtəlif təriflər vermişlər.

Nəfs- ehtiras, şiddətli istək, öz şəxsi hisslərinin əsiri olmaq, meyil, tamah, daxili ehtiyac, şəhvanı hiss, yeyib-içmək kimi tələbata hədsiz həvəs, güclü maraq və s. mənalarda işlədilir. Atalar bəzi tamahkar adamlar üçün: ”Nəfsi qılıncdan da itidir”-demişlər. Ona görə də nəfsi öldürmək, hər dəfə onun istədiyini yerinə yetirməmək adamdan böyük hünər, səbr, dözüm və möhkəm iradə tələb edir. Bəzən isə vəziyyət elə gətirir ki, nadan və dayaz insan özünətərbiyəni, özünənəzarəti və özünüidarəetməni tamam itirərək öz nəfsinin əlində əsl oyuncağa çevirilir. Öz milli, mənəvi-əxlaqi dəyərlərini aşağılayır, mənəviyyatını və şəxsiyyətini alçaldır, hörmət və nüfuzunu ayaqlar altına atır. Belə hallara yol verməmək üçün tez-tez nəfsə göz qoymaq, ona ciddi nəzarət etmək, tərbiyələndirmək vacibdir. Lazım gəldikdə nəfsin başını çəkmək, onu möhkəm cilovlamaq, onu şər iş, hərəkət və əməllərdən qorumaq gərəkdir. Bir sözlə, öz nəfsinə sahib çıxmaq, ona hakim olmaq hamının borcudur. Müdriklərin belə bir məşhur aforizmi var: ”Nəfsinə qalib gələn, ifrat dərəcəli arzu və istəyini, eləcə də hədsiz qəzəbini, çağlayan kin-ədavətini tələb olunan məqamda boğmağı bacaran şəxs, həyatda çox ağıllı və xoşbəxt insandır”.

Nəfsdə insanı mənəvi cəhətdən yüksəldən bir sıra müsbət əxlaqi keyfiyyətlər vardır.İnsanın nəfsi həm yaxşı, həm də pis tərəfə meyl edə bilər. Nəfs elə bir qüdrət sahibidir ki, o insana yaxşı və ya pis işlər görməyi əmr edir. Nəfs həmçinin insana zərər vura biləcək mənfi fikirləri də ağıla gətirir. Bu zaman insanın borcu ağıldakı və nəfisdəki mənfi fikirləri təmizləyərək öz nəfsini tərbiyələndirməkdən ibarətdir.

Nəfsi gözəl əməllərlə bəzəmək üçün onu tərbiyələndirmək çox vacib işdir. Məsələn, azğın və xam at təlim görməsə, yəni əhliləşdirilməsə istənilən vaxt sahibini yıxıb yerlə sürüyər, nəticədə onun sağlamlığına ciddi zərər vura bilər. Bunun üçün at əhliləşdirilərək ram edilərsə, , cilovlanarsa o sakit olar və sahibini heç vaxt yıxmaz. Həmçinin sahibini darda və təhlükədə də qoymaz. Bax, nəfs də çılqın at kimidir. O tərbiyələndirilməli, həm də fəaliyyəti nəzarət altına alınmalı və islah olunmalıdır. Çünki atın cilovunu buraxmaq bədbəxt hadisəyə səbəb olduğu kimi nəfsin də cilovunu heç vaxt boş tutmaq və ya özbaşına nəzarətsiz buraxmaq olmaz. Nəfsin tərbiyəsi üçün ən əsas sağlam düşüncə və möhkəm iradə lazımdır.Təmiz ürəyə sahib olan insanları, xüsusən gəncləri mətinləşdirən, cəsur və qorxmaz edən, onların tez-tez çətin və mürəkkəb situasiyalarla qarşılaşmalarıdır. Bu çətin məqamlarda insanları büdrəməyə,yıxılmağa qoymayan, yollarını azmağa imkan verməyən isə həmin insanların ağılı, möhkəm iradəsi və nəfsidir.Əfsuslar olsun ki, insanın nəfsi bəzən ona pis işlər, zərərli hərəkətlər və bəd əməllər yerinə yetirməyə də məcbur edir. Nəfsdə, şəhvani arzu və istək, qəzəb, inədkarlıq, kin, nifrət hissləri birləşdikdə elə bir güc, qüdrət və hikmət yaranır ki, o, insanın bütün duyğularını özünə tabe etdirməyi bacarır. Nəfsi özbaşına,nəzarətsiz buraxmaq olmaz. Ancaq onu insaflı olmağa, xeyirxahlığa,yaxşı əməllər görməyə yönəltmək mümkündür. Nəfsin tərbiyəsi olduqca çətin və məsuliyyətli, lakin törətdiyi cinayətlərin və bəd əməllərin say-hesabı və sərhədi yoxdur. Bəşərin əşrəfi insan hikmət və mərhəmət sahibi olmaq üçün öz nəfsinə hakim olmalı, onu xeyirxah iş, hərəkət və əməllərə çevirməlidir.

Dində göstərilir ki, nəfs hər bir şərin sığınacağı, hər bir pisliyin dostudur.İslam dininə görə nəfsin 7 mərtəbəsi vardır. Bunlara əmr edən nəfs, qınayan nəfs, ilham və kəşfə yol açan nəfs, rahatlığa,aramlığa qovuşan nəfs. razı olan nəfs, başqasının ondan razı qaldığı nəfs, və kamilləşən nəfsi göstərmək olar. İslam təsəvvüründə nəfs sözü ruh, ağıl, bədən, qəlb və s. mənalarda işlədilir. Hiss, həyatvermə qabiliyyəti ilə yanaşı nəfs insanlara şər əməllərin yerinə yetirilməsini əmr edən bir qüvvə kimi də izah olunur. Və Allah tərəfindən insanın bədəninə üfürülən ilahi ”mən” kimi də təsəvvür edilir. İnsan beyni nəfsi istək və arzuları oyatdığı, coşdurduğu və alovlandırdığı kimi onları boğmağa, cilovlamağa və öldürməyə də qadirdir. Hər bir şəxs nəfsin və tamahın təhlükəli olduğunu hiss etməli, onun insan üçün böyük tələ olduğunu başa düşməlidir. Ağıl və nəfs beynimizdə, qəlb isə ürəyimizdədir. İnsandan acığı gələn Şeytan isə həmişə cidd-cəhdlə nəfsə təsir edir ki, onun köməyi ilə insana çoxlu sayda zərər vursun.

Nəfs haqqında Nəsirəddin Tusi və İbn Sinanın dəyərli fikirləri vardır. Onlar nəfsi 2 qrupa böllərək şərh edirlər.Birinci qrupa,yəni, heyvanı nəfsə yuxunu, yemək-içməyi, cinsi həvəsi, istəyi və b. aid edirlər. İkinci qrupa, yəni, insani nəfsə isə mehribançılığı, səmimiyyəti, xeyirxahlığı, qayğı və yardım göstərilməsini və s. aid edirlər. Onların fikirincə heyvanlarda heyvani nəfs, bitkilərdə nəbati nəfs, mövcuddur. İnsanlarda isə həm heyvani, həm də insani nəfslər bir yerdə cəmləşmişdir.

Nəfs haqqında Sokratın belə bir kəlamı var: ”Nəfsə hakimlik, böyük bir ölkəyə hakimlik qədər çətin və vacibdir”.

Alim və filosof İbn Sinaya görə nəfs cisim və ağıl arasında qərar tutub. O, cisimlərin varlığını mümkün, Allahın varlığını isə vacib hesab edirdi. Və bildirirdi ki, ruh və nəfs kimi varlıqlar Allahın varlığından güc-qüvvət alır. Alim-filosof qeyd edirdi ki, hisslərin köməyilə əldə olunan ləzzətlər xəyalıdır. O, ağılın gücü-qüvvəsi ilə əldə edilən gerçək ləzzətləri məqbul sayırdı. İbn Sina yazırdı ki, ruhu və bədəni sağlam olan insan Allahın ona bəxş etdiyi ağılın gücü ilə yaxşını pisdən, doğrunu yalandan ayırmağı bacarmalıdır. Başqalarının nümunəvi, yaxşı və gözəl hərəkəti və vərdişlərini özü üçün əxlaqi keyfiyyət kimi qəbul etməli, heç vaxt düz yolunu azmamalıdır. Azərbaycanın enciklopedik alimi Nəsirəddin Tusinin isə əxlaqi dəyərlərimiz haqqında söylədiyi gözəl hikmətli sözlər çoxdur. O, nəfs haqqında düşüncələrini belə açıqlayırdı: ” Hər kəs nəfsini sevdiyindən öz eyblərini görə bilməz, bu eybin əlamətləri aşkar olunduqda da onu dərk edə bilməz”. Azərbaycan şairi Xaqani Şirvani isə nəfs barədə belə fikir söyləmişdir: ”Tamah zəncirini ancaq sağlam ağıl qıra bilər”, ”Tamahını azalt, hörmətin artsın”. Mövlanə Cəmaləddin Rumi isə belə demişdir: ”Nəfs üçküncIü bir tikandır, nə vəziyyətdə qoyursan qoy, yenə sənə batacaqdır”. İslam dinində hədslərin birində deyilir ki, nəfsinizə uyub haram yeməyin, qəlblər sındırmayın. Ona görə ki, bir bəndənin qəlbini sındırmaq, Kəbəni yetmiş dəfə qağıtmaq qədər günahdır. Bir aforizmdə isə nəfslə bağlı belə bir ifadə işlədilib: ”Gözü toxa ağızındakı yetər, acgözə dünya yetməz”.

İnsan nəfsi özünə həm dost, həm də düşmən hesab edə bilər. Nəfs əvvəlcə sanki insanın ağılını yuxuya verib gözlərini bərk-bərk bağlayır. Ağıldan və iradədən zəif, insan bu zaman gözübağlı vəziyyətdə kor-koranə nəfsin ardınca düşərək səssiz-səmirsiz, sakit halda nəfsin ona əmr etdiyi, pis və təhlükəli əməlləri icra edir. Nəticədə isə o, öz nəfsinin qurbanına çevirilir.

Nəfsin cansağlığına və uzunömürlülüyə müsbət və mənfi təsirləri böyükdür. Əvvəlcə biz bunu nəfsə müsbət təsir göstərən xeyirxahlıq əxlaqi keyfiyyətinin timsalında yığcam şəkildə izah edək. Azərbaycan maarifçilik tarixində xüsusi dəst-xətti olan Bakı milyonçusu, bir çox xeyriyyəçilik tədbirlərinin təşəbbüskarı və iştirakçısı Hacı Zeynalabdin Tağıyevin maarifpərvər işləri o qədər çoxdur ki, onların hamısı haqqında yazmaq bir kitaba sığmaz. Mən təkcə onun Bakıda qızlar məktəbini hansı çətinliklərlə açması barədə qısa söhbət açacağam. Z. Tağıyev öz şəxsi təşəbbüsü və maliyyə vəsaiti ilə Bakıda qızlar məktəbi açmaq istəyirdi. Lakin ölkə daxilindəki yerli ruhanilər ona mane olurdu.Onlar müsəlman qız uşaqları üçün dünyəvi məktəbin açılmamasından ötrü təbliğat işləri apararaq camaatı Hacıya qarşı mübarizəyə qaldırırdılar.Hətta tapancalı-xəncərli lotular da onu ölümlə hədələsələr də xalq hamılıqla H.Z.Tağıyevi müdafiə edirdi. O, həmin məktəbin açılmasından ötrü rus çarından və müqqəddəs müsəlman dini ocaqlarından rəsmi icazələr almaq və tikinti işləri üçün üçün düz 6 il böyük əziyyətə qatlaşmış, olmazın təqiblərlə , hədə-qorxu ilə üzləşmişdi. Ancaq mübarizəni bir gün də olsun dayandırmamışdı. Həhayət,122 il bundan əvvəl, yəni 1901-ci ildə Bakıda, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi fəaliyyətə başladı. Bax,bu epizod nəfsin müsbət xüsusiyyətlərinə canlı nümunədir.

Həddini aşmayaraq nəfsini qorumağı bacaran, tamahına nəzarət edən, daim insafı gözləyən, hər gün yeni bir xeyirxahlıq etməyə çalışan insanlar, xüsusilə gənclər nəfsi özlərinin əsl dostu, yaxın sirdaşı hesab edirlər.Çünki onlar özünüidarə və nəfsitənzimləmə qaydalarına düzgün əməl etdiklərinə görə heç vaxt onlara nıəfsdən ziyan gəlmir.

Nəfsinə sahib çıxmayan insanlar üçün isə nəfs həmişə qorxulu düşməndir. Məsələn,bütün zərərli vərdişlər, tamahkarlıq, qarınqululuq,şorgözlük, tütünə,spirtli içkilərə, narkotik vasitələrə və psixotrop maddələrə aludəçilik, qumar oyunu və b. hamısı nəfsin mənfi istiqamətə yönəldilməsi nəticəsində baş verir. Xırda xuliqanlıq, dələduzluq, oğurluq, soyğunçuluq, insan alveri,narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olmaq, koorupsiya, dövlətin və vətəndaşların əmlakının mənimsənilməsi, tamah üzündən dövlət, ordu və idarə sirrini satma və s. cinayət əməllərinin hamı nəfs, tamahkarlıq və acığözlüklə əlaqədardır.

**İnsanda ağıl həmişə nəfsi istiqamətləndirən kompas rolunu oynayır.Gəlin, bu kompasın həmişə düz işləməsini təmin edək, onu xarab olmağa qoymayaq.**

***İBRAHİM YUSİFOĞLU***



## *BÜTÜN İSTƏYİNƏ ÇATIB NAXÇIVAN*

*Bu gün Yer kürəsi öz məhvərində,*
*Ulu bir diyarla öyünür hər an.*
*Dünyanm döyünən düz ürəyində,*
*Özünə yer tutub, durur Naxçıvan.*

*Tanrıdan pay gələn sərvət-varı var,*
*Tükənməz qoynunda gövhəri-zəri*
*Boyca kiçik olan müqəddəs torpaq,*
*Bəxş edib cahana böyük Heydəri.*

*Elə o dühayla ən ağır anda,*
*Zamanla üz-üzə durdu Naxçıvan.*
*O Ulu Öndərin qayğılarıyla,*
*Yeni günlərini qurdu Naxçıvan!*

*Qəlblər ovsunlayır torpağı, daşı,*
*Şəfəqə bələnir doğulanda dan.*
*Çox qədim olsa da, tarixdə yaşı,*
*Gənclik libasını geyib Naxçıvan!*

*Şərqin qapısıdı, Nuhun yurdudu,*
*Nəsillər yaşayır ”Gəmiqaya”da.*
*Məğrur ”Əlincə”di, qalib ordudu,*
*Sədərək sınmadı düşmənə, yada.*

*Mənim Naxçıvanım Odlar Yurdunun,*
*Qeyrət qalasıdı, ər balasıdı.*
*Günəş qürub çağı büsbütün onun*
*Çöhrəsi Şahbuzun dağ lalasıdı.*

*Bol nemət yetirən varlı elləri,*
*Kəhraba üzümlü, heyva, narlıdı.*
*Sevinc təknəsidi gələn illəri,*
*Ordubad bəhrəli, Şərur barlıdı.*

*Qoynunda çağlayan ”Qızlar bulağı”,*
*Sevən ürəklərə məhəbbət ələr.*
*”Sirab”, ”Badamlı”tək əvəzsiz varı*
*Çoxları dərdinin dərmanı bilər.*

*Memar Əcəminin gənc nəvələri,*
*Tikirlər, qururlar, gözəlləşibdi.*
*Müstəqil günündən ta üzü bəri,*
*Gözəl məmləkətə bərabər -- birdi.*

*Ay kimi nur saçar, ulduztək yanar,*
*Çiçək dənizidi qoynunda hər yan.*
*Onu hər kim görsə bəxtəvər sanar,*
*Bütün istəyinə çatıb Naxçıvan.*

## *ŞƏRURUN*

*Dədə Qorqud gəzən Oğuz elimdi.*
*Uludu torpağı, daşı Şərurun.*
*Dili Türkün dili_ ana dilimdi,*
*Qədimdən _ qədimdi yaşı Şərurun.*

*Burda arxalanıb dağlara dağlar,*
*Dərın dərələrdə çayları çağlar.*
*Torpağı göynəsə göyləri ağlar,*
*Arpaçay sayılır qaşı Şərurun.*

*Tanrı özü bilən dərd göndəribdi,*
*Neçə fəlakəti sərt göndəribdi,*
*Nanərdin önünə mərd göndəribdi,*
*Bəlalar çəkibdi başı Şərurun.*

*Ürək ovsunludu baharı, yayı,*
*Mavi səmasında Ulduzu, Ayı.*
*Yoxsa da sərvətdə payızın tayı,*
*Zərgər naxışlıdı qışı Şərurun.*

*Gəzdikgə görərsən barlı düzləri.*
*Zəhmətlə nurlanan gülər üzləri.*
*Tanrı yaradandan ta üzü bəri,*
*Yeyilir ellərdə aşı Şərurun.*

*Yeraltı, yerüstü varı tükənməz,*
*Zirvədən qartalı , qarı tükənməz ,*
*Çiçəyin üstündən arı tükənməz ,*
*Ətrindən tanınır balı Şərurun.*

*Min büsat qurulur hər bucağnda,*
*Güllər ətir saçır tər qucağnda,*
*Ömrünün gəncləşən səhər cağında,*
*Qəlblər ovsunlayır halı Şərurun,*

*Dədə Qorqud gəzən Oğuz elidi,*
*Dili ana dili _ türkün dilidi.*
*Məğrur Naxçıvanın durna telidi,*
*Qədimdi, uludu yaşı Şərurun.*




# BAYAT

№ 3 (863)




# Əlisəmid Kür - 70



## DƏNSİZ DƏYİRMAN DAŞLARI

Fırlanır dəyirman daşı
Baxıram, başım fırlanır.
Fırlanır dünya başıma
Torpağım, daşım fırlanır.
Saçı-saqqalı ağarmış
Sığal çəkmə alt daşına, üst daşına.
Un ələnmir üst-başına.
Dənsiz dəyirman daşları qəm ələyir,
Dərd üyüdür ömrün qışına.
Bu çərxi-dövran daşları
Dəyir, bir-birinə dəyir.
Dənsiz dəyirman daşları
Yeyir, bir-birini yeyir.
Acıdı dəyirman daşları
Dən gözləyir əvvəl-axır.
Tanrı dinmir,Tanrı susub
Çörəyimiz daşdan çıxır.

## ATAMIN AYAQLARI

Hara getdim dara düşdüm
Atamın ayaqları süründü arxamca
İndi
Atamın ayaqları Sibirdi
Özü kimi ayaqları da yuxusuz...
Üz sürtdüm ayaqlarına,
Qəlpə giziltisindən
Diksindi qulaqlarım.
Çəliyi ayaqlarına başdaşı Atam!
Səcdənə gəldim,
Ayaqlarını suya qoy,
Dirilik suyu kimi ayağının suyunu içim
Atam oy!
Əlimdən nə gəlir daha
Ayaqlarımı verim, yeri, Atam!
Laylay atam, ayaqlarına laylay!
Ayaqları yuxusuz, əlləri oyaq,
ürəyi dipdiri Pir Atam!

## ALO, MƏN SƏNİ GÖRÜRƏM

Yuxarı mərtəbədən gələn mahnı
Ürəyimi göynədən vaxtda
əllərim qoynumda
uzanmışam çarpayıda.
Tavandan,divarlardan
Kədərli üzlər,
Dilxor maskalar asılır
Səni düşündükcə, qızım!
Hər oxunan nəğmə
Bir doğma anı yada salar,
Hər tanış səs bir doğma üzü
Canlandırar gözlərimizdə...
Telefon zəngi.
-Alo, Bakıyla danışın.
-Al-lo! Qızım, sənsənmi?!
-...
-Al-lo!
...2400 kilometrlik həsrətin içində
Qatar keçdi deyəsən.
Bir zahı bulud
Silkələdi telefon xətlərini.
Yüz saniyəlik sükutun arxasına
Sığdı bir insan ömrü.
-Alo! Alo!!
-A-ta! A-ta!
...Üzün yadımdan çıxır,
İlğım axır dalğa-dalğa
Yaddaşımın dörd olmuş gözündən.
Yuxu da yalanmış, fotoşəkil də yalan...
-Alo! Alo!
-Ata, məni eşidirsən?
-Al-lo, mən səni görürəm, qızım...

## UZUN AYRILIQDAN SONRA

Uzun ayrılıqdan sonra dönəndə Vətənə
Kimi qucaqlasam birinci,
Qarşıma çıxanların heç biri inciməz.
Bir dost yazmışdı mənə:
”Sən qəribsən, biz-yol gözləyən.”
Məni qarşılayanların
Heç biri inciməz, anam,
Səni qucaqlasam hamıdan əvvəl.
Uzun ayrılıqdan sonra
Yenidən sevmək
Yenidən doğulmaq kimi gəlir insana,
İzn ver oğluna yenidən doğulmağa,
Aç qoynunu, ana!
Qol-boyun gördükcə bizi
Dostlar da başlayar
Bir-birini qucaqlamağa.

## QAN-TƏR İÇİNDƏ

Əqrəbləri itmiş saat kimiyəm,
Vaxt ölür, çökür içimdə.
Cin çapmış at kimiyəm,
Qan-tər içindəyəm, anam,
Qan-tər içində.
Zaman dolaşıq nər qovğasında
Şeytan-mələk davasında
Ürəyim əlimdən gedir,
Çırpınır qollarım qoynumda,
Gecəm qan-tər içində,anam,
Günüm qan-tər içində.
Bu əlim,bu da lal dilim,
Sözü xəmir kimi yoğuran dilim,
Cadar-cadar, dilim-dilim
Söz əkib-becərən dilim,
Sözüm qan-tər içində,anam,
Dilim qan-tər içində,
Alnımın qırış yerindən
Taleyin çaparı keçir.
Bu yurdun süyər yerindən
Bir ölüm qatarı keçir,
Elim qan-tər içində, anam,
Obam qan-tər içində.
Toxdayıb, səbrimdən asıldım,
Buğlanıb, ruhumdan asıldım,
Can hamı, qəbrimə qısıldım,
Söndüm qan-tər içində, anam,
Öldüm qan-tər içində.

## ADAŞIM, BALABANÇI KOR ƏLİSƏMİD

- Bir adaşım yaşayır Kürdəmirdə,
Muradxanlı kəndində
Gecəyarı ekranda gördüm
Xəzər TV-də.
Əvvəl-əvvəl danışmadı, dinmədi,
dizləri üstə gözləri yol çəkdi
barmaqlarının.
Sonra adamlar yığışıb
könlünü aldılar onun,
ovutdular.
Çıxartdı üzə balabanı.
Dedi, mənim işim balabanla, neylədi.
Adaşım, balabançı kor Əlisəmid.
Sonra gör neylədi
adaşım, balabançı Kor Əlisəmid.
Qəfil nəfəs verdi balabana,
Sığalladı asta-asta,
bala-bala.
Asta çaldı balabanı.
Hərəkəti yavaş-yavaş,
bala-bala.
Dağı arana daşıdı, aranı dağa.
Anasının balasını ağlatdı,
balasının anasını ağlatdı.
Qəribi çağırdı qürbətdən,
həsrətdən
yolu-yolağa.
Qəfil balabanı qoydu qırağa,
Ürəyinin işığı üzündə,
üzü nur,
üzü pir Əlisəmid.
Çalğı çoxdan qurtarıb,
nə baxırsan?
Əlləri üzündə,
gözləri barmaqlarının ucunda,
adaşım, balabançı Kor Əlisəmid.

## AD GÜNÜ KEÇİRMİR HƏBSXANALAR

Bir qədəh zəhər,
boyu uzunu ipək kəndir
gətirdilər şairə ad günündə.
Səslər gəldi qulağına:
- İçək sənin sağlığına!
İçmədi!..
- İpək kəndir ölçülübdür boynuna,
Keçmədi...
Pıçıldadı öz-özünə
öz qanını içən şair,
”Azadlıq” sözündən asılan şair:
- Ad günü keçirmir həbsxanalar!
...Qismət etmə kafirə də
kamerada, dar otaqda
dönə saat kəfkirinə;
Neçə kilometr yol gəldi şair,
Yol uzanır, yol uzanır
Azadlığın ad gününə
burulğanlar içindən...
Səsin gəlsin, Xəlil Rza,
Səsin gəlsin,
Ad günü keçirmir həbsxanalar!..

## AĞI

Dəli çayların axarı
suların səsindən bəlli.
Mən keçdim,
Sən keçənmədin.
Torpağım heeey!
Sirri kor quyu dibində,
Dərdi üzündən bəlli.
Dəlisi ağıllı kimi,
ağıllısı dəli kimi
Millətim heeey!
Tapdaq altda gözü qalan
ocaq külündən bəlli.
Qorxağı qaçmağından,
İgidi ölümündən bəlli.
Məmləkətim heeey!
Yurdu talan olanım
İndii həsrətlə qol-boyun.
Ulayım qurdtək, ulayım
Millətim heeey!
Məmləkətim heeey!

## DÜNYANIN YALAN GÜNÜ

*Rəsul Rzaya*

Ölümünlə aldatdın bizi
aprelin birində - başaldatdı günü.
Yüyürdüm ölümün ardınca;
İnsan axını yol vermədi
çiynimi verəm
tabutun altına.
...Ölümün utana-utana gəlmişdi
Fəxri xiyabana.
Çəkinə-çəkinə,
qızara-qızara
girmişdi məzara.
Amma Sən,
”özün almışdın çiyninə tabutunu”.
O gün köşklərdə çiçək qalmamışdı,
O gün şehli göz yaşlarıyla
çiçəkləmişdi tabutun da!
Səndən uzaq.
Səndən nigaran
ölümündən xəbərsizdi Nigarın...
Dilim sözə möhtac,
əli gəlmirdi
ölümünə nəğmə qoşmağa.
”Belə olurmuş demək”
dünyanın yalan günü
adam aldatmaq?!
Ölüm xəbəriylə
adlamı aldatmazlar, ustad!

## ADAMLAR DƏYİŞİR HAVALAR KİMİ

Çəkilib uzaqdan baxdım özümə, -
Gördüm görkəmim dəyişib,
Üst-başım tamam köhnəlib,
Dabanı yeyilib çəkmələrimin...
Tanrının gözünə dik baxdığımdan
Xəbərim olmayıb üzümə düşən qırışdan
Yaman inanmışam arvad sözünə:
”- Dağa bənzəyirsən sən bu duruşda”.
Güzgüdə özünə baxıb göz vuran
O şux, o kür adam mən deyilmişəm.
Adamlar dəyişir havalar kimi
İlahi, mən niyə dəyişməmişəm?!
Dünyaya piyada gəlib-gedənlər
Odu eee... yanımdan atlanıb keçir.
Ürək qızdırdığım, çörək kəsdiyim
Qəfildən üstümdən atdanıb keçir.
Mən koram... Sən hara baxırsan, Tanrım!
Sənin də oyunun yamannan-yaman.
Haqqın tərəzisi qurulan vaxtı
Kiminə taxt verdin, kiminə palan.
Çəkilib uzaqdan özümə baxdım, -
bir də üzə gülüb,
arxamca daş atanlara...
Yol üstə ilantək qıvrılanlara...
Başımın üstündə qovğalar kimi
Bu yağış adamlar, külək adamlar -
Bu payız oğlanlar, bu qış gözəllər,
Bu külək oğlanlar, kələk oğlanlar,
Bu payız gözəllər, bu xəzəl qızlar,
Dayanıb yolumda qovğalar kimi, -
Adamlar dəyişir havalar kimi, -
Niyə dəyişmədin, Cəfərin oğlu?!

## QAN BAHASINA

...Əvvəl-axır
buludlar dağılacaq
yağışların qanı bahasına
Çəmənlər saralacaq
çiçəklərin qanı bahasına.
Əvvəl-axır
sevgilər yetim qalacaq
aşıqlərin qanı bahasına
Köklənib ayrılıq havasına
yollar dərvişlərə qalar,
bir də qaraçı köçünə -
mahnıların qanı bahasına.
Hamı sevgidən doğulmur,
Hamı sevgiyə möhtacdı.
Əvvəl-axır söz dedim,
könül açdım.
Söz dedim sevdiyim qədər -
ürəyimin qanı bahasına .
buludlar dağıldı, keçər...
çəmənlər saralıb, köçər...
Sözlərim ürəyimin qanını içər,
İçər, -
ömrümün qanı bahasına.
...Qiyamət günüdü yoxsa,
Yoxsa Miflərin dağılan günü...
Uğultusu eşidilir dərdlərin,
Zəlzələsi qabaqdadı kədərlərin.

# Azərbaycançılıq ideyasının təbliği

№ 5 (2379) 9 fevral 2024-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi



# Azərbaycanı dünyaya tanıdan əməllər

**Hər bir xalqın, hər bir ölkənin və hər bir millətin öz tarixi, öz mədəniyyəti və öz yaşam tərzi var. Təbii ki, bu ənənələrə uyğun da inkişaf və tərəqqi mövcuddur. Birmənalı olaraq demək olmaz ki, filan xalq daha zəngin və daha qədim keçmişə malikdir. Bayaq dediyimiz kimi, hamımız bu fikirlə razılaşmalıyıq ki, hər bir xalq özünü sevir, özünü yaşadır, adət və ənənələri ilə dünyaya tanınır.**

Azərbaycan da çox zəngin tarixi keçmişə və qədim mədəniyyətə malikdir. Bu xalqın qədim bir tarixi, bir həyat tərzi və yaşam yolu var. Bəlkə də Azərbaycan xalqı dünyanın yeganə millətidir ki, o, bütün xalqlara, bütün millətlərə böyük sevgi, böyük məhəbbətlə yanaşır. Heç də hər bir millət və hər bir xalq bu dəyərlərə malik deyildir. Çünki bir də görürsən ki, tarixi olmayan, bir kökü olmayan millət özünü dünyanın ən qədim xalqı kimi təbliğ edir.



Heç uzağa getməyək, mənfur erməniləri yada salmaq bəs edir. Bu millətin nə dövləti olub, nə ərazisi olub, nə də tarixi keçmişi. Amma özünü dünyaya ən qədim millət kimi təqdim edir və qəribəsi də odur ki, dünya ermənilərin bu yalanlarına inanır, onlara sevgi ilə, məhəbbətlə yanaşır. Deyirlər ki, yalanın ömrü qırx gündür, qırx gündən sonra hər şey aydınlaşır, yəni sular durulur və məlum olur ki, bunlar hamısı yalanmış. Təəssüf ki, ermənilərin yalanları isə açılmır ki, açılmır, əksinə gündəngünə çiçəkləyir, Avropanı və Amerikanı "fəth" eləyir. Ancaq gəlin səbirli olaq, vaxt gələcək, onların iç üzü açılacaq və hər şey göy üzü kimi təmiz olacaq. Bax, onda ermənilər də ifşa olacaq, onlara arxa duranlar da!

Azərbaycançılıq ideyalarının təbliği daim diqqət mərkəzində olmalıdır ki, dünya həqiqəti, eləcə də tariximizi, keçmişimizi və mədəniyyətimizi yaxşı tanısın. Heç şübhəsiz, xarici ölkələrdə fəaliyyət göstərən səfirliklər və eləcə də qeyri-hökumət təşkilatları xalqımızın nə qədər zəngin keçmişə malik olmasını digər ölkələrə çatdırmamış deyil, amma görünən odur ki, bizi - yəni, Azərbaycanı hələ dünya bir o qədər də yaxşı tanımır. Təbii ki, bu da dövlətimizlə bağlı zəngin məlumatları digər ölkələrə ötürməkdə və çatdıırmaqda ləngiməyimizdir. Amma fakt faktlığında qalır ki, bu gün Azərbaycana kimin yolu düşürsə, onlar ölkəmizin nəinki tarixi keçmişinə və eləcə də bugünkü inkişafına təəccüblənirlər, onlar gəlib heç bir ölkədə görmədikləri diqqəti və qayğını, sevgini bizim ölkədə görürlər. Onlar görürlər ki, doğrudan da Azərbaycan balaca ölkə olmasına baxmayaraq, nəinki Yaxın Şərqdə, dünyada sayılıb-seçilən ölkələrdən biridir. Çünki bu ölkə heç vaxt dini inanclara və eləcə də müxtəlif dinlərə və ayrı-ayrı xalqlara pis gözlə baxmayıb, əksinə hər bir başqa xalqın mədəniyyətinə, adətinə, dilinə, dininə hörmətlə yanaşıb. Bir dəfə Almaniyadan bir əcnəbi bizə qonaq gəlmişdi. Dedi ki, dünyanın heç bir ölkəsində görmədiyim mədəniyyəti, əxlaqı Azərbaycanda, Bakıda gördüm. Adətən, başqa ölkələrdə olanda, onların vətəndaşları bizə yuxarıdan aşağı baxırdılar və bəzən hətta kobudluq edirdilər. Amma Azərbacyanda tamamilə bunun əksini gördüm. Gördüm ki, mən alman olsam da, mənə sizin millətin nümayəndələri çox böyük sevgi ilə yanaşırlar. Avtobusda, metroda hamı ayağa qalxıb mənə yer verirdi. Sözün düzü, mən heç harda belə bir diqqət görməmişdim və çaşıb qalmışdım. Bir nəfər orta yaşlı bir kişi mənimlə almanca danışdı. Gördüm ki, bizim dili, tariximizi, mədəniyyətimizi gözəl bilir. Həmin adam məni evinə dəvət elədi və bir axşam da qonaq saxladı. İnanın, mənə ən yaxşı otağı vermişdi və gülə-gülə dedi ki, biz bu otağı həmişə qonaq üçün saxlayırıq. Qonaqqaramız olanda, onlar bu otaqda istirahət edir və yatırlar. Səhər-səhər də yuxudan qalxanda gördüm ki, masanın üstünə çox ləziz gözəl yeməklər var. Qaymağa gözüm düşdü, dedilər ki, Gəncə qaymağıdır.

Üstünə də sizin Lerik rayonundan gətirilmiş baldan töküb, ləzzətlə yedim. O qaymağın, o balın dadı damağımdan bu gün də getməyib. Nolsun ki, biz avropalıyıq, amma Allaha and olsun ki, Avropada Azərbaycanda olduğu qədər qonaqpərvərlik, səmimiyyət və şirinlik yoxdur. Sadəcə olaraq, siz bunu dünyaya az təbliğ edirsiniz. Ancaq mən Almaniyaya gedəndən sonra sizin belə gözəl adət-ənənəniz və qonaqpərvərliyiniz barəsində ağızdolusu danışdım. Elə mənim qohumlarım da bu söhbətə çox maraqla qulaq asdılar. Dedilər ki, sənin danışdığın həqiqətdən çox nağıla oxşayır. Mən də dedim ki, ay qardaşlar, demirsiniz nağıla oxşayır, gedin Azərbacyana görün mən nağıl danışıram, yoxsa gördüklərimi? Bax, mənim bu söhbətlərimdən sonra bir neçə qohumum Azərbacyana gəzməyə getdi və dediklərimin şahidi olduqlarını söylədilər. Görürsünüzmü, bizim ölkənin, bizim dövlətin və bizim xalqın dünyada necə böyük nüfuzu var.

Yəni, hər hansı bir əcnəbi Azərbaycana gəlirsə, burada çox şeyi görüb təəccüblənir. Təəccüblənməyə də bilməz. Çünki bu xalq, bu millət heç vaxt kiminsə torpağına, varına, dövlətinə, vətəninə göz dikməyib və Azərbaycan dünyada heç bir ölkənin haqq işinə də müdaxilə etməyib. Sadəcə olaraq, Azərbacyanın zəngin mədəniyyəti, zəngin həyat tərzi bir daha təsdiq edir ki, Azərbaycan dünyadan görünən bir ölkədir. Bu ölkədə bütün xalqlar, bütün millətlər çox rahat yaşayır, fəaliyyət göstərir və gözəl həyat tərzi keçirirlər. Əlbəttə, dünyada ən ali dəyərlər insalıqdır.

İnsanlıq və humanistlik olmayan yerdə bütün digər nələr varsa, gözdən düşür. Qüdrətli Azərbaycan dövləti və Azərbaycan xalqı birmənalı olaraq deyə bilərik ki, öz adət-ənənələri heç bir millətə bənzəməyən dəyərləri ilə həmişə seçilib və bundan sonra da seçiləcək. Ən azından ona görə ki, bu dövlət və bu xalq demokratik dəyərlərə, bəşəri duyğulara və eləcə də digər qeyri-adi keyfiyyətlərə malikdir. Ona görə də dünya xalqları Azərbaycanı tanıdıqca, bizim millətə və dövlətə məhəbbətləri daha da artır!

**Şübhəsiz ki, hər bir inkişafın və tərəqqinin mövcudluğu xalqların daha da bir-birinə yaxınlaşmasını və yaxından tanımasına xidmət eləyir. Bu həm də ona xidmət eləyir ki, Azərbaycan bütün dünya xalqlarını özünə doğma bilir və hətta düşmənləri ilə belə isti münasibət yaratmaq və normal yaşamaq haqqında düşünür. Daha doğrusu, həmişə bu addımı atır. Çünki Azərbaycan dünyanın sülhsevər bir ölkəsidir!**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Aktyor: "O, teatrda rol ifa edəndə özümü saxlaya bilməyib, ağladım"

*Uşaqlıq illərimizin sevimlisinə çevrilən "Mozalan"ını çoxumuz xatırlayırıq. Müsahibimiz "Mozalan"nın sevimli simalarından biri olan Akademik Milli Dram Teatrının aktyoru əməkdar artist Mirzə Ağabəylidir.*

**-Siz bir teatr aktyorusunuz. Və kino aktyorunu teatrda necə görürsünüz?**

-Aktyorluq sənəti bir ağac kimidir. Eyni kökdən, eyni gövdədən olan yarpaqlar sadəcə müxtəlif olur. Bütün hallarda ağac ağacdır. Sadəcə onun meyvəsi fərqli olur. Aktyorluq sənəti də belədir. Teatr aktyoru, kino aktyoru, pantomima aktyoru, estrada aktyoru v.s kimi sözlərin kökündə əsas söz "aktyor" sözü dayanır. Bu sənətin sahibləri eyni ali məktəbi bitirirlər. Çoxları da (80%) eyni müəllimdən dərs alır. Ancaq əsas məsələ aktyorun səhnədə bacarığı və ortaya çıxardığı məshuludur. Aktyorluq sənətində yolun başlanğıcı eynidir. Amma cığırlar başqadır. Bunu zamanla aktyor özü də görür. Teatr əbədi sənətdir. Çalışmaq lazımdır ki, onun təbiiliyini itirməyəsən.

1873-cü ildə Azərbaycan teatr sənətinin əsası Cahangir Zeynalov tərəfindən "Hacı Qara" əsəri ilə qoyulub. Ancaq bununla yanaşı biz bu tarixi əsas tuta bilmərik. Bundan əvvəl şəbeh teatrı olub. O zamanlar dini-islami əxz eləyən teatrlar olub ki, meydanlarda nümayiş olunub. Bu teatr sırf islama yönələn və sırf islamı təbliğ edən teatr olub. O teatrlarda ancaq islam dini və imam-peyğəmbərlərin başlarına gətirilən müsibətlər səhnələşdirilirdi. O zaman bir çox insanlar Yezid rolunu ifa etməkdən çəkindilər. Onlar cammatın qınağı qorxurdu.

Həmin bu teatrlar yeni bir aktyor nəslinin yetişməyində mühüm rol oynayır.

İnsanlar bəzən şəbeh teatrları ilə meydan teatrlarını səhv salırlar. "Kosa-kosa", "Yel baba" v.s bu kimi oyunlar meydan teatrına aiddir.

Sizin sualınıza qayıdış eləsək, belə bir cavab verə bilərəm ki, teatr tarixinə nəzər salsaq, lap başlanğıc dövründən kino sahəsində çalışanların bir çoxu elə teatr aktyorları olub.

**-Bu gün həmin profesionallar var və biz həmin yaxşı məhsulu görə bilirik ? Bəlkə də əldə edə bilirik desək daha dəqiq olar.**

-Bilirsiniz, mənim aləmimdə burda fərq azdır.O dövrdə də işini mükəmməl bilən var idi, bu dövrdə də. Məsələ burasındadır ki, aktyor ona verilən rolun öhdəsindən necə gəlir. Doğrudur, etiraf edək ki, teatr daha çətin sənətdir. Ancaq istedadlı aktyor gərək ki bu çətinlikdən qorxmasın.

Əvvəlki dövrə nəzər salsaq görərik ki, Abbas Mirzə və Hüseyn Ərəblinski kimi dəyərli sənət inciləri həm teatrda rol ifa ediblər, həm də kinoda.

Ancaq son dövlər bu ənənə zəiflədi. Teatr aktyoru asanlıqla kinoda rol ifa edə bilir. Ancaq kino aktyorunun teatr səhnəsinə öyrəşməyi biraz çətin olur. Çünki teatrda aktyor tamaşaçı ilə "nəfəs- nəfəsə" rol ifa edir. Səmimi etiraf edək ki, kino aktyoru teatrda çətinlik çəkir.

**-Mirzə bəyi kino aktyoru hesab etmək olar, yoxsa teatr aktyoru?**

- Əlbəttə ki, mən teatr aktyoruyam. Mən bir- iki filmdə rol almışamsa, "Mozalan"a çəkilmişəmsə, bir neçə reklamda görünmüşəmsə, bu, o demək deyil ki, mən kino aktyoruyam.

Sovet dövründə çox istedadlı kino aktyorları var idi ki, onlar teatra gələndə də, teatrda çox qalmadılar. Rasim Balayev, Həsən Əbluc, Şahmar Ələkbərov



kimi dəyərli aktyorlarımız dediyim kimi teatrda çox çalışmayıblar.

Ancaq Yusif Vəliyev kimi böyük, nəhəng aktyor kinolarda çəkilsə də, o teatrda rol ifa edəndə özümü saxlaya bilməyib, ağladım.Yusif müəllim hər iki sahədə də çox böyük aktyor idi. Həsən Turabov, Hökümə Qurbanova və bir neçə aktyorları bu sıraya əlavə etmək olar.

Kino "soyuq" sənətdir, ancaq teatr "isti". Teatrda səhv eləyəndə onu düzəltmək olur, çünki həmin tamaşa səhnəyə qoyulanda daha diqqətli olursan. Ancaq kinoda səhv elədinsə, həmin səhv, kino lentində qalır. Sən də bir aktyor kimi bunu görürsən və harda səhv etdiyini bilirsən. Lakin onu düzəldə bilmirsən.

Kinonun bir xususiyyəti var ki, tamaşaçı kinonu rahat qəbul edir. Bunun da səbəbi təbiətdə olan hər şeyin kinoda olmasıdır. Kino mavi ekranda həyat deməkdir. Ancaq teatr belə deyil axı. Teatrda canlı səhnə, aktyor və tamaşçı olur.

**-Bundan əlavə insanlar indi kinoya daha çox meyillidir, nəinki teatra**

- Sovet dövründə teatra bilet tapılmırdı. O vaxt teatra bir axın var idi.

Teatrda iki dövr var idi: romantik dövr, realist dövr. Hər dövrün özünün əsərləri və o əsərlərin də tamaşaları olurdu.

Tofiq Kazımov teatrda realist "məktəb" yaratdı. Belə olan halda romantik "məktəb" darmadağın oldu.

Kino sənətinin görkəmli siması Ədil İsgəndərovun bütün yaradıcılığı romantik "məktəb"ə xidmət edirdi.

Müəllimim SSRİ xalq artisti Mehdi Məmmədov deyirdi ki, əgər səhnədə sən tamaşaçını inandıra bilmirsənsə, demək günah sənin özündədir.

**-Tamaşaçı teatra getmirsə, o demək deyil ki, teatr fəaliyyət göstərmir**

- Bilirsiniz, bütünlüklə tamaşaçını da günahlandırmaq olmaz. Tamaşaçı teatra gəlir və tamaşaya baxır. Səhnələşdirilmiş tamaşanın ya əsəri bəyənilmir, ya rejissor yaxşı olmur, ya da aktyor oyunu zəif olur. Tamaşaçı da bir tamaşaya görə bütün teatrlardan qaçır. Ancaq profesional teatr tamaşaçısı bu incəliyin fərqinə varır. Yəni dərk edir ki, bir tamaşaya görə bütün teatrlardan imtina etmək olmaz.

Teatr xalqın içindən çıxan bir güzgüdür.Tamaşa mütləq dövrlə səsləşməlidir. Çox təəssüf olsun ki,bu gün elə hadisələr baş verir ki, nə onu qələmə almaq olur, nə də ki səhnələşdirmək.

**-Axı bizim söz azadlığımız var...**

-Siyasətlə bağlı film çəkilməyinə qadağa qoyulub. Heç kəs də risk edib bir tikə çörəyindən keçə bilmir. Doğrusu heç kəsi qınamaq olmaz.

Ancaq Türkiyədə və digər ölkələrdə gördüyünüz kimi belə qadağalar yoxdu.

Tamaşaçı bu gün mavi ekranda baş verənləri mütləq həqiqət kimi qəbul edir. Ancaq indiki dövrdə efirdə ibrətamiz demək olar ki, tamaşaçıya heç nə göstərilmir. Televiziya insanların beynində bir inqilab edib. Bir gənc görür ki, hansısa telekanalda Alim Qasımov oxuyur. Uşaq tez kanalı dəyişir. Bu dəhşətdir. Millətindən, dinindən, mədəniyyətindən, milli ənənədən qopan gəncin hansı parlaq gələciyindən danışmaq olar?!

Bizi kinodan, teatrdan mədəniyyətimizdən uzaqlaşdıran bu günkü ucuz şoulardı. Hansı ki tamaşaçı həmin verlişləri maraqla izləyir. Yazıq tamaşaçı başqa nəyə baxsın axı ? Efir nəyi nümayiş etdirirsə, tamaşaçı da ona baxır.

Bizim nəslin insanları bir çoxu dünyasını dəyişir, bir çoxunun imkanı olmur teatra gəlməyə. Mən bunları da nəzərə alıram.

**-Mirzə bəy, bir daha teatr mövzusuna qayıdaq...**

- Yenə deyirəm, teatr bir məktəb olmalıdır. Sovet dövrünə nəzər salsaq Ədil İsgəndərov məktəbi, Tofiq Kazımov məktəbi, Mehdi Məmmədov məktəbi.. bu siyahını artırmaq da olar.

Ancaq bu gün bir məktəb var ki, o da həyasızlıq məktəbidir. Kim harda nə gəldi eləyir. Bu elədiyindən də məmnun olur. Bu dəhşətdir. Bu gün efirdə mədəniyyətdən başqa hər şey gəstərilir.

**Əntiqə Kərimzadə**

# Psixoloq: "Heç kəs səni burda görmək istəmir"

**"Səni axtarıram" proqramında ekspert kimi iştirak edən psixoloq Könül Cəfərova verilişin iştirakçısı Gülxanımı "Günaydın Azərbaycan"da görmək istəmədi.**

Adalet.az xəbər verir ki, psixoloq Gülxanımın verilişdən getməsini tələb edib: "Gülxanım, həftənin beş günü gözümüzü mazol etmisən. Dur,çıx get,



Gülxanım. Heç kəs səni burda görmək istəmir. Hamı sosial şəbəkədə yazır ki, bizim qızlarımıza pis nümunədir."

Gülxanım isə verilişə Xoşqədəm Baxşəliyevaya görə gəldiyini söyləyib:

"Mən burdan gedən deyiləm. Bura Xoşqədəm xanımın evidir. Mən ona görə gəlmişəm. İstəmirsinizsə, gələn dəfədən gəlmərəm".

**Əntiqə**

## *Çox kövrəldim...*

**İstedadlı müğənni Səyyad Əlizadənin " Yarab" mahnısını dinlədim...**



İtirdiyim əzizlərim, doğmalarım , dostlarım, eləcə də Səyyad qardaşımız gözümün önünə gəldi, səslərini eşitdim, ruhlarını hiss etdim... Və çox kövrəldim...

Ona da kövrəldim ki, elə bir istedadlı və tərbiyəli müğənni bizi tez tərk etdi... Od tutub yanıram ki, bal kimi şirin səsi olan müğəninin bir mahnısını belə televiziyalar niyə səsləndirmir?!

Düşük- düşük "manıs" lar efirdən düşmür, narkoman meyxanaçılar meydan sulayır, amma Səyyad Əlizadə yada düşmür! Niyə, balam?! Çünki onun arxası və yiyəsi yoxdur!!!

## *"Sevdim səni"*



**Xumar Qədimovanın Ramiz Rövşənin sözlərinə bəstələdiyi " Sevdim səni" mahnısı onun ifasında çox möhtəşəm səslənib! Sözlər möhtəşəm... Musiqi möhtəşəm... İfa möhtəşəm... Bax, xalqa belə mahnılar lazımdır!..**

**EMİL FAİQOĞLU**

## *Günah Mahsunda deyil, Urmiyanın tarixini saxtalaşdıranlardadır*

**Türkiyənin məşhur müğənnisi, kürd əsilli Mahsun Kırmızıgül 2020-ci ildə, 44 günlük müharibə dövründə Azərbaycana dəstək olan türk sənətçilərdən olub.**

Kırmızıgül ermənilərin Gəncədə törətdiyi terror nəticəsində yaralanan uşaqların fotosunu paylaşaraq, yazmışdı:"Bu uşaqlara yazıqdır. Savaşın qazananı olmaz. Gəncədə mülki əhaliyə edilən bu hücumu qınayıram. Azərbaycan xalqının yanındayam". Yəni Mahsun Kırmızıgül hər zaman Azərbaycana doğma münasibət sərgiləyib.

Bu günlərdə Mahsun Qırmızıgül əzəli türk şəhəri olan Urmiya haqqında kürd vilayəti iddiası ilə mahnı oxuyub. Məlumata görə Mahsun Qırmızıgül "Urmiya və əziz gəlinim 2024" adlı video-çarxını kürd dilində yayımlayıb. O, oxuduğu mahnıda Azərbaycanın Təbrizdən sonra ikinci ən böyük şəhəri və bütün türklərin ata yurdu olan Urmunu kürd şəhəri adlandırıb. O öz mahnısında "Urmiya mənim ölkəmdir" (Urmiye velate men) ifadəsini də işlədib. Mahnı Güneydə kəskin etiraz doğurub.

Qeyd edək ki, sənətçi bizə məxsus dəyərləri hər zaman qiymətli bilib. O, Tovuz rayonu ərazisində gedən döyüşlərdə şəhid olan general-mayor Polad Həşimovun fotosunu sosial şəbəkədə paylaşaraq ailəsinə və ölkəmizə başsağlığı verib:

"Qəhrəmanlığına görə dövlət tərəfindən ona verilən evi şəhid ailəsinə bağışlayan, ona verilən maşını geri qaytarıb işə metro ilə gedib-gələn, Azərbaycan siyasətçilərinin örnək alması lazım olan general-mayor Polad Həşimov şəhid olub. Azərbaycan şəhidlərinə Allahdan rəhmət diləyirəm".

Belə hesab etmək olar ki, kürdlərin taleyində mühüm yeri olan ermənilərin yazdığı saxta tarixi oxuyan həmin tarixdən ilhamlanıb. Yəqin ki, əsl tarixçilər ona gerçəyi başa salarlar. Yeri gəlmişkən, Türkiyənin ən adlı-sanlı müğənnisi Sezen Aksu da "Sarı gəlin" mahnısını erməni dilincə oxuyaraq onu erməni xalq mahnısı adlandırmışdı.

Amma həmin mahnının Azərbaycan xalq mahnısı olduğunu bütün dünya bilir və Sezen Aksudan da güclü müğənni olan Sami Yusif öz repertuarına daxil etmişdi. Sözümün canı odur ki, kim nəyi necə deməsindən asılı olmayaraq dünya gercəkləri və dəqiq tarixi yaxşı bilir. Elə Urmiyanın kürdlərə məxsus olmadığını da!

**Əntiqə Rəşid**

**Voropayev Vladislav Yevgenyeviçin adına qeydiyyatda olan 110FY516 dövlət qeydiyyat nişanlı, JLC 80HX markalı səbətli qaldırıcının AZ000396 nömrəli qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.**

***

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən Zeytun 2015 MMC-yə verilən 13 iyun 2022-ci il tarixli İN / İTS-26 / 2022 №-li İnvestisiya təşviq sənədi itdiyi üçün etibarsız sayılır.**

Sabir Cümşüd və Vaqif Nəsib Sarıhüseynoğlu general-mayor **Namiq Poladova** qardaşı

**Rövşənin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


| Təsisçi və baş məsləhətçi: Aqil ABBAS | Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir. | KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı. kod: 200112 h\h Müxbir hesab: 0137010001994 S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N: 38070019411100451111 VÖEN: 1300456161 İndeks:0107 Qeydiyyat nömrəsi 100 | Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə. Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26 adaletqezeti@rambler.ru adaletqezeti@mail.ru, adaletqezeti@box.az | Tiraj: 1500 Sifariş: 166 Çapa imzalanmışdır: 08.02.2024 |
|---|---|---|---|---|
| Baş redaktor: İradə TUNCAY | Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. | | | |